Xalqın qəzeti!

# Xalq qəzeti

№ 143 (30259) 12 iyul 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Bizim büdcə dürüstləşməsindən sonra iki əsas istiqamətimiz Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətimizin artırılması idi. Mən demişəm, iki istiqamət üzrə - hərbi potensial və azad edilmiş torpaqların bərpasına nə qədər vəsait lazımdır biz o qədər də ayıracağıq.**

# Azərbaycanın dayanıqlı inkişafı təmin edilir

## Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib



İyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə çıxış edib.

(ardı 2-ci səhifədə)



# Azərbaycan Macarıstana 100 milyon kubmetr qaz ixrac edəcək

Səhifə ⇨ 9

# “Qoçaq” diplomatın “qorxaq” baş nazirə ittihamları

**Ermənistanın sabiq xarici işlər naziri Vardan Oskanyan baş nazir Nikol Paşinyanın ünvanına yeni ittihamlar səsləndirib. Paşinyanın Azərbaycanla bağlı siyasətini sərt tənqid edən sabiq diplomat onu təslimçilikdə və hədsiz itaətkarlıqda suçlayıb. Oskanyan deyir ki, Paşinyanın Azərbaycanla münasibətdə yol verdiyi ən böyük yanlışlıqlardan biri “tanıyıram” və “qəbul edirəm” ifadələrindən mütəmadi istifadə etməsidir. Sabiq dplomatın fikrincə, Paşinyan bu ifadələrdən o qədər çox istifadə edib ki, “ikinci təfsir” şansına yer qalmır...**



Oskanyan açıqlamasında Paşinyanın “yumşaq siyasətçi” obrazını formalaşdırmaqla ictimai rəydə özünün “sərt diplomat” imicini yaratmağa cəhd edib. Maraqlıdır ki, sabiq xarici işlər naziri Paşinyanın “birdən-birə” niyə belə yumşalmasına aydınlıq gətirmir. Halbuki, Paşinyanın Qarabağla bağlı dəfələrlə kəskin ifadələr işlətdiyi hamıya məlumdur. “Qarabağ Ermənistandır və nöqtə” ifadəsinin məhz Paşinyan tərəfindən səsləndiyi, onun dəfələrlə ölkəmizi müharibə və yeni işğallarla hədələdiyi yaxın tarixi keçmişin inkaredilməz faktlarındandır.

(ardı 7-ci səhifədə)

# “Şahdəniz” yatağı: Azərbaycan qaz sənayesinin şöhrət tacı



**24 il öncə, 1999-cu il iyulun 12-də Xəzərin Azərbaycan sektorunda yerləşən “Şahdəniz” yatağının açılması rəsmən elan olunub. Bu münasibətlə ölkə prezidenti, ulu öndər Heydər Əliyevin iştirakı ilə təntənəli təqdimat mərasimi keçirilib.**

Açılışda ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev, Şahdəniz konsorsiumunun prezidenti, “BP-AMOKO Eksploreyşn–Azərbaycan şirkətinin rəhbəri Endi Honvud, “Statoyl” şirkətinin maliyyə nəzarəti meneceri İnge Layf Rulendsholm, əfsanəvi neftçi-geoloq, akademik Xoşbəxt Yusifzadə, eləcə də Böyük Britaniya, ABŞ, Norveç, Rusiya, İtaliya, Türkiyə, Fransa və İranın ölkəmizdəki səfirləri iştirak ediblər.

(ardı 9-cu səhifədə)

# Laçın yolu bağlandı... BQXK-ya cinayət işi açıldı

**Separatçı rejimin yaratdığı dözülməz şəraitdən əziyyət çəkən Qarabağın erməni əhalisinin siqaret və benzin qaçaqmalçılığına kefdən əl atmadığını söyləməyin yeri var. Bəs Xankəndidəki qondarma rejimin başbilənlərinin, eləcə də Hayastan rəhbərliyinin Azərbaycanın Laçın yolunu bağladığı, “blokadaya salınmış ermənilərin etnik təmizləməyə” məruz qalacaqları ilə bağlı dünyanın dörd tərəfinə car çəkmələrinə nə ad verək?**




Əgər elə idisə onda bu qədər mal-məhsul sərhəd postumuzda necə və haradan peyda olur? Hayların Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) kimi dünyanın ən xeyirxah təsisatının maşınlarında qaçaq malları aşkar edildəndən sonra Dövlət Sərhəd Xidmətinin buraxılış məntəqəsini bağlamasını da vay-şivənlə qarşılayıblar. Erməni mediası Azərbaycan DSX-ya istinadla “Azərbaycan BQXK-nı günahlandıraraq Laçın dəhlizini tamamilə bağladı” başlıqlı xəbərlər yayırlar.

(ardı 8-ci səhifədə)

## Rusiya-Türkiyə münasibətləri: Ukrayna böhranı, Qərbin Cənubi Qafqaz plasdarmı və Qarabağ



Səhifə ⇨ 4

# Türk xalqlarının mənəvi körpüsü

Səhifə ⇨ 6



# “Qarabağ”ın Cəbəllütariq qələbəsi

Səhifə ⇨ 11

# Deyəsən, haylar “dəmir yumruq” üçün darıxıblar



**Ermənistan yenə öz ampluasındadır. Rəsmi İrəvan nəinki 2020-ci ilin noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatla öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir, həm də iki ölkənin şərti sərhədində yeni-yeni təxribatlar törədir.**

Son vaxtlarda isə Hayastanın atəşkəs rejimini şərti sərhədin az qala bütün istiqamətlərində və Rusiya sülhməramlılarının müvəqqəti nəzarəti altında olan ərazilərdən pozması diqqəti cəlb edir. Müdafiə Nazirliyi Mətbuat xidmətinin yaydığı məlumat bunun göstəricisi sayıla bilər.

(ardı 8-ci səhifədə)

# Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib

## Prezident İlham Əliyevin çıxışı

*(əvvəli 1-ci səhifədə)*



– İlin əvvəlində verdiyim tapşırıqların yerinə yetirilməsi ilə bağlı bir çox addımlar atılmışdır. İlin altı ayı arxada qalır. Müəyyən dərəcədə yekunlar haqqında danışmaq olar. Halbuki əminəm ki, ilin sonuna qədər ölkəmizin uğurlu inkişafı təmin ediləcəkdir. Bu ilin altı ayında isə əsas istiqamətimiz ölkəmizin dayanıqlı inkişafının təmin edilməsi, qeyri-neft sektorunun inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası, iqtisadi və sosial sahələrdə islahatların davam etdirilməsi idi.

Deyə bilərəm ki, bütövlükdə altı ay ərzində iqtisadiyyatımız inkişaf edib, halbuki mütləq rəqəmlər o qədər də böyük deyil. Ancaq qeyri-neft sektorumuz və qeyri-neft sektorunun sənaye sahəsi kifayət qədər artıbdır. Qeyri-neft sənayemiz 6,5 faiz artıbdır və qeyri-neft sektoru, ümumiyyətlə, 3 faizdən çox artıbdır.

Bununla bərabər, bizim maliyyə vəziyyətimiz böyük dərəcədə yaxşılaşıb, bunun bir çox səbəbləri var. İlk növbədə, maliyyə sektorundakı nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük orqanlarında islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi - bütün bu amillər imkan verdi ki, ilin ortasında biz büdcəyə yenidən baxaq və dürüstləşmə aparaq. Bu, çox sevindirici haldır, çünki proqnozlardan xeyli dərəcədə böyük vəsait toplanmışdır. Onsuz da bizim builki dövlət büdcəmiz rekord həddə çatmışdır, 33 milyard manatdan çox səviyyəyə qalxmışdır. Ancaq ilin birinci yarısında əlavə gəlirlərin əldə edilməsi imkan verdi ki, biz təcili həllini gözləyən məsələləri daha tez zamanda həll etmək üçün büdcəyə əlavələr edək və bunu etdik. Bu gün bizim büdcəmiz 36 milyard manatdan çoxdur. Əlbəttə, bu, bizə imkan verir ki, həm ölkə qarşısında duran əsas investisiya layihələrini icra edək, ilk növbədə, bir daha demək istəyirəm ki, azad edilmiş torpaqlarda geniş quruculuq işlərinə növbəti təkan verək və bizim hərbi gücümüzü artıraq.

Dürüstləşmə zamanı bizim əsas iki istiqamətimiz də çox açıq-aydın qoyulmuşdur. Bütövlükdə 3 milyard manatdan çox vəsait əlavə edildi. Bunun 1,8 milyard manat hissəsi Qarabağın və Şərqi Zəngəzurun bərpa edilməsinə istiqamətləndirilmişdir, 1,1 milyard manat isə hərbi potensialımızın güclənməsinə. Yəni, ayrılmış məbləğin mütləq əksəriyyəti bu iki istiqamətə yönəldilmişdir və bu da təbiidir. Çünki bu gün ölkə qarşısında duran iki əsas vəzifə məhz bu vəzifələrdir.

Biz xarici dövlət borcunun idarə edilməsi istiqamətində də öz işimizi mənim bir neçə il bundan əvvəl verdiyim tapşırıqlar əsasında qurmuşduq. Mən bir neçə il bundan əvvəl demişdim ki, biz qarşıya hədəf qoymalıyıq və qoymuşduq ki, xarici dövlət borcumuz ümumi daxili məhsulumuzun 10 faizinin altında olsun, o səviyyədə olsun. Biz artıq bu hədəfə də çatdıq. Mütləq rəqəmlərdə bizim borcumuz cəmi 6,7 milyard dollardır və bu da ümumi daxili məhsulumuzun təxminən 10 faizini təşkil edir. Əlbəttə ki, ümumi daxili məhsulumuzun son rəqəmləri ilin sonunda hesablanacaq. Ancaq indi də proqnoz vermək mümkündür. Birinci altı ayda ümumi daxili məhsul 60 milyard manatdan çox təşkil etmişdir.

Müsbət məqamlardan biri və bu da xüsusilə qeyd olunmalıdır. Çünki bir çox ölkələrdə, hətta ölkələrin əksəriyyətində biz tamamilə başqa mənzərə görürük. Amma bizdə xarici ticarət balansımızın müsbət - yəni, profisiti çox böyük səviyyədədir. Ölkələrin böyük əksəriyyəti daha çox idxal edir, nəinki ixrac edir. Bizdə isə bu, tam əksinədir və ilin birinci altı ayında bizim profisitimiz təqribən 10 milyard dollara yaxındır. Əgər bu templər qorunsa, təsəvvür edin, biz ilin sonuna qədər hansı rəqəmlərə çatacağıq. Təbii ki, bunun birbaşa təsiri makroiqtisadi sabitliyin təmin edilməsinədir. Makroiqtisadi sabitlik uzun illər ərzində təmin edilir. Manatın məzənnəsi altı ildir ki, sabitdir və bu da dünya praktikasında, xüsusilə indiki şəraitdə nadir hadisələrdən biridir. Yəni, bu, düşünülmüş siyasətin təzahürüdür və bu siyasətin mərkəzində təbii ki, Azərbaycan vətəndaşı dayanır. Çünki makroiqtisadi sabitlik təbii ki, ölkə iqtisadiyyatına təsir edir. Amma, ilk növbədə, bunun ən ciddi təsiri insanların yaşayış səviyyəsinədir. Bizdə isə həm minimum əməkhaqları, həm minimum pensiyalar müntəzəm olaraq artırılır. Bununla paralel olaraq manat sabitdir.

Əlbəttə ki, inflyasiyanın ikirəqəmli olması bizi düşündürməlidir. Ümid edirəm ki, ilin sonuna qədər inflyasiya birrəqəmli səviyyəyə düşə bilər. Burada təbii səbəblərlə yanaşı, subyektiv səbəblər də vardır. Onlar daha ciddi araşdırılmalıdır və ilin sonuna qədər atılacaq addımlarla bağlı təkliflər verilməlidir. Çünki Azərbaycanın bütövlükdə iqtisadi potensialı və iqtisadi sahədə əldə edilmiş nəticələr fonunda inflyasiyanın 12 faiz səviyyəsində olması, əlbəttə ki, arzuolunan deyil.

Qeyd etdiyim kimi, bizim büdcə dürüstləşməsindən sonra iki əsas istiqamətimiz Qarabağın, Şərqi Zəngəzurun bərpası və hərbi qüdrətimizin artırılması idi. Birinci istiqamətlə əlaqədar deyə bilərəm ki, hər şey nəzərdə tutduğumuz planlardan daha sürətlə icra edilir. Bütün güclərimizi səfərbər etmişik. Artıq bu il Talış kəndinə və Laçın şəhərinə keçmiş məcburi köçkünlərin qayıtmasını təmin etmişik. İlin sonuna qədər Laçın şəhərinin Zabux və Sus kəndlərinə də keçmiş məcburi köçkünlər qayıdacaqlar. Qayıdış proqramı ardıcıllıqla aparılır və beləliklə, ilin sonuna qədər bizim artıq beş yaşayış məntəqəmizdə - bir şəhər və dörd kəndimizdə vətəndaşlar öz dədə-baba torpaqlarında tam məskunlaşacaqlar. Bütövlükdə Böyük Qayıdış proqramının birinci mərhələsində 100 yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Mən şəxsən 30 yaşayış məntəqəsinin - 8 şəhər, 22 qəsəbə və kəndin təməlinin qoyulmasında iştirak etmişəm. Baş planlar hazırlanıb təsdiqlənib, bir çox yerlərdə fəal inşaat işləri aparılır. Təbii ki, ilk növbədə, infrastruktur layihələri icra olunur. Çünki bu layihələr icra edilmədən biz vətəndaşları qaytara bilmərik. Eyni zamanda, yaşayış evlərinin inşası sürətlə gedir. Mən Laçın şəhərinin timsalında bunu deyə bilərəm ki, cəmi səkkiz ay ərzində şəhərin böyük hissəsi tamamilə bərpa edilib və yeddi yüzdən çox ailə üçün burada həm fərdi evlər, həm çoxmənzilli evlər hazırlanır. Laçın şəhərinin gələcək inkişaf planı ilə bağlı əlavə addımlar da atılacaq.

Əlbəttə ki, biz, bu sahədə görüləcək işləri daim diqqət mərkəzində saxlamalıyıq. Deyə bilərəm ki, mənim gündəlik fəaliyyətimdə bu məsələ bu gün birinci yerdə dayanan məsələdir və biz daim bütün işlərə nəzarət edirik. Hökumət üzvləri və digər rəsmi şəxslər müntəzəm olaraq azad edilmiş bölgələrə ezam olunurlar. Biz hər şeyi planlı şəkildə edirik, orada ən yüksək standartlar tətbiq edilir və edilməlidir. Bütövlükdə nəzərdə tutulmuş investisiya proqramı əsasında bu ilin sonuna qədər Qarabağ və Şərqi Zəngəzura biz təqribən 12 milyard manata qədər vəsaitin xərclənməsini təmin edəcəyik. Onu da bildirməliyəm ki, görülən bütün işlər Azərbaycan hesabına həyata keçirilir. İki məktəb istisna olmaqla, qalan bütün infrastruktur, inşaat işləri Azərbaycanın büdcəsi hesabına və Azərbaycanın dövlət şirkətləri tərəfindən həyata keçirilir. Eyni zamanda, Heydər Əliyev Fondu ondan çox məscidi yenidən inşa edir, yaxud da ki, onları əsaslı şəkildə bərpa edir.

Gələn ilin investisiya proqramı hazırlananda, - yaxın gələcəkdə biz artıq gələn ilin büdcəsini də müzakirə etməyə başlayacağıq, - əlbəttə ki, Qarabağın və Şərqi Zəngəzurun investisiya xərclərinə baxacağıq və elə etməliyik ki, maliyyə qıtlığı ucbatından vaxt itirməyək. Yenə də deyirəm bizim maliyyə imkanlarımız genişlənir. Amma o demək deyil ki, bizim bu sahədə problemlərimiz yoxdur. Ölkə qarşısında duran bir çox vəzifələr var. İnfrastruktur layihələri təkcə Qarabağda, Şərqi Zəngəzurda yox, bütün ölkə üzrə həyata keçirilir. Sənaye inkişafı ilə bağlı və digər məsələlərlə bağlı bizim çox böyük maliyyə resurslarımız cəlb edilir, səfərbər olunur. Əlbəttə ki, biz ayrılan hər bir vəsaitə böyük qənaətlə yanaşmalıyıq və şəffaflıq tam təmin edilməlidir - həm büdcə gəlirlərinin toplanmasında, həm də xərclənməsində. Qeyd etdiyim kimi, büdcəyə əlavə edildikdə ikinci əsas istiqamət hərbi gücümüzün artırılmasına istiqamətləndirilmişdir. Bu da təbiidir. Beynəlxalq vəziyyət bəllidir. Mənim uzun illər dediyim sözlər bu gün əyani şəkildə özünü büruzə verir. Dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq işləmir. Beynəlxalq hüquqa, beynəlxalq təşkilatların qərarlarına, qətnamələrinə bel bağlamaq olmaz. Biz həmişə hüququn tərəfdarı idik, o cümlədən beynəlxalq hüququn. Biz həmişə ədalətin tərəfdarı idik. Bu gün də ədalətin və beynəlxalq hüququn tərəfdarıyıq və beynəlxalq müstəvidə bu mövqeyi müdafiə edirik. Həm bir ölkə kimi, həm də 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatının sədri kimi və nazirlər səviyyəsində son toplantı bir daha onu göstərdi.

Ancaq biz görürük ki, dünyada qaydalar tamamilə pozulub, davranış qaydalarına, beynəlxalq hüquqa əməl edilmir. Biz demək olar ki, bunu hər gün görürük, hər gün. Böyük dövlətlər, hansılar ki, beynəlxalq hüququn təminatçısı rolunu öz üzərinə götürüblər, birinci onlar bu hüququ pozurlar və sonra da onu əsaslandırırlar. Ölkələr deyəndə mən bütün böyük ölkələri nəzərdə tuturam. Necə deyərlər, hərəsi öz xətti ilə ya konvensiyaları pozur, ya beynəlxalq hüquq normalarını pozur, ya da oturuşmuş beynəlxalq davranış qaydalarını pozur və bunu heç gizlətmir də. Ona görə, əlbəttə ki, biz, ilk növbədə, özümüzü qorumaq üçün, öz müstəqilliyimizi qorumaq üçün, seçimimizi qorumaq üçün, həyat tərzimizi qorumaq üçün, ərazi bütövlüyümüzü qorumaq üçün daha güclü olmalıyıq. İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz dayanmadan bu istiqamətdə çox ciddi addımlar atmışdıq və mən bunu artıq bildirmişəm, bir də demək istəyirəm, bu gün Azərbaycan Silahlı Qüvvələri daha böyük hərbi potensiala malikdir. Həm döyüş qabiliyyəti, həm silah və texnika ilə təchizat baxımından daha da güclü olacağıq, çünki bu proses dayanmır və dayanmamalıdır. Mən demişəm, iki istiqamət üzrə - hərbi potensial və azad edilmiş torpaqların bərpasına nə qədər vəsait lazımdır biz o qədər də ayıracağıq.

Biz bu siyasəti aparmaqla ölkəmizin qüdrətini artırırıq. Çünki bu gün dünyada güc amili ön plandadır və güclə hesablaşırlar, gücdən çəkinirlər. Biz son iki il yarım ərzində bir neçə dəfə bunu bir neçə ünvana göstərmişik və heç kim bizim iradəmizə təsir edə bilməz. Əksinə, bizə qarşı tuşlanmış bütün oxları sındırıb öz ləyaqətimizi qoruya bilmişik və maraqlarımızı qoruya bilmişik, daha əlavə sözlərə ehtiyac yoxdur, hər şey göz qabağındadır. Necə deyərlər, dərinə getmək istəmirəm, amma bunu artıq hər kəs görür, görməlidir və bilməlidir ki, Azərbaycanla hədə-qorxu, ultimatum dili ilə heç kim danışa bilməz və hesab edirəm ki, bundan sonra belə cəhdlər də olmayacaq.

Bundan sonrakı illərdə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, bu sahədə islahatların dərinləşdirilməsi, yeni silahlı birləşmələrin yaradılması və təkmilləşdirilməsi istiqamətində, o cümlədən ən müasir silahların, texnikaların alınması istiqamətində işlər plan üzrə gedir. İkinci Qarabağ müharibəsindən sonra Silahlı Qüvvələrimizdə aparılan islahatlar hələ başa çatmayıb, o cümlədən struktur islahatları. Biz öz Silahlı Qüvvələrimizi ən qabaqcıl orduların səviyyəsinə çatdırmalıyıq, yəni, təbii ki, Azərbaycan miqyasını nəzərə almaq şərtilə. Struktur islahatları, idarəetmə və özünü müdafiəetmə qabiliyyəti nöqteyi-nəzərindən biz elə güc yaradırıq ki, yerləşdiyimiz coğrafiyada özümüzü tam əmin hiss edə bilək. Bu gün də belədir, amma daha böyük işlər də görülməlidir. Yenə də deyirəm, bu sahə elə sahədir ki, burada az danışmaq, çox iş görmək lazımdır. Ona görə bundan artıq demək istəmirəm. Hər halda Azərbaycan xalqı əmin ola bilər ki, bizim təhlükəsizliyimiz etibarlı əllərdədir. Azərbaycan xalqı bundan sonra da rahat yaşaya bilər və yaşamalıdır. Bizim qarşıda duran vəzifələrimizdən biri təbii ki, Ermənistanla olan münasibətlərimizdir. Burada, bu sahədə, yəni, nəticə təkcə bizdən asılı deyil. Halbuki bizim siyasətimiz Ermənistan tərəfini də vacib addımların atılmasına sövq edir. Ancaq, əlbəttə ki, bu, qarşılıqlı fəaliyyətdir.

Bizim sülh danışıqları ilə bağlı mövqeyimiz aydındır, məntiqlidir, beynəlxalq hüquqa əsaslanır. Hesab edirəm ki, bu prinsiplə, beynəlxalq hüququn norma və prinsipləri əsasında sülh müqaviləsi imzalana bilər. Hər halda mən hesab edirəm ki, belə imkanlar var. Son danışıqlar raundları və bir neçə gündən sonra nəzərdə tutulan yüksək səviyyəli təmaslar bir məqsədi güdür ki, biz sülh anlaşmasına daha da yaxınlaşaq. Biz bunu arzulayırıq, bunu təşəbbüskar kimi irəli sürmüşük. Ancaq yenə də deyirəm, hər şey bizdən asılı deyil, qarşı tərəf də buna hazır olmalıdır və sözdə ifadə etdiyi prinsipləri kağız üzərinə də keçirməlidir.

Son müsbət məqamlardan biri odur ki, Ermənistan tərəfinin mövqeyində müsbətə doğru hərəkət var. Əgər keçən ilin oktyabrında Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərini qəbul etmişdirsə, bu ilin may ayında daha irəli gedərək artıq Azərbaycan ərazisinin parametrlərini də, o cümlədən Qarabağ və anklav kəndlərimiz daxil olmaq şərtilə rəsmən tanıyıb. Bu, müsbət hal kimi qiymətləndirilməlidir. İndi sıra gəlib çatıb ki, eyni sözlər kağız üzərində də öz təsdiqini tapsın, imzalar atılsın və münasibətlər yaradılsın. Hər halda biz bu istiqamətdə öz səylərimizi davam etdirəcəyik.

Bizim digər sahələrdəki vəzifələrlə bağlı deyə bilərəm ki, xüsusilə son vaxtlar nəqliyyat sektorunun əhəmiyyəti daha da artır. Çünki bəzi məhdudlaşdırıcı tədbirlər yeni nəqliyyat marşrutlarının açılmasına gətirib çıxarır və Azərbaycanın əlverişli coğrafi vəziyyəti, əlbəttə ki, bizim üçün əlavə imkanlar yaradır. Bildiyiniz kimi, biz nəqliyyat sektorunun inkişafı ilə bağlı uzun illər ardıcıl siyasət aparırıq və öz ərazimizdə infrastrukturu demək olar ki, əvvəlki dövrün tələbatına uyğun olaraq tam modernləşdirmişik. Amma bu gün tələbat daha da artır. Çünki yüklər artır, nəqliyyat marşrutları, qeyd etdiyim kimi məhdudlaşır. Həm Şimaldan Cənuba və əks istiqamətdə, həm də Şərqdən Qərbə və əks istiqamətdə yükdaşımaların artması göz önündədir. Burada da Azərbaycan çox etibarlı tərəfdaş kimi çıxış edir və öz qonşuları ilə sıx təmasdadır, qonşuların nəqliyyat problemlərinin həlli üçün öz köməyini də əsirgəmir. Eyni zamanda, bu sahə bizim üçün prioritet sahələrdən biridir. Mən bir neçə dəfə demişəm, bir daha demək istəyirəm, bizim istəyimiz təkcə böyük yükləri aşıran tranzit ölkə olmaq deyil. Bizim istəyimiz odur ki, bu nəqliyyat marşrutları üzərində istehsal sahələri yaradılsın, biznes imkanları yaradılsın, sərmayə qoyulsun. Biz öz işlərimizi bu istiqamətdə aparmalıyıq, o cümlədən qonşu ölkələrlə təmaslar əsnasında. Hüquqi baza var, sənaye zonaları artıq uzun illərdir ki, fəaliyyət göstərir. Ələt Azad İqtisadi Zonasının rəsmi açılışı oldu və dövlət tərəfindən qoyulan sərmayə artıq nəticə verməyə başlamışdır. Özəl investorlar da artıq cəlb edilib və biz bunun nəticələrini görürük.

Yəni, bir sözlə, biz gərək nəqliyyat dəhlizlərinin biznesə olan təsiri haqqında özümüz üçün konseptual qaydada bir araşdırma aparaq və özümüz üçün bir hədəf müəyyənləşdirək ki, biz nə istəyirik. Ölkə ərazisində Cənubdan Şimala və Şərqdən Qərbə gedən yollar demək olar ki, rayonlarımızın əksəriyyətini əhatə edir. Deməli, hər bir istiqamət üzrə spesifikaya görə, iqlimə görə, ixtisaslaşmaya görə xüsusi bir biznes imkanları olmalıdır. Hökumət üzvləri bu məsələ ilə bağlı öz təkliflərini hazırlasınlar. Bizim ümumi biznesin inkişafı konsepsiyamız var, müxtəlif alətlər var, o cümlədən güzəştli kreditlər və digər alətlər. Yəni, bunu indi nəqliyyat marşrutları prizmasından da təhlil etsək, məncə yaxşı olar.

Onu da bildirməliyəm ki, bu yaxınlarda biz öz nəqliyyat imkanlarımızı hüdudlarımızın kənarına da çıxara bildik, ilk növbədə, Qara dənizdə. Üç böyük tanker alınmışdır, hərəsi 115 min tonluq. Bu, ilk dəfədir Azərbaycan tarixində, mənim göstərişimlə həll olunub. Tankerlərə də “Şuşa”, “Qarabağ” və “Zəngəzur” adları verilib.

Azərbaycan mallarının Azərbaycan şirkəti tərəfindən daşınması bizə əlavə gəlir gətirəcək və biz artıq Qara dənizdə də varıq. Biz onsuz da var idik. Bizim kiçik həcmli gəmilərimiz var idi. Amma bu gün bizim “Aframax” tipli ən böyük tankerlərimizdən üçü artıq Qara dənizdə işləyir. Lazım olarsa, onların sayını biz artıra bilərik.

Bizim Xəzərdəki gəmiqayırma imkanlarımıza da yenidən baxmalıyıq. Çünki qonşu ölkələrdən sifarişlər gəlir. Bizim gəmiqayırma zavodumuz mövcud daşıma imkanlarımıza hesablanmışdır. Eyni zamanda, uzun illər fəaliyyət göstərən gəmilərin sıradan çıxmasını da nəzərə alırıq. Çünki onlar sıradan çıxır, təzələnməlidir. Amma indi daha böyük tələbat var - həm bizim, həm də ki, qonşu ölkələrin. Beləliklə, istisna deyil ki, biz nə vaxtsa gəmiqayırma zavodunun istehsalat sahələrinin genişləndirilməsinə də başlaya bilərik. Yəni, siz bunu diqqətdə saxlayın. Hər halda xaricdən gələn sifarişlər, - biz artıq ilkin danışıqlara başlamışıq, - çox müsbət haldır və bu, bir daha göstərir ki, biz hər şeyi vaxtında edirik.

Əgər bu gün bizdə gəmiqayırma zavodu olmasaydı, biz tankerləri, gəmiləri haradan alacaqdıq? İndi sual ritorikdir. Biz əvvəllər haradan alırdıq, indi oradan heç kim ala bilmir. Ona görə bu, vaxtında atılmış strateji bir addım idi. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının imkanlarının genişləndirilməsi də. Bu göstərişi də mən vermişdim, biz bunu da etməliyik. Çünki bizim aşırma qabiliyyətimiz 15 milyon tona hesablanıb. Əvvəlki dövr üçün bu, kifayət idi. Bir-iki ildən sonra bu, çatmaya bilər, çünki yenə də mən əvvəlcədən nəyi isə demək istəmirəm. Amma qonşu ölkələrlə və tərəfdaş ölkələrlə aparılan danışıqlar göstərir ki, Azərbaycan ərazisindən bir neçə dəfə çox yüklərin daşınması mümkün olacaqdır.

Bir məsələyə də mən toxunmaq istərdim. Bu da ekoloji tarazlıqla bağlı olan məsələdir. Qarabağ və Şərqi Zəngəzur ekoloji fəlakət zonasına çox yaxın idi. Çünki Ermənistan həm Ermənistandakı müəssisələrin fəaliyyəti nəticəsində, eyni zamanda, o vaxt işğal edilmiş torpaqlarda - Qarabağda və Şərqi Zəngəzurda təbii resurslarımızın vəhşicəsinə istismarı nəticəsində təbiətimizə böyük zərbə vurub. Təkcə onu demək kifayətdir ki, 60 min hektardan çox meşə fondu ermənilər tərəfindən dağıdılıb, talan edilib, çıxarılıb, satılıb, yaxud parket düzəldiblər və satıblar. Yəni, bütün bu peyk görüntüləri bizdə var. İndi transsərhəd təhlükələri mütləq nəzərə alınmalıdır və Azərbaycanın burada sərgilədiyi mövqeyi yenə də beynəlxalq təcrübəyə, beynəlxalq konvensiyalara əsaslanır, o cümlədən Espo Konvensiyasına, bunu hər kəs internetdə açıb baxa bilər. O göstərir ki, transsərhəd çayların çirkləndirilməsi və ölkələrin sərhədlərinə yaxın müəssisələrin, ekoloji təhlükə mənbəyi sayıla biləcək müəssisələrin yaradılması qonşu ölkələrlə mütləq razılaşdırılmalıdır və biz bunu Ermənistandan tələb edirik. Bu gün Azərbaycan ictimaiyyəti, qeyri-hökumət təşkilatları artıq bu məsələ ilə bağlı Ermənistanın rəsmi orqanlarına müraciət ünvanlayıblar və ekologiya sahəsində fəaliyyət göstərən beynəlxalq ekspertlər və qeyri-hökumət təşkilatlarının nümayəndələri də bu müraciətə qoşulublar. Ona görə mən hesab edirəm ki, Azərbaycan Hökuməti də burada kənarda qalmamalıdır.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyevin sədrliyi ilə bu ilin 6 ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirə keçirilib

*(əvvəli 2-ci səhifədə)*



Bizim vətəndaş cəmiyyətimiz bu addımı atır, çox yaxşı, amma baxmaq lazımdır, rəsmi xətlə, yəni, dövlət xətti ilə hansı təşkilatlara hansı müraciətlər ünvanlanmalıdır ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin. Əgər onlar hansısa müəssisə yaratmaq istəyirlərsə, bizim buna, əlbəttə ki, münasibətimiz ola bilməz. Onların daxili işidir. Amma əgər bu müəssisə bizim sərhədimizin 500 metrliyində yerləşirsə, orada təhlükəli maddələrdən istifadə ediləcəksə və bu maddələr yenə də Araz çayına, Oxçu çayına töküləcəksə, bu, bizim məsələmizdir. Biz buna necə imkan verə bilərik? Əlbəttə ki, biz bu məsələləri qanun çərçivəsində, beynəlxalq konvensiyalar çərçivəsində, diplomatiya çərçivəsində mütləq diqqətdə saxlamalıyıq. Ona görə bu tapşırığı verirəm, siz baxın, hansı hüquqi yollar var ki, Ermənistan bu təhlükəli praktikadan əl çəksin.

Bununla əlaqədar deyə bilərəm ki, bu yaxınlarda Naxçıvan Muxtar Respublikasının gələcək inkişafı ilə bağlı mənim göstərişimlə dövlət proqramı qəbul edilmişdir. Proqram mətbuatda dərc edilib, hər kəs götürüb oxuya bilər. Bu, Naxçıvanın uğurlu sosial-iqtisadi inkişafını qısa müddət ərzində təmin edə biləcək proqramdır və əminəm ki, tam icra ediləcək. Çünki bu proqram bizim öz resurslarımıza əsaslanıbdır. O cümlədən mən nə üçün bunu indi dilə gətirirəm, orada Naxçıvanın da Qarabağ və Şərqi Zəngəzur kimi "yaşıl enerji" zonasına çevrilməsi məsələsi mənim tərəfimdən qoyulmuşdur. Naxçıvan Muxtar Respublikasında elektrik enerjisinin böyük hissəsi indi su elektrik stansiyaları vasitəsilə istehsal olunur. Orada günəş və külək elektrik stansiyalarının inşası da nəzərdə tutulur - ola bilər 1000 meqavat, ola bilər 1500 meqavat. Biz həm muxtar respublikanın bütün tələbatını "yaşıl enerji" ilə təmin edəcəyik, həm də qonşu ölkələrə də "yaşıl enerji"ni ixrac edəcəyik. Bütün bunları qeyd edərkən görürük ki, ölkəmizin böyük hissəsi artıq rəsmən "yaşıl enerji" zonası elan edilib və bunun fonunda Gədəbəy rayonunda baş vermiş hadisə tamamilə qəbuledilməzdir.

Mən hesab edirəm ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ən azı səhlənkarlığa yol verib, nəzarətsizlik nümayiş etdirib, passiv müşahidəçi kimi çıxış edib və bunun nəticəsində xarici investor bizim təbiətimizi zəhərləyib. İnsanlar haqlı olaraq öz etiraz səsini ucaldıblar, amma onların səsinə baxan olub? Yox! Bir gün, iki gün, üç gün, beş gün, hara baxırdı Ekologiya və Təbii Sərvətlər Nazirliyi? Bilmirdimi ki, belə problem var? Ya bilirdi gözünü yumurdu, ya da bilmirdi. Hər ikisi qəbul edilən deyil. Düzdür, vətəndaşların bir hissəsi təxribatçıların fitnəsinə uyaraq ədəbsiz hərəkətlər ediblər, qanunsuz hərəkətlər ediblər və bu da dözülməzdir, qəbuledilməzdir. O təxribatçıların bəziləri Azərbaycanda, bəziləri xaricdə gizlənir. Azərbaycandakılar artıq müəyyən edildi və bir neçəsi məsuliyyətə cəlb olunmuşdur. Xaricdəkiləri də biz məsuliyyətə cəlb edəcəyik. Heç kim, necə deyərlər, fikirləşməsin ki, biz bunu unutmuşuq.

Azərbaycanda xaos, özbaşınalıq, təxribat xarakterli addımlar 1993-cü ildə başa çatıb. Əgər kimsə unudubsa, biz xatırlada bilərik. Ona görə vətəndaşlar da həm mədəniyyət göstərməlidirlər, necə deyərlər, mərifət göstərməlidirlər, qanuna tabe olmalıdırlar, polisə daş atmamalıdırlar, polisə daş atmaq heç kimə şərəf gətirən hərəkət deyil. Bu, birincisi. İkincisi, bu, cinayətdir. Əgər Azərbaycan polisi dözümlülük göstərirsə, o demək deyil ki, kim istəyir polisə daş ata bilər. Bu, qətiyyən mümkün deyil. Mən hər kəsə deyirəm, burada biz kiminsə nazı ilə oynayası deyilik, necə lazımdır, əgər lazım bilsək, kimi lazımdır, elə cəzalandırarıq ki, peşman olar.

Ancaq, eyni zamanda, bu hadisənin təbii səbəbi var idi. O da ondan ibarətdir ki, xarici şirkət buraya pul qazanmağa gəlib. Biz etiraz eləmirik, investisiya qoyubdur, iş yerləri yaradıbdır. Əlbəttə, onlar gəlib burada xeyriyyəçiliklə məşğul olmurlar ki, pul qazanmağa gəliblər. Amma bu o demək deyil ki, bizim təbiətimiz məhv olsun. O demək deyil ki, insanların örüş, otlaq sahələri zəbt edilsin. O demək deyil ki, heç kimdən icazə almadan ikinci tullantı gölü qursun. Kim onlara icazə verib? Görünür, ya Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə sövdələşiblər, ya da ki, onu özbaşına ediblər, ona görə ciddi araşdırılmalıdır. Prokurorluğa, digər aidiyyəti qurumlara bütün göstərişlər verilmişdir. Mən xəbər tutandan sonra zəng edib Baş nazirə dedim ki, mütləq komissiya yarat və göndər hadisə yerinə getsin. Yaxşı, bunu mən deməli idim? Ekologiya naziri özü bilmirdi ki, oraya getməlidir. Mən demişəm, gedin orada camaatla danışın, o torpağın, havanın nümunələrini götürün, beynəlxalq ekspertləri cəlb edin ki, – çünki nazirlik bir halda bu hadisənin səbəbkarı olub, ola bilər ki, işi malalasın, – onlar rəy versinlər, bu yataqların istismarı nə dərəcədə insanların sağlamlığına, təbiətə zərərlidir, ya zərərli deyil? Bu günə qədər cavab yoxdur.

Bəli, Nazirlər Kabinetində müşavirə keçirilib, orada açıqlama verilib. O açıqlamanı oxuyan heç nə başa düşə bilməz ki, orada nə deyilib və o açıqlamanın məqsədi nə idi? İşi malalamaq, yaxud da ki, hansısa belə ümumi sözlərlə bu məsələyə diqqət yetirmək. Mən konkret tapşırıq vermişdim, konkret. Hanı ekspertizanın nəticələri? Nə qədər vaxt keçib? Bir aya yaxın vaxt keçib. Heç kim mənə məruzə etmir - Nazirlər Kabineti etmir, Ekologiya və Təbii Sərvətlər Nazirliyi etmir. Hesab edirlər ki, mən bunu unutmuşam. Yox, mən heç nə unutmuram. İndi yenə də deyirəm, polisə daş atan utanmalıdır - öz ailəsi qabağında, uşaqları qabağında, ailə üzvləri qabağında, ictimaiyyət qabağında. Çünki o eybəcər mənzərəni ictimaiyyət görüb. Ona görə mən tapşırıram, bir həftə vaxt verirəm, həm mənə, həm ictimaiyyətə məlumat verilməlidir və məsələ araşdırılmalıdır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi nə üçün bu məsələyə diqqət yetirməyib, biganə qalıb və mən tapşırıq verəndən sonra gediblər, gəliblər, nəticə haqqında heç bir məlumat yoxdur.

Burada işləyən xarici şirkətlər və yerli şirkətlər Azərbaycan qanunlarına hörmət etməlidirlər. Hörmət etməyəcəklərsə, onların fəaliyyəti burada mümkünsüz olacaq. Baxmayaraq ki, pay bölgüsü haqqında saziş əsasında xarici investor Gədəbəydəki qızıl yataqlarını istismar edir, baxmayaraq ki, uzun illər burada çalışır, Azərbaycan qanunlarına, ekoloji tarazlığa – bütün bunlara hörmət edilməlidir. Onu da bildirməliyəm ki, bizim dövlət şirkətimiz "AzerGold" da qızıl yataqları istismar edir. Amma mənə verilən məlumata görə, o sahədə bütün ekoloji normalara riayət edilir. O cümlədən yerli icmalarla təmaslar qurulub, müxtəlif humanitar aksiyalar keçirilir, insanlar kütləvi surətdə işə cəlb olunub. Bax, bu yanaşma Azərbaycan şirkəti tərəfindən göstərilən yanaşmadır. O yanaşma isə xarici şirkət tərəfindən göstərilən yanaşmadır. Bu, dözülməzdir. Xarici şirkətin nümayəndələri də dəvət edilməlidirlər. Əgər bu günə qədər dəvət edilməyiblərsə, Nazirlər Kabinetinə onlar izahat verməlidirlər. Yenə də deyirəm, bir həftə ərzində mənə və ictimaiyyətə məlumat verilməlidir. Orada təbiətə, insanların sağlamlığına zərrə qədər təhlükə varsa, o fəaliyyət dayandırılmalıdır. Vəssalam!



Bu gün dünyada ekologiyanı korlayan şirkətlər müflisləşir. Onlar öz ölkələrində belə hərəkət edə bilərdilərmi, gedib göl qursunlar, oraya zibil, zəhər töksünlər. Onları orada ayaqlarından asardılar. Elə iş verərdilər ki, ömürlərinin sonuna qədər həbsxanada yatardılar. Amma burada hesab edir ki, nə istəyir onu da edir. Çünki gedib kimisə görüb, kiməsə salam verib, gedib kiməsə nəsə pay verib. Bunun başqa izahatı ola bilməz. Dözülməz haldır - bütövlükdə həm oradakı təxribatçıların hərəkətləri, həm xarici şirkətin fəaliyyəti, həm də bizim nazirliyimizin fəaliyyəti. Yeganə olaraq burada özünü ləyaqətlə aparan Azərbaycan polisi idi. Onu hər kəs bilməlidir. İndi bəziləri ağızlarını büzürlər.

Gedin, açın gözünüzü baxın, Amerika polisi ildə neçə nəfəri öldürür – 1000 nəfəri. Fransa polisi neçə nəfəri öldürür və nəyə görə öldürür? Bu yaxınlarda Fransa polisinin əməllərini bütün dünya gördü. Mən onlara bəraət qazandırmıram, o dözülməzdir. Əfsuslar olsun ki, insanları öldürən o polisin mütləq əksəriyyəti məsuliyyətdən yayınır. Bir müddətdən sonra onları ya ümumiyyətlə məhkəmədə buraxırlar, ya da ki, şərti iş verirlər. Bizim polis gecə-gündüz soyuqda, istidə, dağda asayişi qoruyur. Bizim Daxili Qoşunlarımız Qarabağda müharibə zamanı şəhid verib. İndi kimsə gəlsin, polisə ləkə vursun. Mən buna imkan verməyəcəyəm və hər kəs bunu bilsin - təxribatçılar, o təxribatlara uyanlar və bütün ictimaiyyət.

Bir məsələni də qeyd etməliyəm. Bu da bu günlərdə "Abşeron" qaz-kondensat yatağından çıxarılan ilkin qazın əhəmiyyəti ilə bağlıdır. Bu, doğrudan da çox əhəmiyyətli hadisədir. Çünki bu günə qədər bizim ixracla bağlı əsas qaz resursumuz "Şahdəniz" qaz-kondensat yatağı idi. Bu gün bizim artıq iki böyük qaz-kondensat yatağımız var. "Abşeron" qaz yatağı ilə bağlı bizim ümidlərimiz böyük idi. Bilirdik ki, "Abşeron" qaz-kondensat yatağı böyük ehtiyatları özündə ehtiva edir. Bir neçə gün bundan əvvəl mənə məlumat verildi ki, ilkin qaz hasil edildi, debitlər də çox yaxşıdır. Hətta bir quyudan "Şahdəniz" qaz yatağından da daha çox qaz və kondensat hasil edilir. Əlbəttə, "Şahdəniz" qaz yatağından "Abşeron" yatağı ehtiyat nöqteyi-nəzərindən daha kiçikdir, ilkin hesablamalara görə təqribən üç yüz milyard kubmetrdir. Amma mən tam əminəm ki, daha çox olacaq. İndidən demək, əlbəttə ki, düzgün deyil. Ona görə bu, bizim həm enerji təhlükəsizliyimizi daha yüksək səviyyədə təmin edəcək, həm də ixraca gedən qazın həcmi ildən-ilə artacaq – təkcə "Şahdəniz" yatağı hesabına deyil, o cümlədən "Abşeron" yatağı hesabına.

"Abşeron"un birinci fazası artıq icra edilir və yəqin ki, SOCAR öz xarici tərəfdaşları ilə bu yatağın ikinci fazasının işlənməsi ilə bağlı tezliklə daha fəal danışıqlara başlamalıdır. Yenə də deyirəm, biz gözləyirdik ki, kəşfiyyat olacaq, amma sözün düzü, bu qədər gözəl nəticələri gözləmirdik. Bu, çox gözəl bir xoş xəbər oldu və Azərbaycanın enerji potensialına kölgə salmağa çalışan bəzi dırnaqarası ekspertlərə də çox yaxşı, tutarlı cavab olmuşdur. Ona görə bundan sonra bizim qaz ixrac planlarımız daha tez bir zamanda və daha böyük həcmdə təmin ediləcək.

* * *

Sonra müşavirə müzakirələrlə davam edib.

***AZƏRTAC***

# Almaniya ilə əlaqələrimizdə yeni səhifə açılıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 11-də Almaniya Federativ Respublikasının Xarici İşlər Nazirliyinin dövlət naziri Tobias Lindneri qəbul edib.**

Görüşdə ikitərəfli münasibətlərin inkişaf dinamikasının artdığı qeyd edildi, Prezident İlham Əliyevin bu ilin mart ayında Almaniyaya səfərindən sonra ölkələrimiz arasında əlaqələrdə yeni səhifənin açıldığı məmnunluqla vurğulandı.

Söhbət zamanı Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması prosesi və sülhün əldə edilməsi istiqamətində ölkəmiz tərəfindən göstərilən səylərdən danışıldı.

Enerji sahəsində əməkdaşlıq və bu əməkdaşlığın gücləndirilməsi, həmçinin Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində imzalanmış Anlaşma Memorandumu ilə bağlı fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Monqolustanın Prezidenti Zati-aliləri cənab Uxnaaqiyn Xurelsuxa

**Hörmətli cənab Prezident,**

Monqolustanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik etməkdən məmnunluq duyuram.

İnanıram ki, Azərbaycan-Monqolustan əlaqələrinin mövcud potensialından daha səmərəli istifadə olunması, əməkdaşlığımızın keyfiyyətcə yeni mərhələyə yüksəlməsi naminə bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Monqolustan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 8 iyul 2023-cü il**

# Ceyhun Bayramov Tobias Lindner ilə görüşüb

**Dünən xarici işlər naziri Ceyhun Bayramov Almaniya Federativ Respublikası Xarici İşlər Nazirliyinin dövlət naziri Tobias Lindner ilə görüşüb.**



Nazir Ceyhun Bayramov Azərbaycan və Almaniya arasında müxtəlif sahələr, o cümlədən siyasi, iqtisadi, enerji təhlükəsizliyi, mədəniyyət, təhsil və s. sahələr üzrə münasibətlərin inkişaf dinamikasının məmnunluq doğurduğunu qeyd edərək, yüksək səviyyəli səfərlərin, o cümlədən siyasi təmasların bu dinamikanın artımında əhəmiyyətli yer tutduğunu bildirib.

Ceyhun Bayramov, həmçinin postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, Azərbaycan və Ermənistan arasında sülh prosesi barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Dövlət naziri Tobias Lindner, Azərbaycan və Almaniya arasında mövcud əməkdaşlığın genişləndirilməsi üçün böyük imkanlar olduğunu bildirib. O, müxtəlif sahələr, xüsusilə ənənəvi və alternativ enerji mənbələrindən istifadə sahəsində əməkdaşlığın daha da inkişafı üçün geniş imkanların mövcudluğunu qeyd edib.

***"Xalq qəzeti"***

# Ermənistan rəhbərliyi Borisə qulaq assa...

## *ABŞ-ın Qarabağ mövqeyi: hay cəmiyyətində pessimizmlə illüzionizm çulğalaşıb*

**ABŞ-ın Ermənistandakı səfiri Kristina Kuinnin Azərbaycan-Ermənistan münasibətləri, o cümlədən Qarabağla bağlı ölkənin İctimai televiziyasının efirindən bir müddət əvvəl səsləndirdiyi fikirlər ətrafında hay cəmiyyətini cənginə almış diskussiyalar səngimək bilmir. Xanım Kuinn Bakının Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinə təminat verəcəyini bildirərək, erməniləri sakitləşdirməyə çalışmışdı. Ancaq bu mövqe, az qala, Birləşmiş Ştatların insan hüquqlarına xəyanəti kimi dəyərləndirilmişdi. Səfirin belə fikir bildirməsi Ermənistanda Qərbyönümlü fəalların və siyasətçilərin formalaşdırdıqları Amerika vasitəçiliyi ilə bağlı ümidləri məhv etdi, – desək də yanılmarıq. Ancaq məsələ yalnız bu deyil.**



Xəstə erməni cəmiyyətində suallar baş qaldırıb ki, ABŞ nə üçün Kosovo məsələsində "xilas naminə ayrılma" düsturunu tətbiq edib Kosovanın müstəqilliyini tanıdı, ancaq Qarabağ ermənilərinin təhlükəsizliyini Azərbaycanla əlaqələndirir?; Vaşinqton bilmir ki, onun hərəkətləri etnik təmizləmə təhlükəsi ilə bağlı qorxuları artırır?

***

Əslində erməni siyasi isteblişmentinin sualları həddən çoxdur. Suallara cavaba gəldikdə, sağlam məntiq istisnadır. Amma, belə demək mümkünsə, istisnaların özündə də istisnalar var. Bu mənada İrəvan mətbuat klubunun rəhbəri, politoloq Boris Navasardyanı fərqləndirmək mümkündür. Ümumən, B.Navasardyan Azərbaycan-Ermənistan münasibətlərinə daha soyuq başla yanaşan şəxslərdəndir. Yada salaq ki, o, bir müddət əvvəlki açıqlamasında bildirmişdi ki, Qarabağ mövzusunda direniş göstərmək Azərbaycana güc tətbiqindən başqa yol qoymur. Dolayısı ilə, politoloq müqavimətin səmərəsizliyini vurğulamışdı.

Əlbəttə, Navasardyan da Ermənistandakı ümumi xəstə ab-hava qarşısında ehtiyatlıdır və özünün linçə məruz qalmasını istəmir. Sadəcə, ölkəsini gözləyən təhlükələri sadalayır və faktiki olaraq bildirir ki, Azərbaycanla dil tapmaq, məsələlərə konstruktiv yanaşmaq lazımdır. Ona görə ki, rəqib güclüdür. Əslində, Navasardyanın ABŞ-ın Ermənistandakı səfirinin açıqlamasına reaksiyası da bu fikrin davamıdır. Ancaq bir qədər fərqli formada.

***

Beləliklə, Ermənistandakı Verelq Analitik İnformasiya Mərkəzinin müxbirinin B.Navasardyana ünvanladığı suallar seriyasının birincisinə diqqət yetirək: Amerikanın Ermənistandakı səfirinin məlum bəyanatı nəyə səbəb oldu?; Nə üçün ABŞ albanları etnik təmizləmədən xilas etmək üçün Kosovonun müstəqilliyini tanıdı (referendum və Belqradın razılığı olmadan), buna bütün dünya təkan verdi, ancaq ölkə Qarabağdakı ermənilərin təhlükəsizliyinə dair yalnız ümid verir?

Navasardyan hesab edir ki, ABŞ üçün hansı dövlətlərin münaqişə tərəfləri olmaları və Vaşinqtonun münaqişənin necə həll edilməsi barədə fikri vacibdir: "Düşünürəm ki, ABŞ-ın axtardığı budur. Kosovo məsələsində biz iki tərəf arasında qarşıdurma gördük, onlardan biri ABŞ-ın potensial müttəfiqi, digəri isə regional siyasətdə Birləşmiş Ştatların maraqlarına zidd istiqamətin təmsilçisi kimi qəbul edilirdi. Biz o zaman Serbiyada baş verənləri və həmin vaxt ABŞ-ın müdaxiləsini xatırlayırıq (NATO 1999-cu ildə Belqrad və Serbiyanın digər şəhərlərini bombalamışdı – red.).

Qarabağ nizamlanması məsələsində tam fərqli vəziyyət var. Münaqişənin hər iki tərəfi ABŞ-a yaxındır. Amerikalıların özlərinin isə məsələ barədə qəti mövqeyi yoxdur. Konkret vəziyyətdən, qüvvələrin balanslaşdırılmasından asılı olaraq, ABŞ vəziyyətin sakitləşməsinə və sabitləşməsinə gətirib çıxaracaq siyasət yürütməyə çalışır. 2020-ci ilin (ikinci Qarabağ) müharibəsinin nəticələrini və qüvvələrin hazırkı uyğunluq dərəcəsini nəzərə alaraq, hesab edirəm ki, Vaşinqton durumu sakitləşdirməyə nail olmağın yeganə yolunu Qarabağ ermənilərinin Azərbaycanın tərkibində hüquqlarını və təhlükəsizliyini təmin etməkdə görür".

Bəli, B.Navasardyan Birləşmiş Ştatların gücünün tərəfində olduğu düşüncəsindədir. Əlbəttə, güclü qismində olan Azərbaycan həm də haqlıdır. Bunu ABŞ da yaxşı bilir. Ancaq onu da nəzərə alaq ki, ölkəmiz torpaqlarının işğalda qaldığı otuz ilə yaxın müddətdə də haqlı idi, ancaq Vaşinqton haqqı müdafiə etmək üçün əlini ağdan qaraya vurmurdu. Deməli, güc, eyni zamanda, haqq üçün vasitədir.

Ermənistanın siyasi rəhbərliyinə, ümumən erməni siyasi elitasına, o cümlədən mediasına və beyin mərkəzlərinə gəldikdə, hazırda onlar primitiv haqq davasına girişiblər. Məsələn, B.Navasardyana sual verən müxbir bildirir ki, ABŞ-ın Ermənistandakı sabiq səfiri Linn Treysi başqa söz deyirdi, hazırkı səfir Kuinn ölkəsinin mövqeyini tamam fərqli şəkildə ortaya qoyur. Treysi 2021-ci ilin avqustunda bildirirdi ki, Qarabağ münaqişəsi həllini tapmayıb, bölgənin statusu müəyyənləşməyib, indiki səfirin sözləri isə məlumdur. Belə olan halda Navasardyan Vaşinqtonun baxışlarının nə üçün belə kəskin dəyişməsinə aydınlıq gətirir.

Politoloq cavab verməyə başlar-başlamaz bildirir ki, əsas məsələ Ermənistanın mövqeyində dəyişikliyin yaranmasıdır. Navasardyan, eyni zamanda, hesab edir ki, Ermənistan-Azərbaycan münaqişəsi ətrafında gedən proseslər baxımından da faktiki dəyişikliklər var. Ukrayna müharibəsi nəzərə alınmalıdır. Bununla yanaşı, ABŞ-ın Cənubi Qafqazdakı siyasətini müəyyən etmək üçün Rusiya faktoru da vacibdir.

Siyasi şərhçinin sözlərinə görə, 2020-ci il müharibəsindən sonra Ermənistanın mövqeyi bir neçə dəfə dəyişib. Bundan asılı olaraq, ABŞ münaqişənin aradan qaldırılmasında öz rolunun müxtəlif variantlarını görürdü. "2021-ci ildə Ermənistan Dağlıq Qarabağ ərazilərinin (ən azı Hadrut rayonu və Şuşanın – red.) işğaldan azad edilməsini və "qurtuluş naminə ayrılma" prinsipini müdafiə edib. Bu, hakim qüvvə "Mülki müqavilə"nin (baş nazir Nikol Paşinyanın partiyası – red.) 2021-ci ildə keçirilmiş növbədənkənar parlament seçkiləri ilə bağlı proqramında öz əksini tapmışdı. İndi Ermənistan Bakının Qarabağ ermənilərinin hüquqlarına və təhlükəsizliyinə riayət etməsi müqabilində, Azərbaycanın ərazi bütövlüyünün tanınmasının tərəfdarıdır. Bu baxımdan biz əsas vasitəçilərdən biri kimi ABŞ-ın davranışının transformasiyasını görürük", - deyən Navasardyan Birləşmiş Ştatların mövqeyinin Ermənistanın mövqeyinə adekvat olduğunu vurğulayıb. Bir qədər əvvəl bildirdik ki, Vaşinqton gücünün haqqını tanıyır. İndi onu da deyə bilərik ki, ABŞ güc qarşısında geri çəkilənin, yəni İrəvanın mövqeyini nəzərə alaraq siyasət yürüdür. Bunu, sadəcə, dərk etmək və düzgün nəticə çıxarmaq lazımdır.

Ümumən, vurğulamalıyıq ki, B.Navasardyan öz fikirləri ilə Ermənistan cəmiyyətində realliq hissini aşılayan tək-tük siyasi şərhçilərdəndir. Bu mənada onun Verelq İA-nın müxbirinin absurd səciyyə daşıyan daha bir sualına cavabı da maraqlıdır. Belə ki, yenidən Kosova məsələsində presedent "axtarmağa" çalışan müxbir soruşur ki, ABŞ Kosovonun müstəqilliyini "Camp Bondsteel" bazasına (Kosovodakı beynəlxalq missiyasının bir hissəsi kimi Birləşmiş Ştatlar hərbi kontingentinin əsas hərbi bazası) görə tanıdı və əgər ABŞ-a Qarabağda hərbi baza yaratmağa icazə verilərsə, Vaşinqton daha aktiv hərəkətlər edə bilərmi?

Gördündüyü kimi, sual gülməlidir. Axı, icazəni kim verəcək? Ermənistanmı? B.Navasardyan cavabı ilə yeqin sualın gülüncIüyünü üzə vurmur. Amma sözünü də deyir. O bildirir ki, qaldırılan məsələ çox nəzəri, hipotetik xarakter daşıyır. ABŞ sırf realist və praqmatik mülahizələrdən çıxış edir. "Həyata keçirilməsi praktiki cəhətdən mümkün olmayan hipotetik variantları nəzərdən keçirməyəcəklər. Hesab edirəm ki, Ermənistan vasitəçilərdən bu və ya digər yardım almaq üçün sərhədlərinin təhlükəsizliyini necə təmin etmək barədə düşünməlidir. Yalnız bu halda daha qətiyyətli addımlar ata və ya daha təkmil mövqe ortaya qoya biləcək. İrəvan məsələni özü həll etmədiyindən, ABŞ burada hərbi mövcudluq barədə düşünmür. Müvafiq olaraq, Birləşmiş Ştatlar Ermənistanın nələri edə biləcəyindən çıxış edir və bu imkanlar çərçivəsində sülhə nail olmaq yolunda vasitəçilik səylərini irəli sürür", – deyə Navasardyan izah edib.

Qeyd edək ki, Ermənistan cəmiyyətində Azərbaycana qarşı beynəlxalq miqyasda sanksiyaların tətbiqi ilə bağlı məsələ müntəzəm şəkildə gündəmə gətirilməkdədir. Bu yolla təzyiq göstərilməsi və ölkəmizin geri addım atmağa məcbur ediləcəyi fikri qabardılmaqdadır. Halbuki, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, heç bir tədbir fayda verməyəcək, Bakı prinsipial xəttindən geri dönməyəcəkdir. Əslində, erməni ictimai rəyi də bunu görür və zaman-zaman etiraf edir də. Sadəcə, tipik erməni xəstəliyi imkan vermir ki, bu sayaq yaramaz iddialar tamamilə yox olsun. Ona görə də B.Navasardyana belə bir sual ünvanlanır: Əgər Azərbaycan Qarabağda etnik təmizləmə həyata keçirərsə, ABŞ Ermənistana boş ümid verdiyinə görə məsuliyyət hiss edəcəkmi və Bakıya qarşı sanksiyalar olacaqmı? Burada ümid dedikdə, ABŞ-ın Ermənistandakı səfiri xanım Kuinnin haqqında söz açdığımız fikri nəzərdə tutulur. Bir daha yada salaq ki, səfir Azərbaycanın Qarabağ ermənilərinin hüquq və təhlükəzisliyinə zəmanət verəcəyini bildirmişdi. Yəni, Ermənistanı vəziyyətlə barışmağa çağırmışdı.

B.Navasardyan isə hesab edir ki, Azərbaycana qarşı sanksiyaların tətbiqinə əmin deyil, ancaq siyasi qiymət mütləq veriləcək. "Düşünürəm ki, erməni əhalinin Qarabağdan kütləvi şəkildə köçürülməsi faktının məsuliyyəti Azərbaycanın üzərinə düşəcək. Ancaq çətin ki, bu, Azərbaycana qarşı hər hansı sərt tədbirlərin tətbiqinə gətirib çıxarsın. Mən burada "futbol diplomatiyası" zamanı (2009-cu ildə futbol matçları zamanı Ermənistan və Türkiyə prezidentləri arasında keçirilən görüşlər və danışıqlar "futbol diplomatiyası" adlandırılırdı - red.) olan vəziyyətlə paralel aparmağa cəsarət edərdim. O zaman ABŞ rəsmiləri, sabiq dövlət katibi Hillari Klinton Türkiyəni Ermənistanla münasibətləri normallaşdıra bilmədiyi üçün açıq şəkildə tənqid edirdi. Amma bu, heç bir halda ABŞ-ın Türkiyəyə qarşı tədbir görməsinə səbəb olmadı", – deyən politoloqun fikrincə, vəziyyət deməl olar, eynidir.

***

Sonda bir məqama da diqqət yetirək. B.Navasardyan "Qarabağ ermənilərinin kütləvi şəkildə köçürülməsi" məntiqindən söz açır. Yəni, bilavasitə demir ki, bu işi həyata keçirəcək tərəf Azərbaycan olacaq. O, yaxşı dərk edir ki, Ermənistan ictimai-siyasi rəyi, hakimiyyəti, eləcə də dünya ermənliyi bölgənin erməni əhalisinin Azərbaycan yurisdiksiyası altında yaşamalarındansa, "ermənilərsiz Qarabağ" formulunu əsas tutur. Deməli, indiki halda qabardılan "etnik təmizləmə" ritorikası da əslində Azərbaycana qarşı siyasətin tərkib hissəsidir. Başqa sözlə desək, Qarabağda erməni qalmasın və buna görə Azərbaycan günahkar hesab edilsin.

B.Navasardyan əvvəllər bəyan etmişdi ki, Bakı ilə danışıq aparıb Qarabağ ermənilərinin varlığı ilə bağlı səmimi ortam formalaşdırmaq lazımdır. Politoloqun hazırkı fikirlərindən görünən budur ki, Ermənistanın siyasi qüvvələri buna razı deyillər və çalışırlar ki, "ermənilərsiz Qarabağ" formulu Azərbaycana təzyiq vasitəsi kimi işə düşsün. B.Navasardyan isə son dərəcə diplomatik tərzdə izah etməyə çalışır ki, belə mülahizələr nəticə verməyəcəkdir.

**Ə.CAHANGİROĞLU,**
**"Xalq qəzeti"**



# Rusiya–Türkiyə münasibətləri: Ukrayna böhranı, Qərbin Cənubi Qafqaz plasdarmı və Qarabağ

## *Kremlin ekspert camesi həm bədbindir, həm nikbin*

**Ankaranın Azov liderlərini Kiyevə ekstradisiya etməsi Rusiya ilə Türkiyə arasında münasibətlərə necə təsir edə bilər? Ərdoğanın son bəyanatları və hərəkətləri Ankaranın Ukrayna münaqişəsində mövqeyinin dəyişdiyini və bu məsələdə Qərbə daha fəal dəstək verməyə hazır olduğunu göstərirmi? Hazırda bu kimi suallar bütövlükdə dünyanı düşündürməkdədir. Ancaq məsələyə, ilk növbədə, Rusiyanın ictimai rəyinin münasibəti önəm daşımaqdadır. Bu mənada Rusiya Elmlər Akademiyasının İctimai Elmlər üzrə Elmi İnformasiya İnstitutunun Yaxın Şərq və postsovet ölkələri şöbəsinin müdiri, Rusiya Xarici İşlər Nazirliyi Diplomatiya Akademiyasının professoru Vladimir Avatkovun mövqeyi maraqlıdır.**

Avatkov mövzu ilə bağlı yerli medianın suallarını cavablandırarkən deyib ki, Ankaranın Azov liderlərini Kiyevə ekstradisiya etməsi dövlətlərarası qarşılıqlı fəaliyyət nöqteyi-nəzərindən o qədər də məqbul deyil. Xüsusən də Rusiya və Türkiyə liderləri bu illər ərzində normal qarşılıqlı əlaqəni inkişaf etdiriblər. "Bizə elə gəlirdi ki, bir-birimizi başa düşməyi, qayğılarımızı eşitməyi öyrənmişik. Liderlər səviyyəsində olan bu yaxşı münasibətlər əvvəllər mövcud olan bir çox böyük problemləri həll etməyə imkan verdi", – deyən Avatkov məyusluğunu gizlətməyib.

Siyasi icmalçı onu da bildirib ki, Rusiya–Türkiyə münasibətlərinin toqquşduğu bir sıra regionlarda çətinliklər istisna edilmirdi. Lakin liderlərin – Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Rusiya Prezidenti Vladimir Putinin şəxsi münasibətləri köklü problemlərin qarşısını almağa imkan verirdi. Mövcud vəziyyətə gəlincə, Avatkovun fikrincə, Türkiyə Rusiya ilə olan razılaşmaları pozub: "Bir şey vacibdir. Uzun müddət sonra ilk dəfə olaraq Türkiyə tərəfinin məhz razılaşmaları pozduğunu açıq elan etdik".

Siyasi şərhçi hesab edir ki, Türkiyə Prezidenti Ərdoğan və Ukrayna Prezidenti Volodimir Zelenski "milçəkdən fil" düzəltməyə çalışırlar: "Zelenski Türkiyəyə səfərindən nə əldə etdi? Beş nəfəri (Azov liderləri nəzərdə tutulur – red.) aldı. Silah almadı, pul almadı. Beş nəfərdən başqa heç nə almadı. Kiyev yaxınlığında zavodun (bayraktarların və digər türk pilotsuz təyyarələrinin istehsalı üçün - red.) yaradılması ilə bağlı paraflanan müqavilələrin özü belə yeni deyil, köhnə sazişlərdir. Rusiya isə çox açıq şəkildə bəyan edib və bunu dəfələrlə vurğulayıb ki, bu, zərbələr üçün qanuni hədəflər olacaq".

Məsələnin başqa tərəfi də var ki, Avatkov bunu qərbli həmkarlarının Ankaraya təzyiq göstərməsi, ondan ABŞ-ın məntiqi ilə getməsini tələb etməsi kimi dəyərləndirməkdədir. "Türkiyə müqavimət göstərir və əks iddialar irəli sürür. Xüsusən də İsveçin NATO-ya daxil olması müqabilində Avropa Birliyinə qatılmasını tələb edir. Əslində, burada Ukrayna Türkiyə üçün Qərblə dialoq baxımından yaxşı kartdır. Qərb eşitmək istədiyini eşidir. Türkiyə Ukrayna məsələsində Qərbin tərəfində olduğunu deyir. Amma demək ayrı, etmək ayrı. Bunlar mənim ayıracağım şeylərdir", – deyən politoloq fikrinə aydınlıq gətirib.

Ərdoğanın müharibədən sonra Türkiyənin Ukraynanın NATO-ya üzvlüyünə qarşı olmadığını deməsi Ankaranın Ukrayna münaqişəsində mövqeyinin dəyişdiyini göstərmir ki? Bu məsələdə Türkiyənin Qərbə daha fəal dəstək vermək niyyəti varmı? Avatkovun fikrincə, məsələnin qoyuluşu belə deyil: "Mən indicə bu haqda dedim ki, elan edilənlə görülən iki fərqli şeydir. İndi Türkiyə Qərblə bağlı bir oyun oynayır. Sadiqliyini nümayiş etdirməyə çalışır. Dmitri Sergeyeviç Peskovun (Rusiya Prezidentinin mətbuat katibi nəzərdə tutulur – red.) dediyi də odur ki, biz Qərbin Türkiyəyə təzyiq göstərdiyini başa düşürük. Bu təzyiqin nəticəsidir. Ancaq bunlar sözlərdir. Məsələ nəyin necə olacağıdır. Bunu yalnız zaman göstərəcək. Mövcud istiqamətdə tələskənliyə ehtiyac yoxdur. Sözlər bir şeydir, əməllər tamam başqadır".

Əlbəttə, Qərbin Türkiyə ilə bağlı hansı məyə tutacağı da maraq doğurmaqdadır. Əslində burada çox böyük, özü də açıq qalan sual var. Qərb Qarabağ münaqişəsinin həllini öz himayəsi altında fəal şəkildə davam etdirir. Məqsədlərindən birinin Rusiyanı Cənubi Qafqaz regionundan sıxışdırıb çıxarmaq olduğunu bildirir. Prosesin həyata keçirilməsində mühüm rol Türkiyəyə həvalə olunub. Rusiyanın ekspert cameəsini Ankaranın bu məsələdə Qərbə yardım etməyə hazır olması maraqlandırır. Üstəlik, nəzərə alaq ki, Azərbaycan amili Türkiyə üçün "qırmızı xətt"dir və bunu dəfələrlə bəyan edib.

Avatkov Rusiyanın Cənubi Qafqaz regionundan sıxışdırılması üçün heç bir perspektiv görmədiyini deyir. "Şübhəsiz ki, bir tərəfdən Türkiyənin, digər tərəfdən isə Fransa və Böyük Britaniyanın regionda mövcudluğunun artması ilə bağlı mənfi tendensiyalar var. Regionda və qlobal siyasi proseslərdə yeni qüvvələr balansı formalaşır. Buna görə də indi kiminsə Rusiyanı sıxışdırıb çıxarmasından danışmağa dəymez. Əksinə, Moskvanın regionda imkanları artır. Bizim artıq Gürcüstana uçuşlarımız var. Region ölkələri ilə iqtisadi və siyasi əlaqələrimizi inkişaf etdiririk. Amma onların çətinlikləri olub, var və məncə, olacaq", – deyən politoloqun sözlərindəki ən vacib məqam isə budur: Qərb, o cümlədən ABŞ Türkiyə vasitəsilə Azərbaycana, Fransa vasitəsilə Ermənistana qarşı fəaliyyət göstərərək, regionu Rusiyadan qoparmağa hər cür cəhd göstərir.

**Ə.RÜSTƏMOV, "Xalq qəzeti"**

# Heydər ƏLİYEV: Gürcüstan azərbaycanlıları diaspor deyil

**1996-cı ildə ulu öndər Heydər Əliyevin Tbilisi Opera və Balet Teatrında Gürcüstan azərbaycanlıları ilə görüşündə Prezident Şevardnadze yerli azərbaycanlılara “diaspor” deyə müraciət edən zaman Heydər Əliyev dərhal onun sözünü kəsərək demişdi: “Gürcüstan azərbaycanlıları diaspor deyil, öz doğma torpaqlarında, doğma vətənlərində yaşayırlar”. Bu, milli-tarixi məsələlərdə Heydər Əliyevin nə qədər dərin zəkalı tarixçi, uzaqgörən həssas siyasətçi, milli təəssübkeş olduğunu bir daha göstərmiş və Gürcüstan azərbaycanlılarının taleyində müstəsna rol oynamışdı...**



1988-ci ildən sonra imperiya sütunlarının laxlaması milli azadlıq mübarizəsini oyatmaqla bərabər, etnik burulğanların da qabarmasına səbəb oldu.

Belə qabarmalardan biri də 1988-ci ildən bəri Gürcüstandakı soydaşlarımızla bağlıdır. Əslində, onların mənəvi və fiziki diskriminasiyasının tarixi kökü daha uzaqlara gedir, daha doğrusu, Gürcüstanın Rusiya ilə birləşdirilməsi dövründən başlanır. Ötən əsrin ortalarında Ahıska və Adıgün türklərinin sıxışdırılması və onların dədə-baba yurdlarına ermənilərin yerləşdirilməsi ilə başlanan bu siyasət Borçalının Türkiyə ilə olan bütün əlaqələrinin kəsilməsi demək idi. Daha sonralar, yəni Rusiyada Oktyabr inqilabı baş verəndən sonra isə Borçalının parçalanması prosesi başlandı.

1918-ci ildə Borçalı uğrunda Ermənistan– Gürcüstan müharibəsi Borçalının tamamilə parçalanması və onun böyük bir hissəsinin – Gümrü, Cəlaloğlu, Pəmbək, Loru hissəsinin itirilməsi demək idi. Ruslar və fransızların ermənilərə himayəsi nəticəsində Azərbaycan üçün bu strateji əhəmiyyətli ərazinin itirilməsi (Azərbaycanın Türkiyədən bir qədər də uzaqlaşdırılması) nəinki o yerlərdə yaşayan minlərlə soydaşımızın repressiyasının başlanğıcı, eləcə də Azərbaycanın qıraq-bucağının qaycılanmasının ilk biçimləri oldu. Və sonrakı hadisələr göstərdi ki, rus-türk çəkişmələrində qabaqdan qalan artıq sür-sümüyü gəmirmək də ermənilərə sərfelidir və ola bilsin ki, haçansa onların da payına bu siyasət süfrəsindən bir yağlı tikə düşsün.

***

Başqa millətlərdən fərqli olaraq, tarixən azərbaycanlılar və gürcülər arasında ciddi ədavətə səbəb ola biləcək müharibə və münaqişələr olmayıb. Əksinə, 1918-ci ildə ermənilər tərəfdən Azərbaycan və Ermənistan torpaqlarının ilhaq edilməsi çağlarında, 1919-cu il iyunun 16-da Tiflisdə Gürcüstan və Azərbaycan hökumətləri arasında hərbi iffifaq barədə saziş imzalanmışdı. Tam müdafiə xarakteri daşıyan həmin saziş 3 il müddətinə bağlanmışdı. Qarşılıqlı razılığa əsasən, Tiflisdən Bakıya 12 kiçikçaplı top, 12 dağ topu, onlara lazım olan qədər mərmi, 3000 beşatılan tüfəng, 211 topçu və süvari qılıncı, 795 nizə, 24 “maksim” pulemyotu, səfər mətbəxi və başqa hərbi ləvazimatlar yola salındı.

Maraqlıdır ki, həmin sazişin 10-cu bəndində iki həftə müddətində Ermənistanın sazişə qoşulması hüququ saxlanırdı. Lakin o nəinki bu sazişə qoşulmadı, əksinə, Denikinlə gizlincə əlaqəyə girib, Qarabağ və Dilcan səmtlərinə qoşun yeritdi.

Ümumiyyətlə, Azərbaycanla Gürcüstan arasında münasibətlər həmişə əməli səciyyə daşıyıb. 1920-ci il iyunun 12-də Ağstafada Azərbaycan Sosialist Şura Cümhuriyyəti ilə Gürcüstan Xalq Cümhuriyyəti arasında bağlanan sülh müqaviləsi bu münasibətlərin daha da möhkəmlənməsi üçün özül rolunu oynadı. Ermənilər daim bu iki dövlət və xalq arasında nifaq salmağa çalışmış və bundan faydalanmaq istəyində olmuşlar.

Azərbaycanla Gürcüstan arasında uzun illər boyu yaranmış münasibətlər sistemini şərti olaraq üç mərhələyə bölmək olar.

**Birinci mərhələ** 1990-cı ilə qədər olan münasibətlər dövrüdür. Təbii ki, bu mərhələdə formalaşan münasibətlərdə keçmiş Sovetlər İttifaqının xalqlar arasında dostluq siyasətinin strateji xətti bütün sahələrdə öz əksini tapırdı. Həmin dövrün siyasi durumundan Gürcüstan hökuməti məharətlə istifadə edərək, uzaqgörənliklə soydaşlarımızın yaşadığı bütün rayonlarda gürcülərin sayını müxtəlif motivlərlə süni surətdə artırmışdır.

Rus imperiyasının antitürk "soldat siyasəti"nin Azərbaycan üzərində əks-səda verən ritmlərinə uyğun qol qaldıran erməni, gürcü şovinstlərinin 1930-40-cı və 1948-52-ci illərdəki reveransları nəticəsində Borçalı türklərinin tam deportasiyası həyata keçirilməyə başlandı. Nəticədə Borçalı əhalisinin minillər boyu nəsildən-nəslə ötürülən milli, mənəvi dəyərlərinə, zəngin intellektual potensialına böyük zərbələr dəydi.

Türkiyə isə rus-erməni iştahasından qurtarmaq üçün özünü NATO-nun "ağuşuna atdı". 50-80-ci illər Gürcüstanda gürcü millətinin sayını artırmaq naminə ağına-bozuna baxmadan gürcüləşdirmə siyasəti ilə müşahidə olunurdu. Bu siyasət hamıdan çox gürcülərin özlərinə ziyan gətirdi. Burada udan isə yenə də ermənilər oldu.

Təxminən 1990-cı ildə Gürcüstanda vaxtilə soyadını dəyişmiş ermənilərin siyahısını çıxarmağa başladılar. Ancaq bir müddətdən sonra çox mümmalı şəkildə bu kampaniya dayandırıldı. İndi məlum olduğuna görə bu sirrin açılması heç kimə – nə erməniyə, nə gürcüyə sərf eləyirdi. Bu siyahı çox uzun alınırdı və buraya Gürcüstanın elə "hörmətli adamları"nın adları düşürdü ki... Onların əksəriyyəti Gürcüstanın türklər yaşayan bölgələrində rəhbər vəzifələrdə idilər!.. Və belə kadrların “itirilməsinə” bir ovuc gürcü şovinisti də heç vaxt yol verməzdi!

Nəhayət, Gürcüstanın Borçalı zonasında "milliləşdirmə" siyasətinin daha dərinlərə getməsi millətçi ideoloqları rahatsız etməyə başladı. Belə ki, gürcülər və hətta svanlar özləri də dərk etməyə başladılar ki, pasportunda uzun illərdən bəri milliyyətini "gürcü" yazdıran svan gürcü deyilmiş...

Beləliklə, "əsl gürcü"lərlə pasportunda adını, soyadını, milliyyətini dəyişmiş "qondarma gürcü"lər, o cümlədən ermənilər, arasında ayrı-seçkilik başlayıb. İndi kim kimdir? –sualının cavabını tapmaq üçün heç Şerlok Holms da baş çıxara bilməz...

Gürcüstan–Ermənistan sərhədi boyunca əsasən türklər yerləşir və onlar Azərbaycanla Türkiyə arasında (Sınıq körpü – Başkeçid–Ərzurum) haçansa bir dəhliz rolunu oynaya bilər (oynamışdı da). Digər tərəfdən, Borçalı, Ahıska (Mesxeti), Axırkələk (Axalkalaki), Boqdanovka və Adıgündə türklərin 1937-ci il repressiyasından sonra məskunlaşan ermənilərlə Ermənistan arasında bir divardır. Və bu divarın uçurulması "Böyük Ermənistan" cəfəngiyyatının tərkib hissələrindəndir.

Tarix göstərir ki, gürcülər hansı ərazidən türkləri çıxarıblarsa, ora dərhal ermənilər yiyələniblər. Lakin 80-ci illərdə, konkret olaraq, 1988-ci ildə Svanetiya dağlarının (svanların) türklər yaşayan bölgələrə köçürülməsi isə nəinki, bu problemin həllinə kömək edib, əksinə, yeni-yeni etnik konfliktlərə səbəb olub.

1980-ci ildə Gürcüstanda milli-demokratik hərəkat geniş vüsət alandan sonra millətçi dairələrin fəallığı ilə Marneuli, Bolnisi, Dmanisi, Saqareco, Qardabani və digər rayonlarda yaşayan soydaşlarımızın azadlıqları məhdudlaşdırılır, hüquqları pozulur, onlar müxtəlif zorakı üsullarla öz tarixi torpaqlarından qovulurdular. Borçalıda demoqrafik balansın məqsədli şəkildə dəyişdirilməsi soydaşlarımıza qarşı etnik-psixoloji, maddi-mənəvi təzyiq formasına çevrilirdi.

Qafqaz regionu unikal təbii resurslara və əzəmətli insan potensialına malikdir. Cənubi Qafqaz strateji planda Rusiya, Türkiyə və İran arasında əlaqələndirici bənddir. Burada bir çox ölkələrin maraqları toqquşur. Bir ucu Türkiyəyə, bir ucu Azərbaycana bağlanan, bir tərəfdən gürcülər, digər tərəfdən ermənilərlə dövrələnən və Böyük İpək Yolunun üzərində dayanan Borçalı türkləri isə müxtəlif sivilizasiyaların təmas nöqtəsində boy atıblar.

**İkinci mərhələ** hər iki dövlətin müstəqillik qazandıqları dönəmə düşməklə, inqilabi keçid dövrünü əhatə edir. Yenicə müstəqillik əldə edən Gürcüstan və Azərbaycan dövlətləri keçmiş sovet imperiyasından miras qalmış bir çox problemlərlə üzləşdilər. Bunlardan ən çətini ölkənin ərazi bütövlüyünün təhlükə altına düşməsi idi. Lakin iki dövlət arasında dostluq körpüsünün əsas təməli sayılan borçalılar gürcüləri yenə də tək qoymadılar – onlar ölkənin ərazi bütövlüyünü dəstəkləyib, Gürcüstanın süverenliyi uğrunda gürcülərlə çiyin-çiyinə dayandılar. Ancaq təəssüflər olsun ki, abxazların, osetinlərin, acarların müstəqillik, muxtariyyat iddiaları ilə yanaşı, ermənilərin separatçılığı, Ermənistan bayrağının ermənilərin kompakt yaşadıqları bir sıra rayonlarda qaldırılması, azərbaycanlılara itaətkar, sədaqətli vətəndaş, torpağını sevən, onun uğrunda canından keçməyə hazır olan bir millət obrazı yaratsa belə, hələ də lazımi qiymətini ala bilmirdi.

Z.Qamsaxurdiyanın hakimiyyəti dövründə borçalılar dövlətçilik naminə onu dəstəkləsələr də o, soydaşlarımıza qarşı antimilli və antidemokratik siyasət yeritdi. Onun hakimiyyətdə olduğu dövrdə 94 nəfər azərbaycanlı oğurlandı, bir ay ərzində 660 nəfər azərbaycanlı məcburi şəkildə iş yerlərini, 27 min 500 nəfər isə öz dədə-baba torpaqlarını məcburi şəkildə tərk etməli oldu...

Eduard Şevardnadze və Heydər Əliyev hakimiyyətə gəldikdən sonra onların şəxsi səyi və təşəbbüsü nəticəsində Gürcüstan dövlətinin hüquq-mühafizə orqanlarının Borçalıda və ona bitişik ərazilərdə fəallığı artdı və burada hökm sürən kriminogen özbaşınalığa qarşı ciddi əməliyyatlar həyata keçirildi.

Azərbaycanın Gürcüstanı böyük neft layihələrinə qoşması və doğrudan da bir qardaş, dost ölkə kimi arxasında dayanması və bu layihələrdən mümkün qədər onun daha çox faydalanmasına çalışması Gürcüstanda hər şeyi yaxşılığa doğru dəyişdi.

Məhz bu dövrlərdə xalq diplomatiyası Gürcüstanda çox faydalı işlər gördü. Bakıda fəaliyyət göstərən cəmiyyətlərin xətti ilə Borçalı əsilli ziyalılar dəfələrlə Gürcüstanın müxtəlif konfliktli bölgələrində – Qabaldə, Dmanisidə, Bolnisidə, Marneulidə, Qarayazıda olmuş, soydaşlarımızın hüquqlarının müdafiəsinə qalxmış və gürcü-Azərbaycan xalqları arasında salınmış gərginliyi aradan qaldırmağa müvəffəq olmuşdular. 1992-ci ildə Borçalı məsələsi ilə bağlı akademik Kamal Talıbzadə, professor Şamil Qurbanov, şair Abbas Abdulla, “Kirpi” jurnalının baş redaktoru Eyvaz Borçalı, “Azərbaycan” qəzetinin baş redaktoru Şərif Kərimlinin əvvəlcə Azərbaycan Prezidenti Əbülfəz Elçibəylə, sonra isə Gürcüstan Prezidenti Eduard Şevardnadze ilə 2 saatlıq görüşləri baş tutmuş, Borçalıdakı problemlər kəskinliyi ilə qoyulmuş və ciddi şəkildə müzakirə olunmuşdu...

Nəhayət, 1996-cı ildə müstəqil dövlətin rəhbəri kimi Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstana işgüzar səfəri ilə iki ölkə arasında münasibətlərin yeni – **üçüncü mərhələsi** başlandı. Azərbaycan Prezidentinin bu tarixi səfəri zamanı Azərbaycan-Gürcüstan arasında “Qafqaz regionunda Sülh, Təhlükəsizlik və Əməkdaşlıq barədə” Bəyannamə, “Dostluq, Əməkdaşlıq və Qarşılıqlı Təhlükəsizliyin möhkəmləndirilməsi haqqında” müqavilə, habelə “Neftin nəqlinin yeni vasitələrinin işlənib hazırlanması və belə vasitələrin köməyi ilə neftin Gürcüstan ərazisindən nəqli haqqında” saziş imzalandı.

İmzalanan bu sənədlər hüquqi dövlət quran Azərbaycan və Gürcüstan respublikaları üçün dövlətçiliyin və dövləti münasibətlərin təməl daşları idi.

“Qafqaz regionunda Sülh, Təhlükəsizlik və Əməkdaşlıq barədə” Bəyannamənin olduqca böyük əhəmiyyəti vardı. 1996-cı il Bəyannaməsi, əslində, imperiya siyasətinə – siyasi konfliktlərin qızışdırılması və etnik didişmələrin genişləndirilməsinə qarşı bir sənəd kimi meydana çıxdı. Son illərdə məhz bu regionda milli zəmində baş verən konfliktlər nəticəsində on minlərlə insan qətlə yetirilmiş, yaralanmış, milyondan artıq adam evini-eşiyini, varını-dövlətini itirmiş, əzizlərinin qəbirlərini kimsəsiz qoyaraq baş götürüb qaçmışdı. Əliyev–Şevardnadze Bəyannaməsində kompromislərin vacibliyi, qaçqınların öz ata-baba yurdlarına qaytarılmasının zəruriliyi, terrorizmin istənilən formada qarşısının alınması və başqa məsələlər ön plana çəkildi.

Bəyannamədə göstərilirdi ki, totalitar rejimdən qalmış miras regionun silahlı münaqişələrə gətirib çıxaran kəskin qarşıdurmalara, təcavüzkar separatçılığa və millətçilik meydanına çevrilməsini şərtləndirmişdir. Bəyanname elan olunan zaman rus-çeçen müharibəsində qanlı döyüşlər gedirdi. Azərbaycan-Ermənistan və Gürcüstan-Abxaziya münaqişələrində isə çox kövrək bir sülhə nail olunmuşdu. Məhz belə bir məqamda qəbul olunan bu bəyannamə beynəlxalq münasibətlər tarixinə düşən nadir sənədlər qəbilindən idi. Bəyannamə bütün münasibətləri beynəlxalq prioritetlərə və praktikaya əsaslanaraq, hüquqi müstəvidə həll etməyin əyani nümunəsi idi.

İllər ötsə də bu qardaşlıq əlaqələrini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ümummilli liderin strateji kursunu layiqincə davam etdirir və Azərbaycanla bağlı yaranan bütün qlobal layihələrdə mütləq Gürcüstanla çiyin-çiyinə dayanır.

Məhz bu qəbildən olan görüşlərin birində, 2023-cü il aprelin 8-də Gürcüstanın Baş naziri İrakli Qaribaşvilinin Azərbaycan Respublikasına işgüzar səfəri zamanı Prezident İlham Əliyev bir daha əmin olduğunu bildirdi ki, bu səfər qardaşlıq əlaqələrinin inkişafına böyük töhfələr verəcək. Dövlətimizin başçısı ölkələrimiz və xalqlarımız arasındakı əlaqələrin dərin tarixi olduğunu bildirdi, xalqlarımızın hər zaman sülh və əmin-amanlıq içində yaşadıqlarını vurğuladı.

Qeyd edək ki, iki ölkə arasında münasibətlərin müttəfiqlik səviyyəsinə qalxmasında Azərbaycan Prezidenti İlham Əliyevin Gürcüstana səfərləri mühüm rol oynayıb. 2022-ci il oktyabrın 24-də Gürcüstana işgüzar səfəri zamanı Baş nazir İrakli Qaribaşvili ilə təkbətək görüşərkən dövlətimizin başçısı müttəfiqlik səviyyəsinə qalxan münasibətlərimizin yalnız ölkələrimiz və bölgə üçün deyil, bütövlükdə, Avropa üçün xüsusi əhəmiyyət daşıdığına diqqət çəkmişdi.

Varislik ənənələrinə sadiqlik nümayiş etdirən Baş nazir İ.Qaribaşvili mətbuata bəyanatında Gürcüstan-Azərbaycan əməkdaşlığının gələcək nəsillərə ötürülməsinin vacibliyini belə vurğulamışdı: “Mən Sizin atanızdan, ölkənizin ümummilli liderindən sitat gətirmək istəyirəm. Onun xatirəsinə bizim dərin ehtiramımız var. O, vaxtilə Tbilisidə olanda demişdi, Azərbaycan və gürcü xalqları xoşbəxtdirlər ki, onlar qonşu xalqlardır. Bizim əcdadlarımız həmin təməsları yaradıb və bu gün bizim vəzifəmiz odur ki, həmin əməkdaşlığı irəli aparaq və gələcək nəsillərə ötürək”.

Bu görüşdən az sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladzeni qəbul edərkən bir daha ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə uğurla inkişaf etdiyini vurğuladı. Bu son görüşlərin nəticəsi kimi “Azərbaycan Respublikası hökuməti ilə Gürcüstan hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında” Saziş imzalandı.

Müstəqillik dönəmində ulu öndər Heydər Əliyevin formalaşdırdığı qonşuluq strategiyası bu gün Gürcüstan və Azərbaycanın timsalında bir örnəyə çevrilib.

**Şərif KƏRİMLİ,**
**yazıçı-jurnalist**

# Şimali Kiprdə Ulu öndərin şərəfinə “BİLİMFEST” təntənəsi

**Şimali Kipr Türk Respublikası uşaqları üçün Heydər Əliyev Beynəlxalq Mədəniyyət Mərkəzi və Azərbaycan–Kipr Dostluq Cəmiyyətinin Alsancak qəsəbəsi Azadlıq Milli Parkında birgə təşkil etdiyi ilk elm festivalı “BİLİMFEST”in təntənəli açılışı olub.**




“Bilim Türkiyə” ilə əməkdaşlıq şəraitində Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin qurulmasının 100 illiyinə həsr olunmuş festival böyük maraqla qarşılanıb. Şimali Kiprin avtomobil markası “GÜNSEL”in festivala qatılması aksiyaya əlavə təntənə gətirib.

Uşaqların elmə marağını artırmaq, maraq hissini inkişaf etdirmək və elmi düşünmə bacarıqlarını dəstəkləmək məqsədi ilə təşkil edilən “BİLİMFEST”in açılışında Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ərsin Tatar və Məclisin sədri Zorlu Törə, digər rəsmilər və nüfuzlu şəxslər iştirak ediblər. Sonra “BİLİMFEST” tədbirləri Laptada beynəlxalq Heydər Əliyev Mədəniyyət Mərkəzində davam edib, uşaqlar elmi çadırlarla, texnoloji stendlərlə və mobil elmi yeniliklərlə tanış olublar.

**Professor İrfan Suat Günsel deyib:**

– Heydər Əliyev Beynəlxalq Mədəniyyət Mərkəzi və Azərbaycan–Kipr Dostluq Cəmiyyətinin kiprli uşaqların elmə marağının artırılması məqsədilə təşkil edildiyi “BİLİMFEST” elm festivalı uşaqlarımızı elmi bilikləri, texnoloji yenilikləri mənimsəməyə ruhlandırır. Türkiyə, Azərbaycan və Şimali Kipr Türk Cümhuriyyətinin bayraqlarının yan-yana dalğalandığı bu təntənənin Azərbaycanın əfsanəvi lideri Heydər Əliyevin anadan olmasının və Türkiyə Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunması festivalın önəmini daha da artırır. “GÜNSEL” milli avtomobilinin serial istehsala hazırlığı davam etdirilməsi isə uşaqlarımızda hədsiz iftixar hissi doğurur.

*“Xalq qəzeti”*

## Milli Məclisin sədri almaniyalı nazirlə görüşüb



**İyulun 11-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Almaniya Xarici İşlər Nazirliyinin dövlət naziri Tobias Lindnerin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Azərbaycanın Almaniya ilə münasibətlərinin bugünkü inkişaf səviyyəsindən məmnunluğunu ifadə edən Milli Məclisin sədri ölkələrimizin həm ikitərəfli formatda, həm də Avropa İttifaqı çərçivəsində uğurlu əməkdaşlığından söz açıb. Avropa İttifaqı ilə əməkdaşlığın ölkəmizin xarici siyasətinin prioritet istiqamətlərindən olduğunu bildirən Sahibə Qafarova Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfələrdən danışıb.

O, ikitərəfli münasibətlərin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin müstəsna rolunu qeyd edərək, Prezident İlham Əliyevin cari ilin mart ayında Almaniyaya səfərinin nəticələrinin əhəmiyyətini vurğulayıb. Münasibətlərimizin möhkəm hüquqi bazaya söykəndiyini və Almaniyanın ölkəmizin əsas ticarət tərəfdaşlarından biri olduğuna diqqət çəkib, ölkəmizdə yaradılmış əlverişli investisiya mühitindən söz açıb, Almaniyanın aparıcı şirkətlərinin Azərbaycanda uğurla fəaliyyət göstərdiyini bildirib.

Ermənistanın 30 il davam edən işğalçılıq siyasətinin ağır nəticələrindən, mina terrorundan söz açan S.Qafarova bildirib ki, Azərbaycan işğaldan zərərçəkən tərəf olsa da, regionda uzunmüddətli sülhün əldə olunması üçün sülh təşəbbüsü ilə çıxış edir. Ermənistan tərəfi mövcud reallıqları nəzərə alaraq, Azərbaycanın bu təşəbbüsünü lazımınca dəyərləndirməlidir.

Dövlət naziri Tobias Lindner Almaniyanın Azərbaycanla əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini vurğulayıb. O, ölkəsinin ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni və humanitar sahələrlə yanaşı, parlament səviyyəsində də inkişaf etdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb. T.Lindner hər iki ölkənin qanunverici orqanları arasındakı münasibətlərin dərinləşməsində qarşılıqlı səfərlərin və görüşlərin, təcrübə, həmçinin informasiya mübadiləsinin aparılmasının vacib olduğunu qeyd edib.

**Ə.BƏDƏLOV, “Xalq qəzeti”**

## Yeni rəis kollektivə təqdim olunub

**Azərbaycan Prezidentinin sərəncamı ilə ədliyyə nazirinin müavini – Penitensiar Xidmətin rəisi vəzifəsinə təyin olunan Mirsaleh Miradil oğlu Seyidov iyulun 11-də ədliyyə naziri Fikrət Məmmədov tərəfindən kollektivə təqdim olunub.**




Ədliyyə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bununla bağlı Penitensiar Xidmətin Baş idarəsinin rəhbər şəxslərinin, cəzaçəkmə müəssisələri rəislərinin, habelə nazirliyin digər aidiyyəti məsul işçilərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə keçirilən iclasda ədliyyə naziri çıxış edərək bu il 100 illiyini qeyd etdiyimiz Ümummilli lider Heydər Əliyevin təməlini qoyduğu və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən ədliyyə, o cümlədən penitensiar sistemdə aparılan mütərəqqi islahatlardan, məhkumların hüquqlarının qorunması üzrə görülən ardıcıl tədbirlərdən, əfv və amnistiya aktlarının geniş tətbiq olunaraq həyata keçirilən humanizm siyasətindən bəhs edib.

F.Məmmədov ədliyyə sahəsində ictimai iştirakçılığın geniş tətbiqini qeyd edərək uzun illərdir Ədliyyə Nazirliyi yanında fəaliyyət göstərən İctimai Şuranın penitensiar müəssisələrə ictimai nəzarətin həyata keçirilməsində fəal iştirakını vurğulayıb.

Nazir Xidmətin yeni rəisi M.Seyidovun uzun müddət bu sahədə peşəkar fəaliyyətini qeyd edərək qarşıda duran vəzifələri diqqətə çatdırıb, konkret tapşırıqlar verib.

Çıxış edən nazir müavini – Xidmətin rəisi M.Seyidov Azərbaycan Prezidentinin göstərdiyi yüksək etimadı doğrultması, penitensiar sistemin fəaliyyətinin dövlət başçısının tələblərinə uyğun təkmilləşdirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

***Q.QASIMOV, “Xalq qəzeti”***

**Firidun bəy Köçərli – 160**

## Folklor İnstitutunun Tərtər konfransı

**Tərtərdə AMEA Folklor İnstitutu bu rayonun İcra Hakimiyyəti ilə birgə görkəmli ictimai xadim, ədəbiyyatşünas, yazıçı-publisist Firidun bəy Köçərlinin anadan olmasının 160 illik yubileyinə həsr olunmuş “Firidun bəy Köçərli və Qarabağ ədəbi-mədəni mühiti” mövzusunda respublika elmi konfransı keçirib.**




Konfrans iştirakçılarını salamlayan Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov bildirib ki, “Heydər Əliyev İli” çərçivəsində təşkil olunan konfrans Ulu öndərin milli-mədəni dəyərlərimizə və xalqımızın görkəmli simalarına sevgi və ehtiramla bağlı formalaşdırdığı ənənələrə söykənir. Görkəmli maarifçi-demokrat Firidun bəy Köçərli xalqımıza tarixi xidmətləri ilə azərbaycançılığın ideya-məfkurəvi əsaslarını gücləndirmiş soydaşlarımızdan bir olduğuna görə bu gün biz onun mənalı ömür yoluna, zəngin mənəvi irsinə Ümummilli liderin dövlətçilik ideologiyasına çevirdiyi məfkurə işığında nəzər salırıq.

AMEA Folklor İnstitutunun baş direktoru, akademik Muxtar Kazımoğlu konfransın Qarabağda keçirilməsinin əhəmiyyətindən danışaraq söyləyib ki, tədbirin Tərtərdə keçirilməsi heç də təsadüfi deyil. Firidun bəyin soy-kök etibarilə bağlı olduğu köcərlilər tayfasının bir qolu da Qarabağ xanlığı dövründən bu rayonda məskunlaşıb. Tərtərlilər Köçərli kəndinin və Şişanın Köçərli məhəlləsinin mənşə ortaqlığının timsalında, haqlı olaraq, bu bağlılıqla fəxr edirlər.

Akademik daha sonra qeyd etdi ki, Firidun bəy Köçərli Azərbaycan humanitar fikrinin inkişafında, onun ideya və istiqamətlərinin müəyyənləşməsində danılmaz rolu olan böyük tənqidçi, ədəbiyyatşünas alim və pedaqoqdur. Peşəkar maarifçilərimizin bütöv bir nəslinin müəllimi olmuş bu görkəmli ziyalı həm də ilk Azərbaycan ədəbiyyatı tarixinin yazılmasında, uşaq ədəbiyyatının təməlinin qoyulmasında, ədəbi-tənqidi fikrin formalaşmasında önəmli təməllər yaratmışdır.

Folklor İnstitutunun əməkdaşları professor Ramazan Qafarlı, professor Seyfəddin Rzasoy, filologiya elmləri doktorları Mətanət Abbasova, Leyla Məmmədova, dosentlər Qalib Sayılov, İlhamə Qəsəbova, Elçin Abbasov elmi məruzələrlə çıxış edibər.

Xatırladaq ki, qəhrəmanlıq şəhəri Tərtərdə AMEA Folklor İnstitutu və Tərtər Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ikinci dəfədir ki, respublika elmi konfransı keçirilib.

***“Xalq qəzeti”***

**TÜRKSOY – 30**

# Türk xalqlarının mənəvi körpüsü

**Türkdilli ölkələrin mədəniyyət səylərini birləşdirən beynəlxalq təşkilat olan TÜRKSOY-un çoxşaxəli fəaliyyəti eyni kökə mənsub xalqların dövlət qurumları arasında daha sıx ədəbi-mədəni, elmi, iqtisadi əlaqələri əhatə edir. Ötən əsrin 90-cı illərinin əvvəllərində keçmiş SSRİ məkanında baş vermiş ictimai-siyasi dəyişikliklər səbəbindən yaranmış yeni əlverişli şərait müştərək türk mədəniyyəti və incəsənətinin vahid təşkilatının yaranmasına da səbəb oldu.**



Sovetlər Birliyi dağıldıqdan sonra müstəqilliklərini qazanmış Türk dövlətlərinin regional inteqrasiya məsələləri aktual xarakter aldı. Çağdaş dövrümüzdə müstəqil Türk dövlətləri həm ayrı-ayrılıqda, həm də birgə çoxtərəfli münasibətlərdə, yeni beynəlxalq təşkilatlar çərçivəsində fəaliyyət göstərirlər. Belə bir şəraitdə qardaş Türkiyənin regional inteqrasiyanın təşəbbüskarı kimi çıxış etməsi gözlənilən bir addım oldu. Yeni müstəqilik qazanmış Türk dövlətləri də bir çox baxımdan Qərb institutlarına uğurla inteqrasiya etmiş Türkiyənin təcrübəsindən yararlanmaqda maraqlı olduqları üçün TÜRKSOY-da birləşdilər.

Bu beynəlxalq qurumun yaradılması və fəaliyyət prinsipləri haqqında Müqavilə ölkələrimizin mədəniyyət nazirləri tərəfindən 1993-cü il iyulun 12-də Almatıda imzalanıb. Nizamnaməyə görə, yeni qurum türkdilli dövlətlərin mədəniyyət nazirlərinin Daimi Şurasının qərarlarına əsasən fəaliyyət göstərir. TÜRKSOY-un əsas üzvləri Qazaxıstan, Türkiyə, Azərbaycan, Özbəkistan, Qırğızıstan və Türkmənistandır. Qalan üzvlər isə (onların sayı 8-dir) əsasən, müşahidəçi qismində iştirak edir. Amma bu da bir demokratiya örnəyidir ki, səsvermə prosedurlarında müşahidəçi ölkələrin də əsas üzvlər kimi eyni hüquqları var.

Bildiyimiz kimi, türk xalqları islam dini ilə yanaşı müxtəlif dinlərə sitayiş edir. Amma TÜRKSOY-un yaradılmasında xalqlarımızın əsasən din deyil, dil prinsiplərinə üstünlük verilib. Bu təşkilat üzv ölkələrin daxili və xarici siyasətindən, dövlət strukturlarının siyasi yönümündən asılı olmayaraq, onların mədəniyyət və incəsənət sahəsində regional birliyini həyata keçirir.

TÜRKSOY-un ən yüksək orqanı üzv ölkələrin Mədəniyyət Nazirləri Daimi Şurasıdır. Təşkilatın qərarları ölkələrdə növbə ilə keçirilən mədəniyyət nazirlərinin Daimi Şurasının toplantısında təsdiq olunur. Toplantılararası müddətdə təşkilata nazirlər sırasından seçilmiş baş direktor rəhbərlik edir. Baş direktor aparatında işçi qrupundan əlavə, hər ölkədən bir nümayəndə də fəaliyyət göstərir. TÜRKSOY-un Baş direktorluğu Ankarada yerləşir; rəsmi dili türk dilidir.

Ulu öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsi ilə bu təşkilatın işində Azərbaycanın rolu xeyli güclənib. Bu təşkilatın xəttilə türk dünyasının bir sıra ünlü nümayəndələrinin müştərək yubileyləri təntənə ilə keçirilib. Bu sıraya dahi Azərbaycan bəstəkarı və dirijoru Niyazinin xatirə gecəsi. Aşıq Pir Aydının xatirəsinə həsr olunmuş I Beynəlxalq Festival, Türkdilli Ölkələrin Opera Günü, dahi Azərbaycan şairi Füzulinin 500 illik yubileyi, Manas eposunun 1000 illiyinə həsr olunmuş beynəlxalq simpozium, habelə qazax şairləri Cambul və Abayın yubileyləri, türk ədəbiyyatının əvəzsiz nümunəsi olan “Kitabi Dədə Qorqud”un 1300 illik yubileyi və neçə-neçə digər mədəniyyət bayramları aiddir. Xatırladaq ki, Oş şəhərinin 3000 illiyi, Məhəmməd Kaşqarlının “Divani-lüğəti türk” əsərinin 925 illiyi, Məhəmməd bəy Qaramanoğlu tərəfindən türk dilinin dövlət dili elan olunmasının 725 illiyi, Əhməd Yəsəvinin 900 illiyi də təşkilatın yaddaqalan tədbirlərindən olub.

Sıralamadan da göründüyü kimi, TÜRKSOY Azərbaycanın görkəmli mədəniyyət, incəsənət və ədəbiyyat xadimləri ilə bağlı bir çox tədbirlər həyata keçirib. Yeri gəlmişkən, qeyd edək ki, təşkilat Prezident İlham Əliyevin 2021-ci ilin Azərbaycan Respublikasında “Nizami Gəncəvi İli” elan edilmədi haqqında sərəncamına əsasən, dahi şairin 880 illiyinə həsr olunmuş müxtəlif tədbirlər də təşkil edib. Ankarada – TÜRKSOY-un qərargahında “Dahi Azərbaycan şairi Nizami Gəncəvi” mövzusunda kitab və rəsm sərgiləri açılıb, eləcə də bu il 100 illik yubileyi tamam olan görkəmli Azərbaycan rəssamı Mikayıl Abdullayevin Nizami irsinə həsr olunmuş əsərlərindən ibarət sərgi nümayiş olunub.

TÜRKSOY-la UNESCO arasında əlaqələr daim inkişaf edir və Türk Dünyası üçün mühüm əhəmiyyət kəsb edən tarixlər beynəlxalq aləmdə anılır. TÜRKSOY-un fəaliyyətinin tərkib hissəsi kimi müxtəlif kitab və məcmuələrin nəşr olunmasını göstərmək olar: Qırğızıstanın xalq eposu “Manas”, Abayın seçilmiş əsərləri, Altaydan Dünyaya qədər türk mədəniyyətinin ümumi motivləri, Başqırd xalq eposu “Ural Batır”, Türkmənistan poeziyasının antologiyası, türkdilli ölkələrin memarlıq abidələri, Böyük Türk Xaqanlığının tarixi, Muxtar Auezovun seçilmiş əsərləri, tatar xalq dastanı “İdigey”, “Dədə Qorqud” ensiklopediyası, Bulqar-tatar sivilizasiyasının abidələri, Nikolay Katanovun seçilmiş əsərləri və s.

Ötən il martın 31-də TÜRKSOY Bursada Azərbaycan üçün çox əlamətdar bir qərar qəbul edib. Təşkilatın Mədəniyyət Nazirləri Daimi Şurası Şuşa şəhərini 2023-cü il üçün “Türk Dünyasının Mədəniyyət Paytaxtı” elan edib. Elə həmin ayda cənab İlham Əliyevin sərəncamı ilə TÜRKSOY-un baş katibi Düsen Kaseinovun “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilməsi ölkəmizdə bu təşkilata yüksək önəm verildiyinin göstəricisidir.

Bu il martın 6-da qurumun təşəbbüsü və təşkilatçılığı ilə Türk dünyası ədəbiyyatına yeni nəfəs gətirən TÜRKSOY Yazıçılar Birliyi təsis olunub. Ankaradakı baş qərargahda birliyin təsis toplantısı keçirilib. Məclisdə Qazaxıstan Yazıçılar Birliyinin sədri Uluqbek Esdaulet, Qırğızıstan Yazıçılar Birliyinin sədri Nurlanbek Kalıbekov, Özbəkistan Yazıçılar Birliyinin sədri Sirojiddin Seyid, Azərbaycan Yazıçılar Birliyinin beynəlxalq əlaqələr üzrə katibi Səlim Babullaoğlu, Türkiyə Yazıçılar Birliyi İdarə Heyətinin üzvü Mahmut Erdemir, Avrasiya Yazarlar Birliyinin sədri Yakup Öməroğlu və Türkmənistanın Ankaradakı Səfirliyinin ikinci katibi Handurdi Turayev iştirak ediblər. Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar TÜRKSOY Yazıçılar Birliyinin fəxri prezidenti seçilib. Türk Dövlətləri Yazıçılar Birliyinin yaradılması türk coğrafiyasında yaşayan yazıçıların bir-birini tanımasına, əsərlərinin təbliğinə zəmin yaratmaq, ortaq problemlərin müəyyən edərək həll olunmasına çalışmaq məqsədilə təsis edilib.

TÜRKSOY-un yeni baş katibi Sultan Raev bu barədə deyib: “TÜRKSOY bütün türk xalqlarının mədəniyyətinə möhkəm körpü olmaq, ədəbiyyat və mədəniyyət vasitəsilə bir-birinə yaxınlaşdırmaq, onları birliyə, həmrəyliyə dəvət etmək üçün var gücü ilə çalışır. Türk mədəniyyətinin lokomotivi ədəbiyyatdır. TÜRKSOY-un baş katibi olaraq mənim ən mühüm vəzifələrimdən biri də Türk dünyası sivilizasiyalarını bir-birinə yaxınlaşdırmaq, onların ünsiyyətini gücləndirməkdir. Əsas şüarımız isə dildə, fikirdə, işdə birlikdir”.

Qazaxıstan Yazıçılar Birliyinin rəhbəri Uluqbek Esdaulet TÜRKSOY Yazarlar Birliyinin ilk sədri seçilib. İnanmağa əsas var ki, yeni yaradıcı qurum Türk coğrafiyasında ədəbi düşüncənin tərəqqisinə yeni təkan olacaq.

Bu yaxınlarda TÜRKSOY Yazıçılar Birliyinin I Toplantısında çağdaş Azərbaycan ədəbiyyatının öncüllərindən olan Anar Rzayevin anadan olmasının 85 illiyinə həsr olunmuş təntənəli mərasim keçirilib. TÜRKSOY Yazıçılar Birliyinin yaradılmasına öncülük edən Anar Rzayevə Türk Dünyası ədəbiyyatına verdiyi töhfələrə görə TÜRKSOY-un baş katibi Sultan Raev “TÜRKSOY-un Şərəf ordeni”ni təqdim edib.

Yaranmasından 30 il keçən TÜRKSOY bundan sonra da türk mədəni-mənəvi birliyi naminə sanballı fəaliyyətini uğurla davam etdirməkdə qərarlıdır.

***Ə.ƏLİYEV, “Xalq qəzeti”***

## Qazaxıstan Transxəzər marşrutu üçün 2 tanker alıb

### *Bununla ölkədən Xəzərin bu tayına 750 min ton neft daşınacaq*

**“KazMunayQaz Milli Şirkət” Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin yaydığı məlumatda Rumıniyanın Qalas şəhərində neftin Xəzər dənizi ilə nəqlini təmin edəcək 2 neftdaşıyan tankerin – “Taraz” və “Liwa”nın Qazaxıstana təhvil verilməsi ilə bağlı təntənəli mərasim keçirilib. Həmin tankerlərin Qazaxıstanın ildə 750 min ton neftinin nəqli üzrə öhdəlikləri tam ödəyəcəyi proqnozlaşdırılıb.**



Qeyd edək ki, 2022-ci ildə “KazMunayQaz Milli Şirkət” və SOCAR arasında Aktau–Bakı–Tbilisi–Ceyhan marşrutu üzrə ildə 1,5 milyon ton həcmində və daha sonra ildə 5 milyon tona çatdırılmaqla neft tranziti haqqında beşillik müqavilə imzalanıb.

Qazaxıstan neftinin Azərbaycan ərazisindən tədarükünün logistik sxemi neftin Xəzər dənizi vasitəsilə tankerlərlə daşınmasını, bu ölkənin Aktau limanında yüklənməsini, dənizin dayaz sulu olması ilə əlaqədar dedveyt tonu 12 milyon 368 min ton olan “Caspian max” kiçik ölçülü neft tankerləri ilə daşınmasını nəzərdə tutur. Neftin qəbulu–Bakı şəhəri ərazisindəki Səngəçal terminalında Bakı– Tbilisi– Ceyhan (BTC) magistral neft boru kəməri ilə Türkiyənin Aralıq dənizindəki Ceyhan limanında ixrac üçün neftin daşınması üzrə olacaq.

Transxəzər marşrutu üzrə sınaq nəqletmə 8 illik fasilədən sonra 2023-cü il martın 20-də həyata keçirilib. “KazMunayQaz Milli Şirkət” və SOCAR arasında bağlanmış müqaviləyə əsasən, nəzərdə tutulan tranzit neftin ən azı 50 faizi donanmanın genişləndirilməsi istiqamətində iş aparan “Taraz” və “Liwa” tankerləri ilə reallaşdırılacaq.

***“Xalq qəzeti”***

## Son sutkada 2 nəfər COVID-19-dan ölüb

**Azərbaycanda son sutkada koronavirus infeksiyasına 3 yeni yoluxma faktı qeydə alınıb, 1 nəfər sağalıb.**

Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargah məlumat yayıb.

Son sutkada COVID-19-dan 2 nəfər vəfat edib.

***“Xalq qəzeti”***



# Diplomatik xidmət orqanlarının rəhbərlərinin VIII müşavirəsi öz işinə başlayıb






**Dünən Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının rəhbərlərinin VIII müşavirəsi öz işinə başlayıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, ADA Universitetində təşkil edilmiş açılış tədbirində Nazirliyin rəhbər heyəti və əməkdaşları, ölkəmizin xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin rəhbərləri iştirak ediblər.

Müşavirədə açılış nitqi ilə xarici işlər naziri Ceyhun Bayramov və Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış ediblər.

Çıxışlarda, Azərbaycan-Ermənistan normallaşma prosesi və sülh gündəliyi, müasir dövrün çağırışları fonunda ölkəmizin xarici siyasət prioritetləri, mövcud çağırışların qarşısının alınması istiqamətində atılan mühüm addımlar və əldə edilmiş nailiyyətlər, ölkəmizin müasir beynəlxalq münasibətlər sistemində rolu, çoxtərəfli platformalarda iştirakımız, müxtəlif istiqamətlər üzrə əməkdaşlıq perspektivləri barədə strateji istiqamətlər müəyyən edilib və müvafiq təlimatlar verilib.

Müşavirə regionlar üzrə paralel panel müzakirələri, habelə enerji və iqtisadi diplomatiya, maliyyə, kadrlar, konsulluq, hüquq, beynəlxalq hüquq, təşkilat-nəzarət və xidmətlərin təşkili məsələlərinə dair sessiyalarla davam etdirilib.

İyulun 12-də müşavirənin mədəniyyət diplomatiyası, beynəlxalq inkişafa yardım və diaspora məsələləri, çoxtərəfli diplomatiya və hərbi-siyasi təhlükəsizlik məsələləri, parlament əlaqələri, ictimai diplomatiya və media məsələlərinə dair sessiyalarla davam etdirilməsi nəzərdə tutulub.

İyulun 13-də isə Xarici İşlər Nazirliyinin rəhbər heyətinin və əməkdaşlarının, ölkəmizin xaricdə fəaliyyət göstərən diplomatik nümayəndəliklərinin rəhbərlərinin iştirakı ilə Ağdam şəhərinə səfəri və "Ağdamın dirçəlişi" adlı tədbirin təşkili planlaşdırılıb.

# Əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub

**Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayev iyulun 11-də Çin Xalq Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Quo Min ilə görüşüb.**



Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, görüşdə iki ölkə arasında müxtəlif istiqamətlərdə əlaqələrin inkişafından məmnunluq ifadə olunub, iqtisadi-ticari, enerji, nəqliyyat-tranzit, investisiya, informasiya-kommunikasiya texnologiyaları, humanitar, turizm və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Həmçinin Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının növbəti iclasının cari ilin sonunadək Çində keçirilməsi ilə bağlı razılıq əldə olunub.

**"Xalq qəzeti"**

# DSX: BQXK-yə aid nəqliyyat vasitələrində qaçaqmalın keçirilməsi cəhdləri aşkarlanıb

**Ermənistan Respublikası ilə dövlət sərhədində "Laçın" dövlət sərhədindən buraxılış məntəqəsi fəaliyyətə başladığı tarixdən Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus nəqliyyat vasitələrinin dövlət sərhədindən hərəkətinə lazımi şərait yaradılıb, müvafiq qaydada sərhəd və gömrük nəzarətindən keçməklə dövlət sərhədindən buraxılıb.**

Dövlət Sərhəd Xidmətindən (DSX) Mətbuat mərkəzindən bildirilib ki, lakin ötən müddət ərzində DSX-nin əməkdaşları tərəfindən BQXK-yə aid nəqliyyat vasitələrində dəfələrlə qanunsuz yolla müxtəlif növ qaçaqmalın keçirilməsi cəhdləri aşkarlanıb. Belə ki:

**01.07.2023-cü** il tarixdə saat 16:41 radələrində Ermənistandan Azərbaycana gələn Ermənistan vətəndaşı 17.06.1976-ci il təvəllüdlü Hartunyan Garikin (pasport: AT0573343) idarə etdiyi Reno markalı 35VX480 nömrə nişanlı nəqliyyat vasitəsinin salonunda bəyan olunmamış halda əl yüklərin arasında gizlədilmiş 15 ədəd mobil telefon sərhəd naryadı tərəfindən aşkar olunaraq saxlanılıb.

**03.07.2023-cü** il tarixdə saat 15:52 radələrində Ermənistandan Azərbaycana gələn Ermənistan vətəndaşı 12.04.1977-ci il təvəllüdlü Grigoryan Vrezhin idarə etdiyi (pasport: AU040291) Uaz markalı 768UU22 nömrə nişanlı nəqliyyat vasitəsinin salonunda bəyan olunmamış halda əl yüklərin arasında gizlədilmiş 115 ədəd mobil telefon ekranları, 10 ədəd mobil telefon platası, 120 ədəd mobil telefon üçün qida bloku, 1 ədəd ekran yapışqanı sərhəd naryadı tərəfindən aşkar olunaraq saxlanılıb.

**05.07.2023-cü** il tarixdə saat 16:10 radələrində Ermənistandan Azərbaycana gələn Ermənistan vətəndaşı 26.04.1981-ci il təvəllüdlü Harutyunyan Sasunun (pasport: AU0219416) idarə etdiyi İveco markalı 711FF11 nömrə nişanlı yük nəqliyyat vasitəsinin salonunda 17 adda 848 qutu siqaret və ehtiyat yanacaq çənindən gizlədilmiş 320 lt benzin aşkar olunaraq saxlanılıb.

**05.07.2023-cü il** tarixdə saat 16:54 radələrində Ermənistandan Azərbaycana gələn Ermənistan vətəndaşı 04.12.1959-cu il təvəllüdlü Musaielian Vakifin (pasport: AU031091) idarə etdiyi DAF markalı 37FF609 nömrə nişanlı yük nəqliyyat vasitəsinin salonunda 5 adda 125 qutu siqaret və ehtiyat yanacaq çənindən gizlədilmiş 1000 lt benzin aşkar olunaraq saxlanılıb.

Bu barədə BQXK-ya rəsmi kanallar vasitəsilə xəbərdarlıq edilməsinə baxmayaraq, qanunazidd əməllər təkrar olunmuş və onların aradan qaldırılması üçün zəruri addımlar atılmayıb.

BQXK-yə məxsus olan və tibbi təxliyə həyata keçirən nəqliyyat vasitələrindən qaçaqmalçılıq üçün istifadə edilməsi Azərbaycan Respublikasının qanunlarının kobud şəkildə pozulması faktları olmaqla yanaşı, həm də ölkəmizin humanitar təşkilat olan BQXK-yə olan etimadından sui-istifadə olunmasıdır.

Yuxarıda qeyd edilən faktlarla əlaqədar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi açılmış və zəruri istintaq tədbirləri həyata keçirilənə qədər Laçın dövlət sərhədindən buraxılış məntəqəsindən keçid müvəqqəti olaraq dayandırılıb.

Bütün qaçaqmalçılıq faktları yerində əməliyyat çəkilişləri ilə sənədləşdirilib.

***Q.QASIMOV, "Xalq qəzeti"***

# Hərbi qulluqçumuz yaralanıb

**Dünən saat 16:00 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini atıcı silahlardan atəşə tutub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu əsgər Abdullayev Hüseyn Arif oğlu yaralanıb.

Yaralı hərbi qulluqçumuz dərhal hərbi tibb müəssisəsinə təxliyə edilib, həyatı üçün təhlükə yoxdur.

Bölmələrimiz tərəfindən cavab tədbirləri görülür.

* * *

**Həmin gün 11-i saat 10:05-dən saat 14:55-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri Ordumuzun Ağdam, Kəlbəcər və Laçın rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

* * *

**Bu gün Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu əsgər Əliyev Cahid Müşfiq oğlu xidmətdə olarkən təhkim olunmuş silahdan açılmış atəş**

Bu barədə Xidmətin mətbuat mərkəzindən məlumat verilib.

Faktla bağlı DSX və Hərbi Prokurorluq tərəfindən araşdırma aparılır.

Dövlət Sərhəd Xidmətinin rəhbərliyi vəfat edən hərbi qulluqçunun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

# Numan Kurtulmuş Azərbaycanda



**Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 11-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşu hava limanında Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, Milli Məclisin Azərbaycan–Türkiyə parlamentlərarası işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov və digər rəsmi şəxslər qarşıladılar.

# Baş prokuror Naxçıvanda vətəndaşlarla görüşüb



**Dünən Baş prokuror Kamran Əliyev Naxçıvan Muxtar Respublikası prokurorluğunun inzibati binasında Naxçıvan şəhər, Babək, Culfa, Kəngərli, Ordubad, Şahbuz və Şərur rayonlarından olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 70 nəfər vətəndaşın müraciətində qaldırdıqları məsələlərin, o cümlədən konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntularının, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələrin və sosial problemlərə aid müraciətlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

**"Xalq qəzeti"**

# "Qoçaq" diplomatın "qorxaq" baş nazirə ittihamları

## *Görəsən, Oskanyan Paşinyanı ucuz ittihamlarla "xərcləyə" biləcəkmi?*

**(əvvəli 1-ci səhifədə)**

Əslində, 44 günlük Vətən müharibəsinin başlanmasının ən böyük səbəbkarı Paşinyan, onun işğal siyasətindən imtina etməməsi oldu. Paşinyanın sərt ritorikasına məhz Vətən müharibəsi – 8 Noyabr Zəfəri son qoydu.

10 noyabr 2020-ci il tarixində imzalanmış üçtərəfli Bəyanatla Ermənistan sülhə hazır olduğunu, işğal etdiyi torpaqlardan çıxacağını, Azərbaycan tərəfinin bütün şərtlərini qəbul etdiyini bildirdi. Məhz bu tarixi andan sonra Paşinyanın dilinə "tanıyıram" və "qəbul edirəm" ifadələri yol tapdı. Başqa sözlə desək, Paşinyanın "yumşaq siyasətçi" obrazını onun xarakteri deyil, Azərbaycan Ordusunun "dəmir yumruğu" formalaşdırıb. Bu isə o deməkdir ki, Paşinyanın yerinə Oskanyan da olsaydı, 44 günlük müharibədəki rüsvayçı məğlubiyyətdən sonra eyni ifadələri işlətmək məcburiyyətində qalacaqdı.

Oskanyanın Paşinyanın ünvanına səsləndirdiyi digər ittiham onun Qarabağdakı ermənilərin muxtariyyət məsələsini gündəmə gətirməməsi ilə bağlıdır. Keçmiş xarici işlər naziri bu nöqtədə də səmimi deyil və erməni ictimaiyyətini gözgörəti aldadır. Məsələ bundadır ki, Paşinyanın ermənilərin muxtariyyət məsələsini gündəmə gətirməsi, bunu müzakirə etməsi mümkün deyil və bunun üçün heç bir əsas yoxdur. Çünki Azərbaycanla Ermənistan arasında post-müharibə dönəmini tənzimləyən ən mühüm sənəd 10 noyabr bəyanatında muxtariyyətlə bağlı heç bir bənd yoxdur.

Xatırladaq ki, dövlət başçısı İlham Əliyev 10 noyabr 2020-ci il tarixində xalqa etdiyi müraciətdə bu fakta xüsusi olaraq diqqət çəkmiş, Dağlıq Qarabağın statusu ilə bağlı məsələsinin "gorbagor olduğunu" bəyan etmişdir: "Yəqin siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur! Bəs hanı Ermənistan tərəfinin tələbləri ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir? Mən onlara muxtariyyat təklif edəndə buna razı olmadılar, dedilər ki, yox, bu, "müstəqil dövlətdir". Bunlar uzun illərdir "müstəqil dövlət" kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəlmə də yoxdur, Paşinyan. Nə oldu bəs? Bu nə oldu, Paşinyan? Deyəsən, bu söz çox illər dillərdə qalacaq".

Muxtariyyət məsələsini yenidən gündəmə gətirmək, bu istiqamətdə süni ajiotaj yaratmaq Oskanyanın ölü xəyallarına həyat vermək cəhdindən başqa bir şey deyil.

Vardan Oskanyanın Paşinyana yönəlik ittihamlarından biri də onun Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması, bunu açıq şəkildə etiraf etməsidir. Oskanyan bundan əvvəlki məsələlərdə olduğu kimi, bu məsələdə də siyasi riyakarlığa yol verir və ictimai şüuru aldatmağa çalışır. Əslində, Ermənistanın Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıması faktı 10 noyabr 2020-ci il Bəyanatına söykənir. Rəsmi İrəvan bu bəyanatı imzalamaqla işğal faktını da, Qarabağın Azərbaycanın tərkib hissəsi olduğu reallığını da təsdiqləmiş, bu gerçəkliyi etiraf etməyə məcbur olmuşdur. Müharibədən sonrakı dönəmdə təmas xəttində baş verən toqquşmalarda erməni diversantlarının qətiyyətlə məhv edilməsi, Qarabağdakı terrorçu qrupların önəmli bir hissəsinin zərərsizləşdirilməsi də İrəvanı Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımaq məcburiyyəti ilə üz-üzə qoymuşdur. Ermənistanın hazırkı ümidsiz vəziyyəti də bu tarixi-hüquqi reallığı təkzib etməyə imkan vermir. Bu isə o deməkdir ki, Ermənistan hakimiyyətində kimin təmsil olunmasından asılı olmayaraq, bu siyasi postda yer alan istənilən şəxsin Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımaqdan başqa yolu yoxdur. Şübhəsiz, Ermənistanın bu etirafa məcbur edilməsi Azərbaycan Ordusunun və diplomatiyasının uğurudur.

Bütün bu faktlar göstərir ki, "qoçaq" diplomat donunda zühur edən Oskanyanın Paşinyana qarşı bu cür ucuz ittihamlar səsləndirməsi absurddur və bu cəhdin hansısa konkret nəticəsi olmayacaqdır. Bundan başqa, Oskanyanın Paşinyanı "qorxaq" kimi dəyərləndirməsi xalqın gözündə sabiq xarici işlər nazirini cəsarətli etmir. Paşinyanın xalq tərəfindən seçildiyini nəzərə alsaq, söyləmək olar ki, erməni toplumu layiq olduğu hakimiyyətlə qovuşub və Oskanyan Nikolu "qorxaq" adlandırmaqla eyni ittihamı həm də erməni cəmiyyətinə ünvanlamış olur. Əslində, Oskanyan özü də bu cəmiyyətin üzvü kimi çətin ki, Paşinyandan cəsarətli olsun.

***Seymur ƏLİYEV***

# Laçın yolu bağlandı... BQXK-ya cinayət işi açıldı

## *Əvvəllər sülhməramlıların maşınlarında Ermənistandan Qarabağa silah-sursat, mina daşıyan haylar son vaxtlar BQXK-nın vasitəçiliyi ilə telefon, siqaret qaçaqmalçılığı ilə məşğul olurmuş*

**(əvvəli 1-ci səhifədə)**

İyulun 11-də Dövlət Sərhəd Xidmətinin (DSX) məlumatı yayılıb. Qeyd olunur ki, Ermənistanla dövlət sərhədində, Laçından Qarabağa gedən yolun başlanğıcında buraxılış məntəqəsi qurulandan Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus nəqliyyat vasitələrinin hərəkətinə lazımi şərait yaradılıb: “Lakin DSX-nın əməkdaşları BQXK-ya aid nəqliyyat vasitələrində qanunsuz yolla müxtəlif növ qaçaqmalın keçirilməsi cəhdlərini aşkarlayıb. İyulun 1-də “Reno” markalı nəqliyyat vasitəsinin salonunda əl yüklərinin arasında gizlədilmiş 15 ədəd mobil telefon; iyulun 3-də “UAZ” markalı nəqliyyat vasitəsinin salonunda əl yüklərinin arasında gizlədilmiş 115 ədəd mobil telefon ekranları, 10 ədəd mobil telefon platası, 120 ədəd mobil telefon üçün qida bloku, 1 ədəd ekran yapışqanı; iyulun 5-də “İveco” markalı yük nəqliyyat vasitəsinin salonunda 17 adda 848 qutu siqaret və ehtiyat yanacaq çənində gizlədilmiş 320 litr benzin, “DAF” markalı yük nəqliyyat vasitəsinin salonunda 5 adda 125 qutu siqaret və ehtiyat yanacaq çənində gizlədilmiş 1000 litr benzin aşkar olunaraq saxlanıb. Bu barədə əvvəllər də BQXK-ya xəbərdarlıq edilməsinə baxmayaraq qanunazidd əməllər təkrar olunub və onların aradan qaldırılması üçün zəruri addımlar atılmayıb.

DSX-nın məlumatında qeyd olunur ki, xəstələrin təxliyəsini həyata keçirən təcili tibbi yardım maşınlarından qaçaqmalçılıq məqsədilə istifadə edilməsi Azərbaycan qanunlarının kobud şəkildə pozulması faktları olmaqla yanaşı, həm də BQXK-ya olan etimaddan sui-istifadə cəhdidir. Yuxarıda göstərilən faktlarla əlaqədar cinayət işi açılıb və zəruri istintaq tədbirləri həyata keçirilənə qədər Laçın dövlət sərhədindən buraxılış məntəqəsindən keçid müvəqqəti dayandırılıb”. Məlumatda, həmçinin bildirilir ki, Ermənistan Respublikası ilə dövlət sərhədində Laçın nəzarət-buraxılış məntəqəsi fəaliyyətə başladığı tarixdən BQXK-ya məxsus nəqliyyat vasitələrinin dövlət sərhədindən hərəkətinə lazımi şərait yaradılıb. Onlar müvafiq qaydada sərhəd və gömrük nəzarətindən keçməklə dövlət sərhədindən buraxılıb. Bu zaman heç bir problem yaşanmayıb. Həmin vaxt karantin qaydalarına uyğun olaraq, respublikanın digər sərhəd qapıları vətəndaşlarımızın, eləcə də turistlərin üzünə bağlı qalıb və bu rejim hələ də qüvvədədir. Rəsmi Bakı humanistlik nümayiş etdirərək Qarabağ ermənilərinin hər iki istiqamətə hərəkətinə imkan yaratdı. BQXK-nın isə bölgədən İrəvana xəstələri daşımasına, özünün humanitar yüklərinin gətirilməsinə hər cür şərait yaratmışdı. İndi nə baş verdi?



* * *

Bəli, indi Bakı rəsmi şəkildə bəyan etdi ki, Laçın yolu bağlıdır! Səbəbi Azərbaycan DSX-nın beynəlxalq humanitar təşkilatın fırıldaqçı əməllərini, cinayətkar fəaliyyətini faktlarla, foto-video dəlillərlə sübuta yetirməsidir. Yuxarıdakı qaçaqmalçılıq faktları cəmi bir həftəlik müddəti əhatə edir. Həmin faktlarla əlaqədar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələri üzrə cinayət işi açılmış və zəruri istintaq tədbirləri həyata keçirilənə qədər Laçın buraxılış məntəqəsindən keçid müvəqqəti olaraq dayandırılır. Məlumatda o da qeyd olunur ki, bütün qaçaqmalçılıq faktları yerində əməliyyat çəkilişləri ilə sənədləşdirilib. BQXK Bakının rəsmi icazəsi olmadan suveren Azərbaycanın Qarabağ İqtisadi rayonunda – Xankəndi şəhərində özünə dəbdəbəli ofis açıb. Komitəçilərin həmin ofisdə hansı qeyri-qanuni “humanitar” fəaliyyətlə məşğul olduğunu, başqa nə kimi cinayət əməllərinə baş vurduğunu özlərindən və hay şəriklərindən savayı heç kim bilmir. BQXK-nın qaçaqmalçılıqla, o cümlədən korrupsiya ilə məşğul olması ilk dəfə deyil. Buna əmin olmaqdan ötrü bu beynəlxalq təsisatın yaxın tarixinə nəzər salmaq kifayətdir.

**ARAYIŞ:** *Beynəlxalq Qızıl Xaç Komitəsinin üzqarası sayılan dosyesindən – 2016-cı ildə Ukraynada BQXK-nın rəhbər şəxslərinin humanitar yardımları satması, qanunsuz yollarla pul qazanması, mənimsəmə halları ortaya çıxarılıb. 2017-ci ildə aparılan istintaq sübut edib ki, 10 mindən çox insanın həyatına son qoyan Ebola epidemiyası ilə mübarizəyə ayrılan vəsaitin 5 milyon dollarını BQXK əməkdaşları mənimsəyib. Komitəçilərin Syerra-Leonedə yerli bankirlərlə əlbir olub 2 milyon dollarlıq “sövdələşmə”yə getdikləri, Qvineyada isə saxta gömrük sənədləri ilə 1 milyon dolları mənimsədilkləri aşkarlanıb.*

### Ekspert rəyi

**Rasim MUSABƏYOV,**
**Milli Məclisin üzvü, politoloq**



Azərbaycan suveren ərazisini, şərti sərhədi tam nəzarət altına aldıqdan sonra hayların Ermənistandan Qarabağa bütün daşımaları, təbii olaraq, qanunsuz sayıldı. Ona qədər, yəni Laçın yoluna Rusiya sülhməramlılarının nəzarət etdiyi dövrdə həmin daşımalar onların müşayiəti ilə həyata keçirilirdi. Həmin vaxt heç bir sərhəd və gömrük nəzarətindən danışmağa dəyməzdi. O yolda əvvəllər bizim ekoloqlar dururdular və onların daşınan yüklərə nəzarəti həyata keçirməyə həm səlahiyyətləri, həm də imkanları vardı. Əlbəttə, ilk növbədə, silah-sursatın daşınmasının qarşısını alırdılar. Amma indi, sadəcə olaraq, yeni şəraitdə Bakı konkret tələb ortaya qoyur ki, təkcə Qarabağ iqtisadi rayonunda deyil, ümumiyyətlə, reapublikanın bütün ərazisində yük daşımaları Azərbaycanın gömrük, sərhəd norma və qaydalarına uyğun şəkildə həyata keçirilsin. Yəni elektrik enerjisi və qaz təminatı ilə bağlı əməliyyatlar, o cümlədən Rusiya sülhməramlıları üçün yük daşımaları Azərbaycanın rəsmi razılığı və nəzarəti altında reallaşmalıdır. Beynəlxalq Qızıl Xaç Komitəsinin qaçaqmalçılara şərait yaratması ciddi araşdırılacaq. Düşünürük ki, bu məsələlərdə Azərbaycanın daxili qayda-qanunlarına riayət edilməsi vacibdir. Əslində, qaçaqmalçılığın qarşısını sərhədçilər yox, gömrükçülər almalıdırlar.

BQXK-nın təcili və humanitar yardım maşınlarının Ermənistan vətəndaşları üçün reys avtobusu funksiyasını yerinə yetirməsi o qədər də təəccüblü deyil. Heyrət doğuran odur ki, əsas fəaliyyəti planetin humanitar böhran, təbii fəlakətlər, digər fövqəladə halların yaşandığı nöqtələrində ehtiyacı olanlara yardım etməkdən ibarət bu beynəlxalq təşkilat öz missiyasının tamamilə əksi ilə məşğul imiş. Özünün “humanitar qaçaqmalçılıq fəaliyyətini” Azərbaycanın Laçın yolunun üstündəki sərhəd-buraxılış məntəqəsində bütün çılpaqlığı ilə nümayiş etdirən BQXK bununla həm də bölgədə əsas niyyətinin haylara qucaq açaraq, onların cinayətlərinə şərik olduğunu isbatladı. Axı özünün əsasnaməsində göstərildiyi kimi, fəaliyyəti yeddi prinsipə – insanlıq, qərəzsizlik, neytrallıq, müstəqillik, könüllü xidmət, birlik və universallığa söykənən planetar təsisatın qanunazidd əməllərini indi hansı mizan- tərəzinin gözünə qoymaq lazımdır? Aca, xəstəyə, şikəstə, malından-mülkündən məhrum olana qucaq açmalı olan komitənin cinayətləri hansı məhkəmədə və hansı qanunlarla cəzalandırılmalıdır? Beynəlxalq Femidanın, yoxsa bəşəriyyətin yazılmamış qanunları ilə?

***İmran BƏDİRXANLI,***
***“Xalq qəzeti”***

# Deyəsən, haylar “dəmir yumruq” üçün darıxıblar

**(əvvəli 1-ci səhifədə)**

Məlumatda qeyd olunur ki, iyulun 10-da saat 17:10-dan saat 20:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Vedi rayonunun Arazdəyən, Qafan rayonunun Gığı yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Sədərək rayonunun Heydərabad və Ordubad rayonunun Nürgüt yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutublar. Bundan başqa, Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri ordumuzun Xocalı və Xocavənd rayonları istiqamətlərində yerləşən mövqelərinə də atıcı silahlardan bir neçə dəfə atəş açıblar. Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Eyni zamanda, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri ordumuzun Xocalı, Xocavənd və Kəlbəcər rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər. “Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb”, – Müdafiə Nazirliyinin məlumatında qeyd edilib.

* * *

Qeyd edək ki, iyulun 21-də Brüsseldə Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında növbəti görüşün keçirilməsi nəzərdə tutulub. Sonuncu dəfə isə iyunun 27-29-da ABŞ-ın Virciniya ştatının Arlinqton şəhərində iki ölkənin xarici işlər nazirləri – Ceyhun Bayramov və Ararat Mirzoyan arasında danışıqlar aparılmışdı. Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin yaydığı məlumatda qeyd olunurdu ki, nazirlər və onların heyətləri arasında “Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında” ikitərəfli saziş layihəsi üzrə danışıqlarda əlavə tərəqqiyə nail olunub. XİN bildirib ki, görüşdə saziş layihəsinin əlavə maddələri üzrə razılıq əldə edilib və layihə üzrə qarşılıqlı anlaşmaya doğru addım atılıb. Eyni zamanda, bəzi əsas məsələlər üzrə əlavə işin davam etdirilməsinə ehtiyac olduğu nəzərə çatdırılıb.



### Ekspert rəyi

**Şair RAMALDANOV,**
**ehtiyatda olan polkovnik**



– Azərbaycan dövlətinin apardığı siyasi işlər, diplomatik uğurlar, bütün dünyaya özünün haqq işini çatdırması, beynəlxalq qanunlara hörmətlə yanaşması ölkəmizə qarşı olan qüvvələrin də müəyyən aktivliyinə səbəb olub. Buna görə də biz son zamanlar görürük ki, atəşkəsin coğrafiyası genişlənib. Özü də əvvəllər atəşkəsin pozulmasının hansısa taktiki hədəfləri olurdu. Yəni, hansısa ərazinin, yaxud yüksəkliyin, mövqelərin ələ keçirilməsi məqsədi daşıyırdı. İndi isə bir görürük ki, atəşkəsin pozulmasının ərazi baxımından heç bir taktiki hədəfi yoxdur. Döyüş baxımından qarşıya heç bir hədəf qoyulmayıb. Hədəf, sadəcə, atəşkəsin coğrafiyasını genişləndirərək, burada vəziyyətin gərgin olduğuna dair fon yaratmaqdır. Bu fon isə bütün diplomatik proseslərə təsir edir. Zaman daralır. Azərbaycan praktiki addımlar atmaq üçün bu məsələləri konkret qoyur. Ən konkret qoyulan məsələlər isə, əlbəttə, qanunsuz erməni silahlılarının tərk-silah edilməsi və Azərbaycan ərazilərindən qovulması, həmçinin Zəngəzur dəhlizinin açılmasıdır. Bunlar Ermənistanın üçtərəfli Bəyanatla öz üzərinə götürdüyü öhdəliklərdir.

Bu gün dünyada Rusiya-Ukrayna müharibəsi fonunda Moskvaya qarşı olan qüvvələr var. Ancaq, təəssüf ki, bizim bölgəmizdə vəziyyətin gərgin qalmasında Rusiyaya qarşı olan qüvvələrin mövqeyi ilə rəsmi Moskvanınkı üst-üstə düşür. Rusiya, əlbəttə, sülhməramlı missiyasının müddətini uzatmaq üçün yollar axtarır. Müddəti uzatmaq üçün ona gərginlik, reinteqrasiyaya mane olmaq lazımdır. Rusiyaya qarşı olan qüvvələrə isə özlərinin buradakı maraqlarını təmin etmək üçün şərait lazımdır. Bu şərait isə gərginliyin olması deməkdir.

Qarabağda separatizmə son qoyulması və yaraqlıların tərk-silah edilməsi Azərbaycanın təhlükəsizlik məsələsidir. Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq öz təhlükəzliyinin təmin edilməsi istiqamətində addım ata bilər. Proseslər kulminasiya nöqtəsinə gəlib çata bilər. Bu zaman ya beynəlxalq ictimaiyyət Ermənistana təzyiq etməli, ya da Azərbaycan öz hüququndan istifadə edib “dəmir yumruğ”unu işə salaraq, öz ərazi bütövlüyünü, əhalinin və yaşayış məntəqələrinin təhlükəsizliyini təmin etmək məcburiyyətində qalmalıdır.

Ermənistan XİN də oxşar məzmunda açıqlama yayaraq qeyd etmişdi ki, nazirlər saziş layihəsinin daha bir neçə maddəsi üzrə razılığa gəliblər. Qarşılıqlı anlaşmada irəliləyiş qeydə alınıb, eyni zamanda, bir sıra əsas məsələlər üzrə mövqelərin əlavə iş tələb etdiyi qeyd olunub.

Hər iki tərəfin yaydığı bu məlumatlar qarşıdakı Brüssel görüşündə sülhün əldə olunması istiqamətində irəliyə doğru böyük addım atılacağına ümidlər yaradırdı. Ancaq indi – görüşə 10 gündən də az vaxt qaldığı bir zamanda Ermənistan tərəfinin Azərbaycan ərazilərini bir sıra istiqamətlərdən atəşə tutması heç də etimad yaradılmasına xidmət etmir. Əksinə, danışıqların pozulmasına yönəlib. İrəvanın “səyləri” nəticəsində yaradılan bu atmosferdə keçirilən görüş isə onun uğurlu olacağına inamı azaldır. Bu mənada hayların hazırkı yanaşması sülh quruculuğu yox, sülhə maneolma cəhdi adlandırıla bilər. Onlar yenə də sülh dialoquna pəl vurur, danışıqları dalana direyir və vasitəçilərin səylərini heçə endirirlər.

* * *

Ermənistan hökumətinin bu cür ziddiyyətli davranışı sualların yaranmasına səbəb olur. Belə çıxır ki, ya rəsmi İrəvan danışıqlarda səmimi deyil, ölkənin əvvəlki hakim rejimləri kimi danışıqlar prosesində imitasiya ilə məşğuldur, ya da baş nazir silahlı qüvvələrin ali baş komandanı kimi hərbçilər üzərində tam nəzarətə malik deyil. Bəzi ekspertlər güman edirlər ki, İrəvanla Bakı arasında münasibətlərin normallaşması və sülh sazişinin imzalanması istiqamətində əsas maneə Ermənistanda mərkəzi hakimiyyətin zəifliyidir. Çünki bəzi marginal qruplar, eləcə də üçüncü tərəfdən olan oyunçular Ermənistan hakimiyyətinin ölkə daxilindəki zəifliyindən istifadə edirlər. Onların fikrincə, barışıq prosesinin qarşısında ən böyük əngəl budur. Ancaq bu versiya az inandırıcı görünür. Bir neçə gün öncə “Azadlıq” radiosunun “İzahla” proqramının təşkil etdiyi Bakı-İrəvan debatında çıxış edən Regional Araşdırmalar Mərkəzinin direktoru, siyasi ekspert Riçard Kirakosyan da Ermənistanın mərkəzi hakimiyyətinin zəifliyi iddiası ilə qətiyyən razı olmadığını bildirmişdi: “Ermənistan hakimiyyəti müharibəni uduzandan sonra belə çoxluq tərəfindən yenidən seçilib. Mən düşünmürəm ki, belə mariginal qrupların Ermənistan hakimiyyətinə təsir imkanları var”. Bu mənada Paşinyanın danışıqların imitasiya prosesi ilə məşğul olduğunu söyləmək üçün əsaslar var. Elə qeyd etdiyimiz debatda Azərbaycanı təmsil edən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin xarici siyasət şöbəsinin müdiri Cavid Vəliyev də bu fikri səsləndirib: “Ermənistan vaxt udmağa, sülh prosesini uzatmağa çalışır. O mənada ki, regionda geopolitik durum Ermənistanın xeyrinə dəyişəndən sonra Azərbaycanla sülhün şərtlərini müzakirə etsinlər. Onlar fikirlərində qəti olduqlarına dair aydın bəyanatlar verməlidirlər. Biz istəyirik ki, Ermənistan Qarabağ erməniləri üçün beynəlxalq mexanizm tələb etməyi dayandırsın. Çünki Azərbaycan Prezidenti, rəsmi şəxsləri dəfələrlə bəyan ediblər ki, ölkə Konstitusiyası və qanunları Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinə təminat verir”.

Ermənistanda olmasa da, Qarabağdakı hayların regionda suların durulmasını istəməyən başqa qüvvələrin əlində tarixən və indi də alət olması heç kim üçün sirr deyil. Elə Qarabağdakı yaraqlı erməni separatçılarının növbəti dəfə Rusiya sülhməramlılarının nəzarətində olan ərazidən ordumuzun mövqelərini atəşə tutması bunun bariz nümunəsidir. Burada sülhməramlı adlanan qüvvənin öz missiyasına uyğun davranmadığını xüsusi vurğulamaq lazımdır. Onlar necə sülh yaradırlar ki, nəzarət etdikləri ərazidən separatçılar bizim mövqelərimizi atəşə tuturlar? Bu gərginliyin Rusiyanın qısqanclıqla yanaşdığı danışıqların Brüssel platformasının növbəti raundu ərəfəsində baş verməsi də təsadüfi sayılmamalıdır.

İyunun 28-də Qarabağda baş vermiş hadisə də daxil olmaqla son dövrlərdə baş verən insidentlər, o cümlədən iyulun 10-da mövqelərimizə atəş açılması Ermənistan ordusunun tör-töküntülərini suveren ərazimizdən çıxarmaq niyyətində olmadığından xəbər verir. Bu isə Azərbaycan Ordusu tərəfindən anti-terror əməliyyatının keçirilməsini zəruri edir. Bakıya başqa çıxış yolu qoymayan separatçıların növbəti “Qisas” əməliyyatı üçün darıxdığı şübhəsizdir. Bu seçimi haylar özləri bizə buraxırlar. Və bundan sonra baş verənlərə görə yalnız özlərindən və onlara qıl verənlərdən küsməlidirlər.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

# "Şahdəniz" yatağı: Azərbaycan qaz sənayesinin şöhrət tacı

## *Ötən 17 ildə bu yataqdan 196 milyard kubmetr qaz çıxarılıb*

*(əvvəli 1-ci səhifədə)*

Ümummilli lider Heydər Əliyev bu əlamətdar hadisə münasibətilə neftçiləri və ölkə ictimaiyyətini təbrik edərək deyib: "Şahdəniz" yatağı Azərbaycanın Xəzər dənizindəki sektorunda, demək olar ki, ən böyük və ən zəngin neft və qaz yataqlarından biridir... "Şahdəniz" konsorsiumunun prezidentinin və başqa natiqlərin burada verdikləri məlumatlar bizi həddən artıq sevindirir və güman edirəm ki, bu, dünya miqyasında böyük bir hadisəyə çevriləcəkdir".

Xatırladaq ki, "Şahdəniz" yatağı uzun illərdir ki, Azərbaycanın və Avropanın enerji təhlükəsizliyinin təminatına mühüm töhfələr verir. Burada qazma işlərinə 1990-cı ildə başlanılsa da, vəsait çatışmazlığı səbəbindən işlər yarımçıq dayandırılıb. Yalnız 1996-cı ilin iyun ayında Bakıda "Şahdəniz" qaz-kondensat yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair saziş imzalandıqdan sonra neft ölkəsi kimi tanınan Azərbaycan, eyni zamanda, iri qaz təchizatçısı kimi də dünyanın maraq dairəsinə daxil olub. Bu saziş dünyanın transmilli neft şirkətlərinin "Əsrin müqaviləsi"nin imzalanması ilə təməli qoyulmuş Azərbaycanın yeni neft strategiyasının hədəflərinin dəqiqiliyinə inamı bir qədər də artırıb.

Məlumat üçün bildiririk ki, "Şahdəniz" yatağı Bakıdan 70 kilometr cənub-şərqdə, suyun dərinliyinin 50-600 metr arasında dəyişdiyi ərazidə yerləşir. Dünyanın ən böyük qaz-kondensat yataqlarından biri sayılan "Şahdəniz"in sahəsi 140 kvadratkilometrdən çoxdur. Bu həm də layihənin operatoru olan BP şirkətinin kəşf etdiyi ən böyük qaz yatağıdır. Belə ki, "Şahdəniz" yatağının təsdiqlənmiş ehtiyatı 1 trilyon kubmetr qaz və 240 milyon ton kondensatdan ibarətdir. Bu da Azərbaycanın qaz potensialının, təxminən, 50 faizini təşkil edir.

"Şahdəniz-1" layihəsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin fevral ayında start verilib. Bu mərhələdə suyun 105 metr dərinliyində 15 quyunun qazılması üçün nəzərdə tutulmuş nəhəng hasilat, qazma və yaşayış platforması inşa olunub, hər biri 100 kilometr uzunluğunda olan iki sualtı boru kəməri çəkilib. "Şahdəniz" yatağından həmin kəmərlər vasitəsilə nəql olunan qaz və kondensatın qəbulu üçün Səngəçal terminalında lazımi infrastruktur yaradılıb. Bundan əlavə, "Şahdəniz" qazının Gürcüstana və Türkiyəyə ixracını təmin etmək məqsədilə 690 kilometrlik Cənubi Qafqaz boru kəməri tikilib istismara verilib.

2013-cü il dekabrın 17-də isə konsorsium iştirakçıları tərəfindən "Şahdəniz-2" layihəsinin işlənməsi üçün yekun investisiya qərarı qəbul olunub. Bununla da,



"Şahdəniz" qaz hasilatı və ixracı layihəsi həlledici mərhələyə qədəm qoyub. Bu qərar Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin ixrac gücünə ildə 16 milyard kubmetr əlavə olunması (Azərbaycanda 48 düyməlik yeni boru kəməri, Gürcüstanda isə iki kompressor stansiyası), Türkiyə ərazisindən keçən Trans-Anadolu qaz boru kəmərinin (TANAP) və Yunanıstan, Albaniya ərazisindən keçərək İtaliyaya uzanan Trans-Adriatik boru kəmərinin (TAP) tikintisi ilə bağlı planların gerçəkləşməsinə imkan yaradıb.

"Şahdəniz-2" layihəsi çərçivəsində mövcud platformaya körpü ilə birləşdirilmiş iki yeni hasilat platforması inşa olunub, suyun 550 metrədək dərinliyi ilə 500 kilometr uzunluğunda sualtı boru kəmərləri çəkilib, Cənubi Qafqaz boru kəmərinin ixrac imkanlarının artırılması məqsədilə Azərbaycanda 48 düyməlik yeni boru kəməri, Gürcüstanda isə ildə daha16 milyard kubmetr qazın qəbulu üçün iki kompressor stansiyası tikilib, Səngəçal terminalında əlavə genişləndirmə işləri aparılıb.

"Şahdəniz" yatağının ikinci mərhələsi üzrə hasilata 2018-ci ildə başlanılıb. Bütövlükdə isə, hasilata başlanıldığı 2007-ci ilin əvvəlindən 2023-cü il iyulun 1-dək "Şahdəniz" yatağından təqribən 196 milyard kubmetr qaz çıxarılıb. Bunun da 58 milyard kubmetri Azərbaycanın daxili bazarında istifadə olunub. Energetikamızın incisi sayılan "Şahdəniz" yatağı indən belə daha 100 il Azərbaycan və tərəfdaş ölkələr üçün əsas tədarük bazası olacaq.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



"Şahdəniz" yatağının Azərbaycan üçün əhəmiyyətli olduqca böyükdür. Hər şeydən əvvəl qeyd edək ki, ötən əsrin 90-cı illərinin əvvəlində Azərbaycan müstəqilliyini əldə edən zaman, ölkədə il ərzində təqribən 7,5 milyard kubmetr qaz hasil olunurdu. Ancaq ondan 10 il öncə, yəni 80-ci illərin əvvəlində respublikamızda illik qaz hasilatı 15 milyard kubmetrdən çox idi. Göründüyü kimi, sonrakı 10 il ərzində qaz hasilatı təqribən iki dəfə azalmışdı. Bu səbəbdən də SSRİ dağılanda Azərbaycan qaz idxal edən ölkə olmuşdu.

2000-ci illin sonundan biz Rusiyadan qaz idxalına başladıq. Azərbaycan ilk əvvəllər ildə 2 milyard kubmetr qaz idxal edirdisə, sonrakı illərdə bu rəqəm 4,5 milyard kubmetrə çatdı. Yəni 2005-2006-cı illərdə biz 4,5 milyard kubmetr qaz idxal edirdik. Əgər "Şahdəniz" yatağı olmasaydı, biz bugünədək də qaz idxal edəcəkdik. Eyni zamanda, Dövlət Neft Şirkəti üzrə hasilatın aşağı düşdüyü indiki şəraitdə (illik hasilat 5 milyard kubmetr) 13 milyard kubmetrlik illik daxili tələbatımızın 8 milyard kubmetrini idxal qazı hesabına təmin etmək məcburiyyəti qarşısında qalacaqdıq. Həmin qazı isə ya Rusiya, ya da İrandan almalıydıq ki, bu variantların da hər ikisinin öz çətinlikləri var. Yaxud da Rusiyadan il ərzində idxal edəcəyimiz 8 milyard kubmetr qaza görə mövcud qiymətlərlə (təqribən min kubmetri üçün 160 dollar ) 1,2 milyard dollar xərcləyəcəkdik. Bu da olduqca böyük məbləğdir.

"Şahdəniz" yatağının istismara verilməsi ilə Azərbaycan dünyanın potensial qaz ixracatçısına çevrilməklə yanaşı, ölkə sənayesinin qazlaşdırılması üçün də imkan yarandı. Ötən müddətdə Azərbaycan metanol, karbomid, eləcə də bir sıra qaz-kimya zavodları kimi sənayedə əlavə dəyər yaradan sahə əldə etdi. Əgər həmin müəssisələr idxal qazı hesabına işləsəydi, istehsal olunan məhsullar baha başa gəldiyindən rəqabət qabiliyyətli olmayacaqdı. Yeri gəlmişkən, hazırda öz qazımız hesabına istixanalarda yetişdirdiyimiz tərəvəz məhsullarının xeyli hissəsini Rusiya bazarına ixrac etməkl ölkəmizə xeyli məbləğdə valyuta gətiririk.

Bu gün Azərbaycan "Şahdəniz" qazının ixracı üçün dünyanın ən uzun enerji dəhlizinə malikdir. Belə ki, hazırda 3500 kilometrlik Cənub Qaz Dəhlizi Bakıdan İtaliyaya qədər uzanmaqla Azərbaycanı birbaşa olaraq Avropa İttifaqı ilə bağlayır. Bu da ölkəmizin etibarlı enerji tərəfdaşı kimi mövqeyini xeyli gücləndirib. "Şahdəniz" layihəsi ölkəmizə xarici kapitalın axınını xeyli sürətləndirdi. Məlum olduğu kimi, sözügedən layihənin birinci mərhələsinə 5,5 milyard dollar vəsait qoyulmuşdursa, növbəti mərhələ çərçivəsində xərclənmiş kapitalın həcmi 24 milyard dollar təşkil edib. Bura kəmərlərin çəkilişinə sərf olunmuş vəsait daxil deyil. Sonda onu da qeyd etmək istəyirəm ki, "Şahdəniz" layihəsi XXI əsr ərzində faktiki olaraq Azərbaycanın qaz ixracının əsas resurs bazası kimi qalacaq. Çünki orada hələ 1 milyard kubmetr qaz var...

# Azərbaycan Macarıstana 100 milyon kubmetr qaz ixrac edəcək

**Energetika naziri Pərviz Şahbazov ilə Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto arasında görüşdə Azərbaycan ilə bu ölkə arasında ikitərəfli və çoxtərəfli əsasda enerji tərəfdaşlığının inkişafından ətraflı danışılıb, təbii qaz və "yaşıl enerji"nin tədarükü üzrə fikir mübadiləsi aparılıb.**



Görüşdə "Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq sazişi, "Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın ötürücü sistem operatorları və SOCAR arasında əməkdaşlığa dair Anlaşma Memorandumu", həmçinin "SOCAR" ilə "MVM CEEnergy Zrt." arasında 100 milyon kubmetr həcmində təbii qazın satışına dair müqavilə"nin icra vəziyyəti nəzərdən keçirilib.

Müzakirə zamanı Macarıstana qaz təchizatının ilin sonuna kimi başlanacağı bildirilib. Azərbaycandan Avropaya qaz tədarükünün artırılması üçün infrastrukturun inkişafı ilə bağlı proseslərin sürətləndirilməsinin vacibliyi vurğulanıb. Söhbət zamanı Xəzər dənizində "yaşıl enerji"nin istehsalını, bu enerjinin ötürülməsi üçün müxtəlif xətlərin, Qara dənizin dibi ilə kabelin çəkilməsini, bazarlara çatdırılmasını əhatə edən "yaşıl enerji" dəhlizi layihəsinin texniki-iqtisadi əsaslandırması və digər zəruri tədbirlərlə bağlı geniş fikir mübadiləsi edilib.

# Tezliklə "Qızılca" yatağının istismarına başlanacaq



**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən (QSC) aldığımız məlumata əsasən, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin yerin təkindən istifadə ilə bağlı keçirdiyi hərracda QSC qalib gələrək Göygöl rayonunda yerləşən "Qızılca" plagioporfir (tikinti daşı) yatağından istismar hüququ qazanıb.**

Qeyd edək ki, 12 hektarda faydalı qazıntı yatağının istismar müddəti 25 il nəzərdə tutulub.

"Azərbaycan Dəmir Yolları"nın faydalı qazıntı yatağından yenidən istifadə hüququ qazanması yeni və bərpaolunan dəmir yolu xətlərinin tikintisi zamanı ballast materialları ilə təminatda müstəsna əhəmiyyət kəsb edəcək.

**"Xalq qəzeti"**

# Ələt Azad İqtisadi Zonası fəaliyyətini genişləndirir

## *Burada investisiya dəyəri 211 milyon dollar olan yeni zavodda 300-dən çox iş yeri yaradılacaq*

**İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Azərbaycan İnvestisiya Şirkəti" ASC (AİŞ) və Macarıstanın "Hell Energy" şirkəti arasında Birgə İştirak Müqaviləsi imzalanıb. Nazirlikdən verilən məlumata əsasən, tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov layihənin ölkələrimizin biznes dairələrinin əməkdaşlığının gücləndirilməsinə, Azərbaycanda qeyri-neft sektorunun davamlı artımına, yerli istehsala və məşğulluğun təmin edilməsinə töhfə verəcəyini qeyd edib.**



Nazir, eyni zamanda, qarşılıqlı səmimi münasibətlərə əsaslanan Azərbaycan–Macarıstan əlaqələrinin yüksələn xətlə inkişaf etdiyini, iqtisadi-ticarət əməkdaşlığının genişləndiyini, həmçinin bu ölkə ilə ticarət, sənaye, enerji, o cümlədən bərpaolunan enerji, investisiya və digər istiqamətlər üzrə əməkdaşlığın inkişafı üçün böyük perspektivlər olduğunu bildirib. Mikayıl Cabbarov çıxışında Ələt Azad İqtisadi Zonasının imkanlarının yerli və xarici iş adamları, o cümlədən Macarıstan investorları üçün geniş imkanlar açdığını bildirərək, bundan sonra da yeni birgə layihələrin həyata keçiriləcəyinə əminliyini diqqətə çatdırıb.

Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto Azərbaycanın etibarlı tərəfdaş olduğunu vurğulayaraq, iki ölkə arasında siyasi–iqtisadi əlaqələrin davamlı inkişafının, işgüzar dairələr arasında tərəfdaşlığın, birgə layihələrin həyata keçirilməsinin önəmini vurğulayıb, əməkdaşlığın müxtəlif istiqamətlər üzrə gücləndirilməsi barədə fikirlərini bildirib.

Azərbaycanın İnvestisiya və Macarıstanın "Hell Energy" şirkətləri arasında imzalanan Birgə İştirak Müqaviləsinə görə, Ələt Azad İqtisadi Zonasının ərazisində Avropa ölkələrinin qabaqcıl texnologiyalarına əsaslanan, illik istehsal gücü 700 milyon ədəd alüminium içki qutusu təşkil edəcək (ilkin mərhələdə illik doldurma gücü 415 milyon ədəd alüminium içki qutusu) yeni zavodun tikintisi nəzərdə tutulur. İnvestisiya dəyəri 211 milyon dollar olan layihə çərçivəsində 300-dən çox iş yerinin yaradılması planlaşdırılır.

Birgə müəssisənin Azərbaycan tərəfindən həmtəsisçisi olan "Azərbaycan İnvestisiya Şirkəti" ötən dövrdə sənaye, kənd təsərrüfatı, əczaçılıq, logistika və qida sənayesi sahələrində reallaşdırılan layihələrdə payçı qismində iştirak edib. Xatırladaq ki, sənaye sahəsində dəyəri 300 milyon avroya çatan və quru istehsal texnologiyasına əsaslanan yeni sement müəssisəsi, ümumi dəyəri 470 milyon ABŞ dolları olan Bakı Gəmiqayırma Zavodu səmərəli fəaliyyəti ilə daim diqqət çəkib.

Bakı Gəmiqayırma Zavodu yeni gəmilərin və iri tonnajlı tankerlərin tikintisi və təmiri üzrə Xəzər dənizi hövzəsində ən müasir müəssisədir. Artıq burada bir sıra gəmilər, o cümlədən "Xankəndi" sualtı tikinti gəmisi inşa edilərək istifadəyə verilib. Dünyada yalnız 10 ədəd olan və mürəkkəb mühəndislik həlləri tələb edən "Xankəndi" gəmisinin tikintisinin Azərbaycanda reallaşdırılması ölkəmizin bu sahədə mühüm uğurudur.

Qazaxıstanda yerləşən Azərbaycanın xarici ölkədəki ilk Logistika Mərkəzi, "Milk-Pro" zavodu, "Səba" və "Azərtoxum" müəssisələri, "Xəzər Beynəlxalq İnvestisiya Şirkəti" QSC də AİŞ-in payçı olduğu layihələrdəndir.

Ələt Azad İqtisadi Zonasına gəldikdə isə qeyd edə bilərik ki, 2017-ci ildə Ələt Azad İqtisadi Zonasının yaradılması barədə qərar və bundan bir il sonra müvafiq qanun qəbul edilməsi ilə bu sahədə real addımların atılmasına başlanılıb. 2021-ci il iyulun 1-də Prezident İlham Əliyevin iştirakı ilə sözügedən iqtisadi məkanın təməli qoyulub. Cari il iyunun 9-da isə Ələt Azad İqtisadi Zonasının birinci mərhələsi istifadəyə verilib. Azərbaycanın iqtisadi həyatı üçün son dərəcə əlamətdar hadisə sayılan bu tədbirdə dövlətimizin başçısının iştirakı ölkəmizdə iqtisadi inkişafa göstərilən dövlət qayğısının bariz nümunəsi kimi diqqət çəkib və Təsadüfi deyil ki, iqtisadi zona ölkə rəhbərinin Azərbaycanı beynəlxalq səviyyədə rəqabətədavamlı və dayanıqlı, şaxələndirilmiş və ixracyönümlü iqtisadiyyata malik bir ölkə kimi inkişaf etdirməyə yönəlmiş siyasətinin real təməli kimi dəyərləndirilib.

Prezident İlham Əliyevin "Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 25 avqust 2022-ci il tarixli sərəncamında adıçəkilən iqtisadi zonanın ərazisi qismində müəyyənləşdirilən torpaq sahəsinin dövlət mülkiyyətinə aid 60 hektar təşkil edən hissəsinin birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə səlahiyyətli quruma verilməsi öz ifadəsini tapıb.

Ələt Azad İqtisadi Zonası daha çox nəqliyyat, logistika zonasının formalaşmasına xidmət edir. İnvestisiyaların cəlb olunması burada əsas hədəf olaraq nəzərdə tutulur. Belə bir iqtisadi zonanın yaradılması isə Azərbaycanın tranzit ölkə olaraq öz imkanlarını genişləndirməyə şərait yaradır və ölkə ərazisinə daha çox yükdaşımaların artırılmasını şərtləndirir.

İqtisadi zona dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin, habelə investisiyaların artımasına, ehtiyatda olan məhsulların bir qisminin daxili bazara çıxarılmasına, idxaldan asılılığın aradan qaldırılmasına, bir sözlə, Azərbaycan iqtisadiyyatının inkişafına da müsbət təsir göstərib.

Xatırladaq ki, bu gün əcnəbi hüquqi və fiziki şəxslərin iqtisadi zonada mülkiyyət sahibi olmasına heç bir məhdudiyyət qoyulmur, burada investorların əmlakı heç bir halda milliləşdirilmir, bilməz zonanın səlahiyyətli qurumu investorların əmlakının bu və ya digər məhdudiyyətlərdən, eləcə də onların əqli mülkiyyət hüquqlarının tam qorunmasına təminat verir.

Azərbaycanın Şimal–Cənub və Şərq–Qərb beynəlxalq nəqliyyat dəhlizləri üzərində yerləşməsi yeni liman üçün zəngin tranzit potensialı yaratmaqla ölkəyə daxil olan və ölkədən çıxan, habelə tranzit yüklərin aşırılmasında strateji nəqliyyat qovşağı funksiyalarını yerinə yetirməyə imkan verərək Xəzər dənizindən səmərəli, sürətli və təhlükəsiz bərə keçidini təmin edəcək. Bu kompleks Bakı–Tbilisi–Qars dəmir yolu xətti üçün birbaşa yükcəmləyici məntəqə funksiyasını yerinə yetirəcək. Beləliklə, Şimal, Cənub, Şərq və Qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınlarının yeni liman kompleksində cəmlənərək buradan Bakı–Tbilisi–Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə Şərq istiqamətində nəqlini təmin edən səmərəli və dayanıqlı logistik zəncirin formalaşdırılması üçün zəmin yaranacaq.

**Vaqif BAYRAMOV,**
**"Xalq qəzeti"**

Diaspor fəalları

# “MİRAS” Azərbaycanı tanıdır

**O, repressiya qurbanı olan maarifçi ziyalı Mirzə Nəsrulla Əmirbəyovun nəslinin davamçısıdır. Bir zaman Bəktaşilər və yeniçərlər Naxçıvana gələndə məhz Mirzə Nəsrulla bəy onları qarşılayıb, öz mülkündə yerləşdirib. Sonralar həmin mülk qızlar üçün məktəbin istifadəsinə verilib.**





Əmirbəyov Naxçıvan Milli Şurasınn Müdafiə Komitəsinin sədri olub. Azərbaycan tarixinə, mədəniyyətinə, təhsilinə töhfələr verib, müstəsna xidmətlər göstərib. Bu gün isə onun nəticəsi Nigar Helmi Abbasbəyli milli incəsənətimizin miraslarını qoruyub saxlayan, öz fırçasının məhsulları ilə zənginləşdirib dünyada tanıdan bir ziyalıdır.

Nigar xanım Azərbaycan Rəssamlar İttifaqının üzvü, UNESCO-nun nəzdində Beynəlxalq Profesional Rəssamlar Ittifaqının üzvü (IAA/AIAP), "Miras" qrupunun yaradıcısı və kreativ direktorudur.

Bakıda anadan olub. Mədəniyyət və İncəsənət Kollecindən sonra Xəzər Universitetinin beynəlxalq jurnalistika və ingilis dili filologiyası və tərcüməçiliyi fakültəsini, həmçinin Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirsə də, rəssamlıq onun əsas fəaliyyət sahəsi olaraq qalır.

Nigar Helminin son silsilə əsərləri Qarabağ mövzusuna həsr olunub. Azərbaycanı tanıtmaq naminə açdığı sərgilər dünyanın ən mötəbər salonlarında əcnəbi sənətsevərləri heyran edib. "Gövhər Ağa məscidi", "Bülbül evinin xarabalıqları", "Pənahəli xan sarayının xarabalıqları" və "Varəzgün məbədi" kimi məşhur əsərləri “Assosiasiya des Artistes Contemporains de Turquie à Paris” və "ART EXPO NEW YORK" tərəfindən təşkil olunmuş "Art3f Monaco Beynəlxalq Müasir İncəsənət Sərgisi" kimi məkanlarda diqqət çəkib.

"Miras" brendini yaratması Nigar Helminin öz sənətkarlığını yaradıcı təşəbbüslərlə birləşdirmək amalına xidmət edir. Son iki ildə Monako, Nyu-York, Paris, İstanbul kimi şəhərlərdə seyrçiləri özünün rənglər aləmi ilə yaxından tanış edib. Sonuncu sərgisi “Qarabağın Mirası” adı ilə bu ilin aprelində Ankarada uğur qazanıb.

Onunla söhbətimizin bəzi məqamlarını oxuculara təqdim edirik:

**– Nigar xanım, sizin əsərlərinizdə güclü milli kolorit hiss olunur. Dünya miqyaslı bir sıra salonlarda öz yaradıcılığınızla, milli mövzulu sərgilərinizlə Azərbaycanı tanıdırsınız. Azərbaycan mədəniyyət, incəsənət, mübarizlik, qəhrəmanlıq məkanıdır. Xəzər adlı nazlı gözəldən isə ilham alırıq, əcnəbilər də bizdən əxz edirlər...**



– Elədir. Xəzər dənizi ruhumuzun bir parçasıdır. Mənəvi qida mənbəyimiz, ilham qaynağımızdır. Mənim ev studiyamın bir divarı tamamilə şəffafdır və dənizi görərək, ona baxaraq bəzən səhərə qədər işləyirəm, kətan üzərində rəsmlərimi ərsəyə gətirirəm. Onu da qeyd edim ki, Qarabağla bağlı yaratdığım əsərlərin ilk şahidi də məhz Xəzərdir. Mən səhərə qədər “Bayatı-Şiraz” muğamını dinləyərək, “Qarabağın mirası” sərgisini çox qısa müddətdə hazırlayıb ərsəyə gətirmişəm.

**– Siz “Miras” brendinin təsisçisi, yaradıcı direktorusunuz. Rəsmlərinizlə bərabər, burada yaratdığınız zinət əşyalarının hər birinin xüsusi, özəl motivləri var.**

– Sual yarana bilər ki, bir rəssamın birdən-birə zinət əşyaları ilə məşğul olmasına səbəb nədir. Bunun kiçik bir tarixçəsi var. Mənim bacım 15 ildən çoxdur ki, vətəndən uzaqlarda yaşayır. İkinci Qarabağ müharibəsi zamanında bir gün mənə zəng etdi ki, orada hədiyyə axtarırmış. Məşhur bir mağazada bir qab görüb. Baxıb ki, qabın üzərindəki cizgilər sırf Təbriz motivləridir. Məlumat üçün ona deyiblər ki, bu qab guya üzdəniraq qonşularımıza məxsusdur.

Bacım bunu mənə böyük ürək yanğısı ilə danışdı. Dərhal öz-özümə düşündüm ki, bu yöndə işlər görmək, milli irs nümunələrimizin qorunmasına kömək etmək lazımdır. Çox qısa müddətdə həmin “Miras” adlı bu markanı yaratmaq və onu bütün dünya ictimaiyyətinə təqdim etmək qərarına gəldim.

**–Bu markanın və bu məhsulların özəllikləri nədir?**

– Bilirik ki, Şuşa bizim tarixi mədəniyyət mərkəzimizdir, incimizdir. Hazırladığım kolleksiyanın bir nümunəsində – sırğada Xarıbülbül və onun aşağısında sallanan zəncirlər var. Zəncirlərdən xüsusi təyinatlılarımız Şuşa alınan zaman Cıdır düzünə qalxmaq üçün istifadə ediblər. Beləliklə, yeni zinət əşyası Şuşanı bizə qaytaran cəsur oğullarımızın hünərini təcəssüm etdirir. Bax, bu zəncirlər o qəhrəman oğullarımızı, bu qaşlar isə onların ayağının altındakı sıldırım qayaları əks etdirir.

**– Belə işlərdən əsas məqsəd, şübhəsiz, maddi deyil, mənəvi qazanc əldə etməkdir, eləmi?**

– Əlbəttə, mən “Qarabağ” kolleksiyamda Şuşada dahi bəstəkarımız Üzeyir Hacıbəylinin və Natəvanın dağıdılmış ev-muzeylərinin təsvirini də vermişəm. Bu kolleksiyanı dünyada gəzdirməkdə məqsədim erməni barbarlığını göstərməkdir. Bu yaxınlarda Ankarada, Prezident iqamətgahında keçirilən sərgimiz Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə–Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Vəqfinin, eləcə də Azərbaycan Evinin rəhbəri, professor Aygün Attarın, illər öncə ulu öndər Heydər Əliyev və İhsan Doğramacı tərəfindən yaradılan Türkiyə–Azərbaycan Dayanışma İş Birliyi Vəqfının xüsusi dəstəyi ilə baş tutdu və öz mahiyyəti ilə yadda qaldı. Orda 20 əsər nümayiş olundu. Hamısı da oğru xislətli ermənilərə tutarlı cavab idi. Məhz bu səbəbdən həmin kolleksiya ilə dünyanı gəzirəm.

Nigar xanım sonra dedi ki, bir müəllif kimi, ondan ötrü “Qarabağ” kolleksiyası xüsusi önəm daşıyır. Böyüklərimiz, aidiyyəti qurumlar uyğun bilsələr, onu Şuşaya, istərsə də Qarabağın başqa şəhərinə tamamilə təmənnasız hədiyyə etmək istəyir. Elə buna görə də bu nümunələr satılmır.

Bir də onu dedi ki, ölkəmizə Xəzər dənizinin bir damlası qədər olsa belə, xeyir verməyi səadət sayır Nigar xanım.

**Söhbəti apardı:**
**Fəxriyyə Lilpar İSAYEVA**

Şeir–sənət bayramı

**Heydər Əliyev Fondu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə sabahdan ənənəvi Vaqif Poeziya Günləri başlayır. Əvvəlki illərdən fərqli olaraq, bu il Poeziya Günləri iyulun 13-də Molla Pənah Vaqifin doğma şəhəri – Qazaxın Yuxarı Salahlı kəndindən start götürəcək. İyulun 14–15-də isə Vaqif Poeziya Günləri mədəniyyət paytaxtımız Şuşada davam edəcək.**

# Sabah Qazaxda Vaqif Poeziya Günləri start götürəcək



Azərbaycan Yazıçılar Birliyinin yaradıcılıq məsələləri üzrə katibi İlqar Fəhmi “Xalq qəzeti”nə açıqlamasında bildirib ki, bu il Şuşa şəhərinin türk dünyasının mədəniyyət paytaxtı elan olunması amili də poeziya günlərində nəzərə alınacaq. Belə ki, builki Vaqif Poeziya Günlərinin konsepsiyası ümumtürk məzmununda təqdim ediləcək. Bu məqsədlə türk ölkələrindən çoxsaylı qonaqlar çağırılıb.

Tədbirlərdə bütün türk dünyasından olan ziyalılar, şairlər, yazıçılar, mədəniyyət xadimləri iştirak edəcəklər. Bədii hissədə Əlişir Nəvai, Yunus Əmrə və başqa türk dünyası dahilərinin yaradıcılığından bəhs ediləcək, poeziya gecəsi və elmi konfransların hər birində Vaqif və türk dünyası kontekstindən çıxış ediləcək.



Poeziya günlərinin türk dünyası ilə əlaqələndirilməsi təkcə Şuşa şəhərinin türk dünyasının mədəniyyət paytaxtı elan olunması ilə bağlı deyil. Vaqif dövründə ədəbiyyatımızın fars təsirindən çıxıb türkdilli ədəbiyyat kimi formlaşmağa başlaması və Vaqifin bunda danılmaz pay sahibi olması faktı da bu qərarın verilməsində rol oynayıb.

Qeyd edək ki, bu il anadan olmasının 100 illiyi qeyd edilən ümummilli lider Heydər Əliyevin iştirakı ilə 1982-ci il yanvarın 14-də Şuşada Molla Pənah Vaqifin məqbərəsinin və Poeziya Evinin təntənəli açılışı olub. Məhz bu səfər çərçivəsində ulu öndər Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verib. Müasir Azərbaycan ədəbiyyatı tarixində öz bənzərsizliyi ilə seçilən Vaqif Poeziya Günləri həmin tarixdən etibarən 1991-ci ilədək hər il şairin vətəni Qazaxdan başlayıb, Şuşanın əsrarəngiz Cıdır düzündə yekunlaşardı.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun zəfəri nəticəsində Şuşa şəhəri erməni işğalından azad edildikdən sonra 41 illik tarixi olan Vaqif Poeziya Günləri yenidən öz yurdunda – mədəniyyət paytaxtımızda keçirilməkdədir.

**Rüfət MƏHƏRRƏMOV**

Tarixdə bu gün

# “Sarı gəlin” kim olub?

**Məşhur “Sarı gəlin” mahnısının Ağqoyunlu hökmdarı Uzun Həsənin xanımı, Azərbaycanın əfsanəvi gözəli, Ağqoyunluların məhdi-ülyası, tariximizin ikinci diplomatik müdrik qadını Dəspinə Xatuna həsr olunduğunu bilirdinizmi?**



Deyilənə görə, toy mərasimində bu mahnını bir aşıq onun üçün oxuyur. Mahnıdakı “Sarı gəlin” sözü də məhz “Saranın gəlini” mənasını ifadə edir.

Gözəlliyi ilə aləmə nur saçan, adına dastanlar yazılan bu xanım 1438-ci ildə Türkiyənin Trabzon vilayətində dünyaya göz açıb. Əsl adı Teodora olan Dəspinə xatun sonuncu Bizans kralı IV İohanın qızı olub. Sultan II Mehmet Fateh Konstantinopolu fəth edərkən o, İstanbul sarayına gətirilir. 1458-ci ildə Trabzon imperatorluğunun süqutundan öncə Ağqoyunlu hökmdarı Uzun Həsən ilə diplomatik evlilik adı altında ailə quraraq Diyarbəkir sarayına aparılır.

Bu izdivacdan Ağqoyunluların gələcək şəhzadəsi Sultan Yaqub və Aləmşahbəyim dünyaya gəlir. Lakin bu xoşbəxtlik uzun sürmür. 1461-ci ildə osmanlı tayfaları Ağqoyunluların Qara dənizə olan çıxışını həmişəlik bağlamaq üçün Trabzon vilayətinə yürüş edir. Dəspinə xatun Uzun Həsəndən xahiş edir ki, heç olmasa ailəsini düşmənlərdən xilas edə bilsin. Lakin o, bununla razılaşmır. Anası Sara xatunu elçi kimi osmanlıların düşərgəsinə göndərir. Uğursuz diplomatik danışıqlar nəticəsində Dəspinə xatun doğulduğu torpağı, vilayət varisliyini və ailəsini itirir. Bundan sonra, onun Sara xatunla və saraydakılarla münasibətləri korlanır. Çox keçmir ki, Uzun Həsənin anası vəfat edir. Həyat yoldaşı ondan itirdiyi torpaqları geri almağı tələb edir. Onun bu təklifi Uzun Həsənə baha başa gəlir. Belə ki, 1472-ci ildə Malatya döyüşündə II Fateh Mehmetə qalib gəlsə də, 1473-cü ildə Otluqbeli döyüşündə məğlub olur. Bundan sonra, onların arası soyuyur və heç vaxt görüşmürlər. Uzun Həsənin ölümündən sonra 1478-ci ildə 40 yaşında dünyasını dəyişən Dəspinə xatun Diyarbəkirdəki Müqəddəs Georgi kilsəsində dəfn olunur.

Mahnının etimologiyası haqqında müxtəlif versiyalar səsləndirilir. Bir versiyaya görə, "Sarı gəlin" mahnısının tarixi İslamdan əvvələ gedib çıxır. Amma bəzi musiqiçilər elə hesab edirlər ki, bu əsərin 150-200 illik tarixi var. İntonasiyasına görə, mahnı çox arxaikdir - 3-4 notun üzərində qurulub. VII əsrin əvvəllərində "sarı" sözü rəmzi mənada "böyük", "dağ" anlamında qəbul edilib. Qədim türk anlayışında isə "sarı" "kübar", "incə" deməkdir. Bizdə bu ifadə iki anlayışda - "rəng" və "ürəyimin sarı siminə toxunma" kimi istifadə edilir.

**Fidan HÜQUQQIZI,**
**“Xalq qəzeti”**

# Naxçıvan karateçisi beynəxalq turnirin mükafatçısı olub

**Türkiyədə “Çanaqqala Open” beynəlxalq karate turniri keçirilib. Yarışda böyüklər, uşaq, yeniyetmə, gənclər olmaqla 1000-dən çox idmançı fərdi və komanda tipli yarışların medalları uğrunda mübarizə aparıb. Naxçıvan Karate-do Federasiyasının idmançısı Rafiq Hüseynli də bu yarışda öz bacarığını nümayiş etdirib.**




Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyindən verilən məlumata görə, 12 yaşlılar arasında çıxış edən Rafiq kumite yarışında 52 kiloqram çəki dərəcəsi üzrə uğurlu nəticəyə nail olub. Təmsilçimiz gümüş medala layiq görülüb.

Qeyd edək ki, dünya və Avropa çempionu olmağı bacaran yeniyetmə idmançımız ölkə və beynəlxalq miqyaslı yarışların da qalib və mükafatçısıdır.

**Səbuhi HƏSƏNOV,**
**“Xalq qəzeti”**

Yaddaşlarda yaşayanlar

# Cavad Heyət zamanın hökmünə çox inanırdı

**O, müstəqillik illərinin əvvəllərində Azərbaycana tez-tez gəlirdi. Hər gələndə də Nahid Hacızadə ilə mütləq görüşürdü. “Dalğa” qəzetinə verdiyi müsahibələrin ikisini mən qələmə almışdım. Bu qısa yazıda onunla görüşlərimizin hərəsindən bir məqamı yada salmaq istəyirəm.**



**Birinci görüşdə demişdim ki,** Yaqub Zurufçu Cənubun səsi, Seyid Məhəmmədhüseyn Şəhriyar sözü, Cavad Heyət isə Cənubun özüdür. Onda həmkarlarımızdan biri “düzəliş etməyə” çalışmışdı: “Yox, Cavad Heyət Cənubun varlığıdır”. Məlum olduğu kimi, Cavad Heyətin ərsəyə gətirdiyi “Varlıq” jurnalını nəzərdə tuturdu.

Ustad mənim qənaətimə düzəliş etmək istəyən həmkarımıza olduqca astadan, sakitcə, gülümsəyərək cavab vermişdi: “ Biz cənubda Süleyman Rüstəmi də, Bəxtiyar Vahabzadəni də, Rüstəm Əliyevi də ayrı-ayrılıqda Azərbaycan kimi qəbul edirik. Ona görə də bu cavan jurnalistin dediyini elə o şəkildə qəbul etmək olar”.

***

**İkinci görüşümüzdə soruşmuşdum ki,** 1945-ci ildə Hitler faşizminin qurbanı olmuş Almaniyanı güclü dövlətlər parçalamışdı. Alman xalqı artıq bir neçə ildir ki, birləşib. Bəs biz nə üçün yüz illərdir ki, birləşə bilmirik?

Cavad bəy dedi ki, bunun üçün zaman yetişməlidir. Zaman çox məsələləri həll edə bilir.

Dedim ki, bəlkə biz zamanı bir az tələsdirək?

Dedi ki, zamanı sürətləndirsək, bərk getməli olarıq, tərləyərik. Əlavə etdi ki, qramafon valları hansı tezlikdə yazılıbsa, o tezlikdə də oxudulmalıdır. Yoxsa səs təhrif olunur. Ona görə də biz öz üzərimizə düşən işləri məsuliyyətlə görməli, vaxtı, məqamı gözləməliyik.

***

**Ustadla üçüncü görüşümüz** “Respublika” sarayında, “Kitabi Dədə Qorqud dastanı”nın 1300 illiyi münasibətilə keçirilən beynəlxalq məclisdə olmuşdu (Elə rəhmətlik foto-müxbirimiz Cahangir İbadov bu yazıda təqdim etdiyimiz fotonu da həmin tədbirdə çəkmişdi). Orada soruşmuşdum ki, biz bu dastanın 1300 illiyini qeyd edirik, türkmənlər isə 1500 illiyini qeyd ediblər. Bunların hansı doğrudur?

– Hər ikisi!

– Necə yəni?

– Bu tədbirlərin adlarına fikir verin. Türkmənlər “Dədə Qorqud” dastanının 1500 illiyini qeyd ediblər. Yəqin ki, əllərində 1500 il əvvələ aid əsaslar var. Biz isə həmin dastanın kitab şəklinə salınmasının 1300 illiyini qeyd edirik. Bizim də əlimizdə əsas var. Bizim keçirdiyimiz yubileyin adına fikir verin. Bunlar tamamilə fərqli məsələlərdir. Kimsə o dastanın, tutaq ki, 1800 il əvvələ aid bir əlamətini, sübutunu tapsa, həmin tarixə də əsaslanar. Yəni, dastanın şifahi şəkildə, dildən-dilə keçərək sonrakı nəsillərə ötürülməsi ilə onun kitab halına salınması tamamilə fərqli məsələlərdir.

**Allah Sənə rəhmət eləsin, böyük insan!**

**İ.QAÇAYEV,**
**“Xalq qəzeti”**

# Dünya çempionatında qızıl medal – Paralimpiadaya vəsiqə



Fransadan daha bir qələbə sorağı gəldi. Parisdə keçirilən dünya çempionatında komandamızın XVII Yay Paralimpiya Oyunlarına ikinci lisenziyası təmin edildi.

Budəfəki vəsiqənin sahibi Azərbaycan Milli Paralimpiya Komitəsinin atletika idman növü üzrə milli komandasının üzvü Lamiyə Vəliyevadır. İdmançımız yarışda 100 metr qaçış üzrə 11.99 nəticə göstərərək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşmaqla, həm də Paris Paralimpiyadasında iştirak hüququ əldə etdi. 21 yaşlı idmançı dünya çempionu olmaqla, həm də karyerasının ən böyük uğurlarından birini qazandı.

İyulun 16-da təmsilçimiz 400 metr məsafəyə qaçış yarışının yarımfinalında gücünü sınayacaq. Əminik ki, Azərbaycan atleti növbəti medal şanslarından da geniş bəhrələnəcək. Onu da vurğulamaq yerinə düşər ki, Lamiyə Vəliyeva "Tokio–2020" Yay Paralimpiya Oyunlarında 400 metr məsafəyə qaçış üzrə yarışda böyük hünər göstərib. Həmin məsafə üzrə 55.00 saniyə nəticə ilə bütün rəqiblərini qabaqlayaraq qızıl medal qazanan istedadlı paralimpiyaçımız 2012-ci ildə Kuba atleti Omara Durand tərəfindən müəyyən olunan Paralimpiya rekordunu da (55.12 saniyə) yeniləyib. Paralimpiyaçımız dördilliyin ən nüfuzlu idman yarışında daha bir medalı qadınların 100 metr məsafəyə qaçışında qazanıb. Belə ki, idmançımız 11,99 saniyə nəticə ilə gümüş medala sahib olub.

Qeyd edək ki, bundan əvvəl "Paris-2024" Yay Paralimpiya Oyunlarına komandamız ilk lisenziyasını əldə edib. İlk lisenziyaya nüvə itələmə növündə 11.74 metr nəticə göstərməklə 4-cü yeri tutan komandamızın üzvü Oloxan Musayev sahib olub.

Xatırladaq ki, Tokio Paralimpiyadasında 19 medal – 14 qızıl, 1 gümüş və 4 bürünc qazanan Azərbaycan komandası ümumi sıralamada onuncu pillədə qərarlaşmışdı.

**Leyla QURBANOVA,**
**"Xalq qəzeti"**

# Vaxtsız xəzanın vida nəğməsi



**Abşeronda ən tez "oyanan" ağac söyüddür. Bu ağacın qeyri-adi xüsusiyyətlərindən biri həm ilk yarpaqlarının, həm çiçəyinin ( bəli, o, bar verməsə də çiçək açır), həm də zoğlarının sarı olmasıdır. Yarpaqlar tam açılandan sonra ağac yaşıllaşır... Bütün bunları kim görməyib ki?**

Ancaq görənlərin hamısı şair və ya rəssam olmadığına görə, bu lövhə çoxlarına adi gəlir. Mərhum rəssam Hacağa Nəzərli isə həmin lövhəni görəndə – daha doğrusu, ona həmin gözəlliyi mən göstərmişdim – Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərinin əvvəlindən bir beyti xatırlatmışdı:

*Axır günün əvvəl eyləyib yad,*
*Axıtdı sirişkü, qıldı fəryad.*

Təbii ki, bütün körpələr dünyaya gələndə ağlayırlar. Füzuli isə Qeysin (Məcnunun) dünyaya gələndə ağlamasını onun, guya, axır gününü yad edərək göz yaşı tökməsi kimi mənalandırmışdı. Hacağa Nəzərli də söyüd ağacının ilk yarpaqlarının sarı olmasını onun gələcək xəzanı duyma əlavəsi kimi yozmuşdu.

Dünən – iyulun 10-da işə gələndə küləyin çinar ağaclarından qoparıb asfalt boyu "rəqs etdirdiyi" yarpaqları görəndə məhz Hacağa müəllimin həmin ifadəsini xatırladım. Mən bir neçə gün əvvələdək küçələrin bəzəyi, çinarların libası olan yarpaqları, təmizlik işçilərinin cidd-cəhdlə yığıb toplamağa çalışdığı vaxtsız xəzanın qurbanlarını "quraqlığın yaratdığı lövhələr" kimi qəbul etdim. Həmkarımız, şair Əli Nəcəfxanlı isə iyulda budaqlara vida söyləyib ayaqlar altına düşən yarpaqları dünyadan "vaxtsız köçənlərlə" müqayisə etdi.

... Yadımdadır, gənclik illərimdə kəndimiz haqqında yazdığım bir şeirdə xəzan yarpaqlarını "Külək" adlı atın ayağındakı qızıl nala bənzətmişdim;

*Küləklər payızın kəhər atları,*
*Yarpaqlarsa qızıl naldı, kəndimiz.*

Amma indi payız deyil axı. Vaxtsız "ölən" yarpaqların ayaq altına düşməsi quraqlığın insafsızcasına yaratdığı ağır lövhələrdir. Nə yaxşı ki, çinar yenə göyərəcək... Və təəssüf ki, ölənlər geri qayıtmayacaq...

**İttifaq MİRZƏBƏYLİ,**
**Elşən AĞALAR (foto) ,**
**"Xalq qəzeti"**

## Mədəniyyət xəbərləri



**Azərbaycan Dövlət "Yuğ" Teatrında mövsümə "Mənəm, mən" tamaşası ilə yekun vurulub.**

Teatrdan verilən xəbərə görə, tamaşa İlqar Fəhminin əsəri əsasında, Əməkdar incəsənət xadimi Mehriban Ələkbərzadənin quruluşunda hazırlanıb.

Mistik-psixoloji dram janrlı səhnə əsərində Xalq artisti Məmmədsəfa Qasımov, Əməkdar artist Qasım Nağı, aktyorlar Ziya Ağa, Əbdülqəni Əliyev, Amid Qasımov, Vüqar Hacıyev, Elgün Həmidov və Elşən Əsgərov çıxış ediblər.

***

**"Qobustan" dərgisinin baş redaktoru, yazıçı-dramaturq Pərvin Nurəliyeva "Camphood" yay məktəbinin şagirdləri ilə görüşüb.**

Müxtəlif yaş qruplarından olan uşaq və yeniyetmələr üçün təşkil edilmiş yay məktəbinin əsas məqsədi məktəblilərin tətil boyunca yeni bilik və bacarıqları əylənərək öyrənməsi, əldə etməsidir. Belə ki, ən müxtəlif mütəxəssis və məşqçilər yay düşərgəsində uşaqlarla maarifləndirici, öyrədici söhbətlər aparır, polemikalar üçün mövzular tapırlar.

Pərvin Nurəliyeva uşaqlara kitabların insanın özünüinkişafında rolundan söz açıb. Balacalar oxuduqları yaddaqalan əsərlər haqda fikirlərini bölüşüblər. Həmçinin onlarla uşaq pyesinin müəllifi kimi, balacaların sifarişləri də yazıçı üçün maraqlı olub. Uşaqlar



hansı mövzularda əsərlər, tamaşalar, filmlər gözlədikləri haqda düşüncələrini bölüşüblər. Həmçinin balaca istedadlar öz yazdıqları mətnlərdən, şeirlərdən bəhs edib, yazıçı ilə birgə kiçik süjetlər qurublar. Sonda Pərvin Nurəliyeva Azərbaycan və rus dillərində kitablarını və "Qobustan" toplusunun son saylarını uşaqlara hədiyyə edib və iştirakçılarla xatirə fotoları çəkdirib.



***

**Sumqayıt Şəhər İcra Hakimiyyəti başçısının müavini Fərid Ələkbərovun rəhbərlik etdiyi nümayəndə heyəti Belarus Respublikasının Mogilyov şəhərində səfərdə olub.**

Fərid Ələkbərov Mogilyov şəhərinin yaranmasının 756-cı ildönümü ilə bağlı keçirilən "şəhər günü" tədbirlərində iştirak edib. Mogilyov şəhərinin meri ilə görüşdə Sumqayıt ictimaiyyəti adından hədiyyələr təqdim olunub.

Qeyd edək ki, Sumqayıt şəhəri 14 il bundan öncə Mogilyov şəhəri ilə qardaşlaşıb.

## İdman xəbərləri

# "Qarabağ"ın Cəbəllütariq qələbəsi




**Dünən UEFA Çempionlar Liqasında I təsnifat mərhələsinə start verilib.**

Ağdam təmsilçimiz ilk oyununda səfərdə Cəbəllütariqin "Linkoln" klubu ilə qarşılaşıb. Oyunda hesabı meydan sahibləri açsa da, "Qarabağ" 2:1 hesabı ilə qalib gəlib. Qələbə qolunu 90+4-cü dəqiqədə "Qarabağ"ın yeni transferi Yassin Benzia vurub.

Xatırladaq ki, cavab görüşü iyulun 19-da Bakı Olimpiya Stadionunda keçiriləcək.

### Atletlərimiz Finlandiyada 6 medala sahib olublar

**Finlandiyanın Tampere şəhərində keçirilən veteranların Avropa Oyunlarında komandamız yarışı 2 qızıl və 4 gümüş medalla başa vurublar.**



Sadıq Sadıqov 65 yaşlı kişilərin yarışında 1500 metr məsafəyə qaçışda qızıl, 400 və 800 metrdə isə gümüş medala sahib olub. Faiq Bağırov qırx beş yaşlı idmançıların mübarizəsində 10 kilometr məsafəyə idman yerişində qızıl medal qazanıb, uzunluğa tullanma yarışında isə ikinci yeri tutub. Qadınlar arasında 65 yaş kateqoriyasında nizə atma yarışında Tamilla Bünyadova isə gümüş medal alıb.

### Parabadmintonçumuz 2 medal qazanıb



**Parabadmintonçumuz İbrahim Əliyev Uqandanın paytaxtı Kampala şəhərində keçirilən beynəlxalq turnirdə uğurla çıxış edib.**

İdmançımız kişilərin qoşa yarışında gümüş, şəxsi kateqoriyada isə bürünc medal qazanıb.

Xatırladaq ki, İ.Əliyev ötən il analoji turnirdə şəxsi yarışda bürünc medal qazanıb.

**L.SABİRQIZI, "Xalq qəzeti"**

# Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Səhiyyənin Təminat Mərkəzi" Publik Hüquqi Şəxsi

## AÇIQ TENDER ELAN EDİR

**Lot-1. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəsissələri üçün dərman vasitələrinin satın alınması.**

**Ümumi məlumat-**

**Satınalan təşkilatın adı – "SƏHİYYƏNİN TƏMİNAT MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXSİ**

**Satınalma predmeti-**

**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəsissələri üçün dərman vasitələrinin satın alınması.**

**Satınalan təşkilatın ünvanı- AZ 1022, Bakı şəhəri, akademik M. Mirqasımov küçəsi 1A.**

**İştirak haqqı 2000 manatdır.**

**Təşkilat-Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin tabeliyində "Səhiyyənin Təminat Mərkəzi" PHŞ**

**VÖEN- 1008078521**
**İBAN- AZ41CTRE00000000000002128242**
**Bank- Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN- 1401555071**
**Kod- 210005**
**M/h- AZ41NABZ01360100000000003944**
**SWIFT:CTREAZ22**
**Büdcə səviyyəsinin kodu -7 (fond)**
**İqtisadi təsnifat- 142330**

**Tələb olunan sənədlərin təqdim edilməsinin son tarixi və vaxtı- 25 iyul 2023-cü il saat 12.00-dır.**

**Təkliflərin son təqdim olunma tarixi və vaxtı- 7 avqust 2023-cü il saat 12.00-dır.**

**Zərflərin açılış tarixi və vaxtı- 8 avqust 2023-cü il saat 12.00-dır.**

**Əlaqələndirici şəxs- Ruqiyə Həmidova , telefon-+994503282280.**

**İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər;**

**İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitlər.**

**Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.**

**Tender təklifi (zərflərin açıldığı gündən qüvvədə olma müddəti) 70 bank günü.**

**Tender təklifinin ümumi qiymətinin 1 faizi məbləğində təminatın qüvvədə olma müddəti (zərflərin açılış tarixindən sonra) 30 bank günü.**

**Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış.**

**İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.**

**İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.**

**Satınalan təşkilatın müəyyən etdiyi digər sənədlər.**

**Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Müsabiqə proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar müsabiqədə iştirak üçün göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) müəyyən olunan tələblərə uyğun təqdim etməlidirlər. Təklif və bank təminatı möhürlənmiş ikiqat zərfdə təqdim edilməlidir. Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Təkliflərin açılışı zamanı iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.**

**Tender komissiyası**

## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

**"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciətlər əsasında Azərbaycan Respublikası Mərkəzi Bankı idarə heyətinin 5 iyul 2023-cü il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 8 (səkkiz) fiziki şəxsə və 1 (bir) hüquqi şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.**

**"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə əsasən ləğv olunan lisenziyaların**

**SİYAHISI**

| № | Lisenziya sahiblərinin adları | Lisenziyaların verilmə tarixi | Lisenziyaların nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Dəmirov Yaşar İslam oğlu | 24.06.2009 | 000191 | 4100051282 |
| 2 | Əhmədli Yunus Qəzənfər oğlu | 21.11.2019 | SA-0176 | 1404858842 |
| 3 | Əhmədov Şərafəddin Tofik oğlu | 02.12.2022 | SA-0267 | 3103895982 |
| 4 | İsmayılzadə Orxan Vahid oğlu | 11.04.2013 | 000914 | 8301101042 |
| 5 | Kazımov Cavid Rəfail oğlu | 23.02.2016 | 088441 | 7600495802 |
| 6 | Qafarova Ülkər Mahir qızı | 21.05.2014 | 080576 | 1003288962 |
| 7 | Məmmədov Əsgər Həmid oğlu | 07.08.2012 | 000708 | 2301720272 |
| 8 | Məmmədov Mahir Abit oğlu | 24.10.2013 | 000976 | 1200517162 |
| 9 | "Otokoç Azərbaycan" MMC | 06.05.2011 | 000430 | 1700234011 |

Xalq qəzeti
Xalqın qəzeti!
№ 143 (30259) 12 iyul 2023-cü il, çərşənbə
veb-sayt: www.xalqqazeti.az

Maraq dünyamız

# Bayram süfrəsi ünsiyyət məktəbidir

**Bir çox ailələr bayramları birgə ziyafətlə qeyd edirlər. Bu adət dərin rəmzi məna daşıyır. Valideynlər və uşaqlar yeməkdən və ünsiyyətdən həzz alır və birlikdə şənlənirlər.**



Bu, özünü bir bütövün hissəsi kimi hiss etməyin təsirli yoludur. Buna görə də ailənin hər bir üzvü bayram süfrəsinin hazırlanmasına öz töhfəsini verməyə çalışır. Birgə yemək hazırlamaq, ailə üzvlərinə xidmət və yeməyin özü ailə bağlarını gücləndirir.

Və təbii ki, ailə ənənələri xüsusi əhəmiyyət kəsb edir. Bu zaman valideynlərin vəzifəsi övladlarına sağlam qidalanma vərdişlərini aşılamaq, onlara sağlam və təhlükəsiz qidalar seçməyi öyrətmək, sağlam həyat tərzi qaydalarına əməl etməyin nə qədər vacib olduğunu öz nümunələri ilə göstərməkdir.

# İstidə nə yeyək, nə içək?

**Bir çox insan istilərin başlaması ilə daha az aclıq hiss etdiyini, daha çox tərəvəz və meyvə yemək istədiyini bildirir. Bu, bədənin hava dəyişikliklərinə reaksiyasıdır.**



Bəs isti havalarda susuzluğa və həddindən artıq istiliyə səbəb olan qidalar hansılardır?

**Alkoqol.** Bu içkilər isti havada arzuolunmazdır, spirtin zəhərli təsiri artır.

**Diretik məhsullar.** İsti havalarda alkoqoldan əlavə, sidikqovucu xüsusiyyətləri olan giləmeyvə və meyvələr, qulançar, şüyüd, kərəviz, qazlı içkilər çox zəruri olan suyu bədəndən çıxarırlar.

**Ət.** İsti havalarda orqanizm üçün proteini həzm etmək çətinləşir. Zülalın həzmi zamanı çoxlu istilik ayrılır, bunun sayəsində bədənin hərarəti yüksəlir.

**Dondurma və soyuq içkilər.** İsti günlərdə dondurma və soyuq içkilər xoş sərinlik hissi verir, lakin bu təsir qısamüddətli olur. Bədən soyuq içkiyə temperaturun sürətlə artması ilə reaksiya verir, buna görə də biz sanki içəridən "qızırıq". Həkimlər içki içməzdən əvvəl qısa müddətə otaq temperaturunda saxlamağı məsləhət görürlər.

# Portağalın qabığı da faydalıdır

**Ölkəmizdə də sitrus meyvələrindən geniş istifadə edilir. Çaya bir dilim limon əlavə etməyi və ya portağal yeməyi çoxumuz xoşlayırıq. Bununla da immuniteti gücləndiririk.**



Ancaq az adam bilir ki, sitrus qabığından da istifadə edilə bilər. Məsələn, sitrus qabığından əla hava təravətləndiricisi hazırlamaq olar. Bunun üçün ona bir az mixək əlavə etmək kifayətdir. Sonra onu çantaya və ya qutuya qoyub paltar rəfində saxlamaq və ya avtomobilə asmaq olar.

Mətbəxdəki lövhələrin üzərinə bir az duz səpib portağal qabığı ilə yaxşıca sürtməklə pis qoxulardan da xilas ola bilərsiniz. Qabıqdan həşəratları qovmaq üçün də istifadə etmək mümkündür. O, yaxşıca xırdalanmalı, əzilməli və yanınızda saxlanmalıdır. Bundan sonra ağcaqanadlar sizi narahat etməyəcək.

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

Texnologiya yenilikləri



# "Threads" və "Twitter" rəqabətdə

**"Threads" platforması 5 gün ərzində 100 milyon istifadəçiyə çatıb. Digər tərəfdən isə "Twitter" şirkəti proqramın istifadəsində artım olduğunu iddia edib. Bəs bu iki rəqib platforma arasında fərqlər nələrdir?**

"Twitter" və "Threads" platformaları arasındakı fərqlərin başlanğıcında paylaşılan yazılarda simvol məhdudiyyətləri dayanır. Belə ki, "Threads" platformasında bu rəqəm 500 olduğu halda, "Twitter"-də 280-dir. Bundan əlavə, hər iki platformada linklər və fotoşəkillər paylaşılarkən "Threads"də 5 dəqiqəyə qədər video, "Twitter"-də isə 2 dəqiqə 20 saniyə qədər video yükləmək mümkündür..

Hər iki proqramda da paylaşılan yazılar hələ ki redaktə oluna bilmir. Bir istifadəçi "Twitter"də başqa bir istifadəçiyə mesaj göndərə bilsə də, "Threads"də hələlik bu mümkün deyil. Həmçinin, hələ "Threads"də heç bir reklam yayımlanmayıb.

Xatırladaq ki, "Meta" şirkəti "Threads" platformasını 6 iyulda istifadəçilərə təqdim edib.

*Əfsanə ƏHƏDLİ, "Xalq qəzeti"*

# "Med-PaLM" həkimləri əvəz edə biləcəkmi?

**"Google" tibbi süni intellekt çatbotunu xəstəxanalarda sınaqdan keçirməyə başlayıb.**




Tibbi məlumatlarla bağlı suallara cavab verməK üçün nəzərdə tutulmuş süni intellekt vasitəsi "Med-PaLM" adlanır. Yeni texnoloji qurğu aprelin 2-dən etibarən "Mayo Clinic" tədqiqat xəstəxanasında sınaqdan keçirilir. Bu texnologiyanın köməyi ilə sağlamlıq xidmətlərini bütün dünyaya çatdırmaq mümkün olacaq.

Lakin hələ də bu sahədə çatışmazlıqlar özünü göstərir. Tədqiqat zamanı digər həkimlərdən fərqli olaraq, "Google"un "Med-PaLM" texnologiyasının verdiyi cavablarda qeyri-dəqiq məlumatlar aşkar edilib. Buna baxmayaraq, "Med-PaLM" bir sıra tibbi məsələlərdə real həkimlər kimi də çıxış edə bilib.

*F. SALMANOVA, "Xalq qəzeti"*

# İğtişaşlar Fransaya 650 milyon avro ziyan vurub

**Sığorta şirkətləri Fransada baş verən iğtişaşlardan sonra, ümumilikdə, 650 milyon avro məbləğində təzminat üçün müraciətlər alıb. Bu barədə Fransa Sığorta Federasiyası "France Assureurs" məlumat yayıb.**



Bildirilir ki, son həftə ərzində verilmiş ərizələr də daxil olmaqla, sığorta hadisələrinin 55 faizi sahibkarların, 35 faizi isə yerli özünüidarəetmə orqanlarının əmlakına düşür. Federasiyanın məlumatına görə, söhbət zərər çəkmiş 3,9 min obyektdən gedir.

*"Xalq qəzeti"*

Sağlamlıq

# Xolesterini 2 saata düşürən nədir?

**Təbii darçın tozu ilə təmiz bal qarışığı infarktın qarşısını alır. Bu ona görə baş verir ki, darçınla bal damarları cavanlaşdırır.**



Pis xolesterini cəmi 2 saata azaldan reseptlə damarları cavan saxlamaq olar. Bunun üçün 450 qram çaya bir çay qaşığı bal və 2 qaşıq təmiz darçın tozu qarışdırıb, gündüz və axşam içmək lazımdır.

Mütəxəssislər bildirirlər ki, bu qarışımı içəndə 2 saata qanda xolesterol 10–20 faiz aşağı düşür, gecə də içib yatanda ürək ritmi tənzimlənir. Proseduru davamlı 2 həftə edib, il ərzində 3 dəfə təkrarlayanlar xroniki ürək-damar xəstəliklərində rahatlıq tapırlar.

# Depressiyanın mənbəyi mədədir

**Depressiya bu gün 300 milyondan çox insanı əhatə edir. Təbabətdə ciddi irəliləyişlərə baxmayaraq, yalnız 3 haldan birində bu bəladan sağalmaq mümkündür. Xəstəliyin geri dönmə şansı isə 50 faiz təşkil edir.**



Alimlər qida və emosional vəziyyət arasındakı əlaqəni tədqiq edən 41 araşdırma ilə öyrəniblər ki, stresli insanlar əlüstü hazırlanan xörəklər yedikdə daha çox depressiyaya düşürlər. İnsan nə qədər düzgün, sağlam qidalanırsa depressiya ilə xəstələnmə riski bir o qədər az olur.

Aralıq dənizi pəhrizinə mümkün qədər yaxın olan insanların depressiyaya düşmə ehtimalı daha azdır. Bu pəhriz çoxlu təzə meyvə, tərəvəz, kartof, lobya, qoz-fındıq və toxum yeməkdən ibarətdir. Süd məhsulları da yüksək qiymətləndirilib, balıq, ət və qırmızı şərab normada istifadə olunur.

Sübut olunub ki, Aralıq dənizi ətrafında yaşayan əhalinin ənənəvi mətbəxi ürək-damar xəstəlikləri riskini 33 faiz, xərçəng riskini isə 24 faiz azaldır.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

# İyulun ilk həftəsi – dünyanın ən isti günləri

**İyulun ilk həftəsində Yer kürəsində bütün meteoroloji müşahidələr tarixində rekord yüksək temperatur qeydə alınıb. Bu barədə Ümumdünya Meteorologiya Təşkilatı məlumat yayıb.**



Bildirilib ki, iyulun 4-cü və 7-ci günlərində orta temperatur, təxminən, 17,2 dərəcə selsi olub. Bu, istiləşmə effekti ilə tanınan El Nino təbiət hadisəsinin baş verdiyi 2016-cı ilin avqustunda qeydə alınan əvvəlki rekorddan 0,3 dərəcə yüksəkdir.

Avropa Kopernik İqlim Dəyişikliyi Xidməti dəniz səthində dünyanın ən isti gününü qeydə alıb.

*"Xalq qəzeti"*

Proqnoz

# Hava sabit keçəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən **iyulun 12-də Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 20-24°, gündüz 27-31° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunundan 763 mm civə sütununa yüksələcək, nisbi rütubət 50-60 faiz olacaq.Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24-25° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25-26° isti olacaq.Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gecə və səhər bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 30-35°, dağlarda gecə 10-15°, gündüz 16-21° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

✓ "Şahsevən 69" MMC-yə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır. VÖEN-1304785611.

# ALLAH RƏHMƏT ELƏSİN

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi general-polkovnik Əli Nağıyevə əzizi

**ZÜLEYXA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ATU-nun uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva və kafedranın kollektivi Vaqif və Günel Həsənovlara əzizləri

**MİKAYIL HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4351
SİFARİŞ 1728
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00